Xalqın qəzeti!

# Xalq qəzeti

№ 19 (30423) 30 yanvar 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## AŞPA-da Azərbaycanın əleyhinə səs verən türkiyəli deputat kimdir?




Səhifə ⇨ 8

## Azərbaycan–Türkiyə dostluğu dünyaya örnəkdir

### Prezident İlham Əliyev Türkiyə parlament nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Hulusi Akar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Hulusi Akar Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf etdiyini və bunun bir örnək olduğunu vurğuladı. Qonaq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasında mühüm rol oynadığını dedi.

*(ardı 2-ci səhifədə)*

## Ukrayna, Gürcüstan və Moldova – dost dosta tən gəlməyəndə...

### *Bu ölkələrin AŞPA müstəvisində Azərbaycanla bağlı tutduqları mövqe anlaşılmazdır*



**Dünya dövlətlərinin bəzi hərəkətləri var ki, onları başa düşmək qəlizdir. Bəzən nəinki başa düşmək, heç başa düşməyə çalışmaq da mümkün deyil. Əlbəttə, biz çox vaxt belə anlaşılmaz, səbəbsiz davranışları ölkəmizlə yaxından-uzaqdan heç bir bağlılığı olmayan dövlətlərdən görmüşük. Belə hallara əhəmiyyətsiz yanaşmış, hərdən "uşaqdır, başa düşməyib, böyüyəndə biləcək" deyiminə güc vermişik. İndi durum bir qədər fərqlidir.**

Hər halda nə Ukrayna, nə Moldova, nə də yaxın qonşumuz Gürcüstan "uşaqdır". Hesab edirik ki, hər birinin, kifayət qədər təcrübəsi var. Ən əsası isə keçdikləri yola bələdik. Məsələn, Moldova. Ölkə hələ də separatizmdən əziyyət çəkir. Məlum olduğu kimi, tanınmamış "Dnestryanı respublika" var ki, onun mövcudluğu Moldovanın suverenliyi üçün açıq təhdiddir. Əsasən şərab ixracından dolanan ölkənin, hələlik, bu problemi aradan qaldırmaq üçün hansısa potensialının olduğunu demək mümkünsüzdür. Bəli, bu yerdə Moldovanı bürümüş demokratiya eyforiyasının da köməyə gələcəyini söyləmək mümkün deyil.

Gürcüstan barədə söz açacağıq, amma onun təcrübəsi göstərdi ki, dünyanın demokrat kimi qəbul etdiyi eks prezident Mixeil Saakaşvilinin bu məfhuma güvənərək həyata keçirdiyi kurs Rusiya qoşunlarının paytaxt Tbilisinin on kilomertliyinədək çatması reallığını doğurdu. "Demokratlar" gürcülərin halına zarımaqdan başqa heç nəyə yaramadılar. Çox təəssüf ki, acı reallıq budur.

*(ardı 3-cü səhifədə)*

## Ermənistanla "qəddar zarafat" məntiqi

### Yaxud Nikol Paşinyanın ordu ilə bağlı çıxışına sözardı



**Ucuz populizm klişelərini hesaba almasaq, Ermənistanın baş naziri Nikol Paşinyanın ölkədə ordunun yaradılmasının 32-ci ildönümü ilə bağlı çıxışında diqqətçəkən məqamlar var. Yazımızda onların üzərində dayanacağıq. Ancaq əvvəlcə bir məsələ barədə söz açmağı vacib sayırıq.**

Birinci Dünya müharibəsində məğlubiyyətə uğramış Almaniya acınacaqlı aqibətə düçar olmuşdu. O zamankı şərtlər İkinci Dünya müharibəsindəki kimi dramatik məzmun daşımasa da, ölkənin silahlanması ilə bağlı qadağalar tətbiq edilmişdi. Lakin bütün bunlar Almaniyada faşizm bəlasının baş qaldırmasının qarşısını ala bilməmişdi. Yekunda Adolf Hitlerin hakimiyyətə yiyələnməsi ilə ölkə işğalçılıq planları qurmağa başlamış və tez bir zamanda istəyini gerçəkləşdirmişdi...

Bəli, İkinci Dünya müharibəsinin bəşəriyyətə yaşatdığı faciələri sadalamaqla bitməz. Almaniya bütün bunlara görə cəzasını aldı. Ölkə iki hissəyə bölündü, onun üzərinə ağır şərtlər qoyuldu. Ən əsası isə Birinci Dünya müharibəsindən sonra olduğu kimi, İkinci Cahan savaşından sonra da Almaniya, faktiki olaraq, silahsızlaşdırıldı, ölkəyə mövcud istiqamətdə məhdudiyyətlər tətbiq edildi.

*(ardı 3-cü səhifədə)*

## Seçki ilə bağlı bütün proseslərdə qadınlar önəmli rol oynayırlar



Səhifə ⇨ 6

## ABŞ böyük sınaq qarşısında



Səhifə ⇨ 11

## Son 3 ildə qeyri-neft ixracı 82 faiz artıb



Səhifə ⇨ 7



## İrəvanın sülh oyunbazlığı

Səhifə ⇨ 4



## Kərki Naxçıvanın ayrılmaz hissəsidir

Səhifə ⇨ 8



## Xudafərin qəsəbəsi şanlı qələbəmizə layiq dirçəldilir

Səhifə ⇨ 9

# Prezident İlham Əliyev Türkiyə parlament nümayəndə heyətini qəbul edib



(əvvəli 1-ci səhifədə)

Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğuladı.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirdi.

Söhbət zamanı ötən il sentyabrın 19-20-də Azərbaycanın 23 saatdan da az bir müddətdə həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulandı.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni islahatların aparıldığını dedi, Ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini qeyd etdi və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı və yeni sahələri əhatə etməsi məmnunluqla qeyd olundu, bu təşkilatın parlamentlər xətti ilə də müvafiq komitələr səviyyəsində əlaqələrin yaradılması və bu komitələrin birgə iclaslarının keçirilməsinin vacibliyi diqqətə çatdırıldı. Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Türkiyə arasında hərbi, müdafiə sənayesi, təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, hər iki ölkənin silahlı qüvvələri tərəfindən birgə keçirilən hərbi təlimlərin əhəmiyyəti xüsusilə qeyd edildi.

Sonda Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Quliyev Rauf Zahid oğlu
Novruzov Qulu Novruz oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Abazərova Kəmalə İntiqam qızı
Babayev Xəyyam Qufran oğlu
Əhədov Cavidan Zahid oğlu
Əzizov Akif Asif oğlu
Xəlilov İlal Arif oğlu
Xudaverdiyev Elxan Cahangir oğlu
Qəhrəmanov Elnur Rövşən oğlu
Məmmədov Etibar Musa oğlu
Məmmədov Namiq Yaqub oğlu
Nağıyev Samir Sabir oğlu
Novruzov Namiq Heydər oğlu
Orucov Elvin Səfər oğlu
Salmanov Rəşad Arif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2024-cü il**

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab | 0 |
| | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Şamaxı** | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 0 |
| | **Baş prokuror** Kamran Əliyev | **Saatlı** | Saatlı, Sabirabad, Biləsuvar, Cəbrayıl | 0 |
| | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **İsmayıllı** | İsmayıllı, Ağsu | 0 |
| | **Energetika naziri** Pərviz Şahbazov | **Ağdaş** | Ağdaş, Yevlax, Bərdə, Göyçay, Ucar, Zərdab, Qəbələ | 0 |
| | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar | 0 |
| | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Siyəzən** | Siyəzən, Şabran, Xızı | 0 |
| | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | 4 |
| | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Masallı** | Masallı, Yardımlı | 5 |
| | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Füzuli** (Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | 6 |
| | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Sh y** | Salyan, Neftçala | 6 |
| | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | 6 |
| | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Bərdə** | Bərdə, Tərtər | 9 |
| | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Ağdaş** | Ağdaş, Ağsu, Kürdəmir | 2 |
| | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Masallı** | Masallı, Yardımlı | 1 |
| | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Saatlı** | Saatlı, Sabirabad, İmişli, Beyləqan, Füzuli, Xocavənd | 2 |
| | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Sumqayıt** | Sumqayıt, Abşeron, Qubadlı | 2 |
| | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Yevlax** | Yevlax, Mingəçevir, Naftalan, Goranboy, Xocalı | 2 |
| | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Beyləqan** | Beyləqan, İmişli, Saatlı, Sabirabad, Xocavənd | 3 |
| | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Ucar** | Ucar, Zərdab, Kürdəmir | 3 |
| | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Cəlilabad** | Cəlilabad, Masallı, Lerik, Yardımlı | 3 |
| | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Bərdə** | Bərdə, Tərtər | 3 |
| | **Mədəniyyət naziri** Adil Kərimli | **Sh y** | Salyan, Şirvan, Hacıqabul, Biləsuvar, Neftçala | 3 |
| | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Saatlı** | Saatlı, Sabirabad, İmişli, Beyləqan, Xocavənd | 3 |
| | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Abşeron** | Abşeron, Xızı, Zəngilan | 3 |
| | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **İmişli** | İmişli, Beyləqan | 8 |
| | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Yardımlı** | Yardımlı, Masallı | 8 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşlarına gömrük xidməti general-mayoru ali xüsusi rütbəsi verilsin:

Şirinov Natiq Telman oğlu – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Əliyev Vüqar İsmayıl oğlu – Naxçıvan Baş Gömrük İdarəsinin rəisi

Cahangirov Anar Niyaz oğlu – Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi

Aşurlu Kənan Məhərrəm oğlu – “Azərterminalkompleks” Birliyinin direktoru.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2024-cü il**

## X.A.Ağalarovun Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xanlar Adil oğlu Ağalarov Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2024-cü il**

## İ.Ə.Mustafayevin Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlqar Əziz oğlu Mustafayev Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2024-cü il**

# Türkiyəli deputatlar Milli Məclisdə



**Yanvarın 29-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə Komissiyasının sədri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Paralmentin Sədri iki dost ölkənin qardaşlıq münasibətlərindən və ölkə rəhbərlərinin qarşılıqlı səfərlərindən, əlaqələrin getdikcə möhkəmləndirilməsindən söhbət açıb. Deyib ki, bu dostluğun dünyada bənzəri yoxdur. Dövlət başçılarımızın qardaşlıq münasibətləri, siyasi iradəsi və qətiyyəti nəticəsində dövlətlərarası münasibətlərimiz bu gün müttəfiqlik səviyyəsinə yüksəlib. Şuşa Bəyannaməsi əlaqələrimizin daha da inkişaf etdirilməsi üzrə yeni hədəf və istiqamətləri müəyyən edib. Bu sənədin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də həyata keçirilməsi mühüm əhəmiyyətə malikdir.

Spiker söhbət zamanı qonaqlara Azərbaycan nümayəndə heyətinin AŞPA-da fəaliyyətini dayandırması və digər məsələlər barədə də məlumat verib.

Səmimi görüş üçün minnətdarlığını bildirən Hulusi Akar bu gün Prezident İlham Əliyevlə keçirdiyi görüşə dair təəssürütlarını bölüşüb. Deyib ki, Azərbaycanın öz suverenliyini bərpa etməsi, onun bayrağının bütün suveren ərazisində dalğalanması Türkiyə üçün də qürurvericidir.

Qonaq Ermənistanın Azərbaycanın uzatdığı əli tutacağına və tezliklə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına inamını ifadə edib. Zəngəzur dəhlizi barədə də danışan TBMM-in komitə sədri qeyd edib ki, bu dəhlizin fəaliyyətə başlaması nəinki region ölkələri, həmçinin digər ölkələr üçün də böyük fayda gətirəcək.

**Ə.BƏDƏLOV**
**XQ**

# COP29-a Almaniya və Danimarkadan dəstək

**Almaniya xarici işlər nazirinin müavini Cennifer Morqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**





Görüşdə Azərbaycanın bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına (COP29) hazırlıq prosesi üzrə fikir mübadiləsi aparılıb.

*

Danimarka Krallığının Azərbaycandakı qeyri-rezident səfiri Denni Annanın rəhbərlik etdiyi nümayəndə heyəti ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.

Görüşdə bu ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqla bağlı fikir mübadiləsi aparılıb.

Eyni zamanda, iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.

**XQ**

# Ermənistanla “qəddar zarafat” məntiqi

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, məqsədimiz Hitler Almaniyası ilə Ermənistan arasında müqayisə aparmaq deyil. Ona görə müqayisə aparmırıq ki, Ermənistan törətdiyi faciələrin, yaşatdığı məhrumiyyətlərin böyüklüyünə görə Almaniyadan geri qalır. O səbəbdən paralellərə ehtiyac duymuruq ki, Ermənistan özü miqyas baxımından Almaniya deyil. Yəni, birincinin əlində imkan olsaydı, vəhşilik və vandalizm aktları baxımından ikincini geri qoyardı. Hərçənd, Xocalı soyqırımı vəhşətinə görə Ermənistanın nasist Almaniyasını “üstələdiyini” söyləmək də mümkündür.

*

Əlqərəz, hazırkı durumda Ermənistan müharibə məğlubudur. N.Paşinyan isə məğlub ölkənin lideri qismində çıxış edir və orduda islahatlardan danışır. Deyə bilmərik ki, erməni hökumət başçısı, belə demək mümkünsə, günahların bağışlandığını düşünür, yəni o zamankı Almaniya Federativ Respublikasının (Almaniya Demokratik Respublikası sabiq SSRİ-nin patronajlığı altında idi – red.) 1955-ci ildə NATO-ya qoşulması və Qərbin patronajlığına keçməsi tarixindən ilhamlanır. Ancaq bu adam 44 günlük müharibə olmamış kimi danışır. Savaşın başlanma səbəbini unudur. Yəni, orduda islahatlardan danışmaqla yanaşı, bildirir ki, Ermənistanın heç bir ölkəyə qarşı ərazi iddiası yoxdur. Görəsən, “Qarabağ Ermənistandır nöqtə” bəyanatını verən Paşinyan deyildi? Bəlkə, müharibə onun yox, bir başqasının çərənləməsi səbəbindən başlamışdı? Axı, “yeni ərazilər üçün yeni müharibə” şüarını irəli sürən Paşinyanın təyin etdiyi müdafiə naziri idi?

Əlbəttə, Nikol hər şeyi gözəl bilir, xatırlayır və çıxışında Azərbaycanla hücum etməmək haqqında müqavilə imzalamağa hazır olduğunu deyir. Bu yerdə istər-istəməz, yada tarixi Molotov-Rubbentrop paktı düşür. Məlum olduğu kimi, 1939-cu ildə Almaniyanın və SSRİ-nin xarici siyasət idarələri rəhbərləri tərəfindən imzalanmış və onların soyadları ilə tarixə düşmüş bu sənəd dövlətlərin bir-birilərinə hücum etməməsini nəzərdə tuturdu. Amma mövcud pakt birincinin 1941-ci ilin iyununda ikinci üzərinə hücumuna maneçilik törətmədi. Almaniya sazişi pozdu, Molotov-Rubbentrop paktı boş kağız parçasına çevrildi. Həmin vaxt Kremldəkilər Hitlerə inanmaqda yanıldılar. Nəzərə almadılar ki, sürətli silahlanaraq, Avropanı dizə gətirən Almaniyanın SSRİ üzərinə hücumu qaçılmazdır. Onlar, heç olmasa, Birinci Dünya müharibəsindən də dərs götürmədilər.





*

İndi Azərbaycan iki Qarabağ müharibəsi görüb. Üstəlik, Ermənistan Almaniyanın İkinci Dünya müharibəsindən sonra üzləşdiyi aqibəti yaşamayıb. O vaxt sovet qoşunları Berlində Reyxstaqın binasına bayraq sancmışdılar. Azərbaycanın bayrağı İrəvanda dalğalanmayıb. ...Silahlanmaqda olan Ermənistanın baş naziri isə deyir ki, ölkəsi qonşu dövlətlərə hücuma keçmək niyyətindən uzaqdır. Əlbəttə, Paşinyan o anlamda haqlıdır ki, Ermənistan nə Türkiyəyə, nə də İrana təcavüz niyyətindədir.

Biz Nikolun militarist siyasətinin hədəfinin Azərbaycan olmadığına inanmamaqda haqlıyıq. Axı İrəvan, faktiki olaraq, ötən ilin sentyabrınadək işğalçılıq etmişdi. Kim təminat verə bilər ki, onun hazırda belə bir niyyəti yoxdur? Hakimiyyətə gəldikdən sonra “Qarabağ Ermənistandır nöqtə” bəyanatını verən şəxsin sözlərinə etimad nə dərəcədə düzgündür? Hələ məsələnin digər tərəfi də var. Söhbət “Ermənistanın təhlükəsizliyi” şəklində ortaya atılmış oyundan gedir.

*

Bəli, Paşinyan çıxışında bildirir ki, Ermənistanın təhlükəsizlik sistemləri və onların işləkliyi ilə bağlı erməni cəmiyyətində özünə yer tapmış əvvəlki ideyalar ölkəyə münasibətdəki qəddar zarafat idi. Heç şübhə yoxdur ki, o, vurğunu 44 günlük müharibənin üzərinə qoyur. Yəni, həmin savaşa qədər Ermənistan ordusu ilə bağlı mifin yaradıldığına eyham vurur. Diqqət yetirək, bu mif hansı müstəvidə uydurulmuşdu. Əlbəttə, Azərbaycan torpaqlarının işğalı kontekstində. Bildirilmişdi ki, mübariz və yenilməz erməni ordusu müharibədə qələbə qazanıb. Paşinyan isə mifə inanaraq danışıqlar prosesini iflic hala gətirmişdi...

Əlbəttə, Birinci Qarabağ müharibəsindəki uğurda böyük pay sahibi Ermənistan ordusu olmamışdı. Necə deyərlər, it arabanın kölgəsində yatırdı, elə sanırdı ki, öz kölgəsidir. Ancaq 44 günlük müharibə mifi puç etdi. İndi isə Ermənistanın baş naziri məsələni ölkəsinin təhlükəsizlik sistemindəki çat kimi qiymətləndirir. Hər halda İrəvan otuz ilə yaxın müddətdə işğalçılıq etməsəydi, nə sabun köpüyünə bənzər mif yaranacaqdı, nə də hazırkı təhlükəsizlik çağırışları aktual olacaqdı. Fakt budur ki, Ermənistan müasir dövlətçiliyi və varlığı baxımından işğalçılığı seçmiş ölkədir.

Nikol Paşinyana gəldikdə, o, işğalçı keçmişin ölkəsinə vurduğu ağır zərbəni aradan qaldırmaq üçün fərqli yol tutmalı olduğu halda, silahlanmanı əsas götürür və bunu təhlükəsizlik amili ilə əlaqələndirir. Nəzərə almır ki, Cənubi Qafqazda təhlükəsizliyə ən böyük təhdid elə Ermənistanın özüdür. Bunu bütün dünya bilir. Sadəcə bəzi qütblər məsələni birbaşa qoyur, bəziləri isə İrəvandan özlərinin regional “planları” naminə istifadə edir. Yəni, Nikolun “qəddar zarafat” məntiqi bu gün də keçərlidir. Həqiqətən də Ermənistan onu Azərbaycana qarşı yeni müharibəyə təhrik edənlərin zarafatlarını nəinki ciddi qəbul edir, eyni zamanda, dərin illüziyaya qapılır.

Paşinyanın “qəddar zarafat” məntiqi ona görə keçərlidir ki, o, ölkəsinin yeni, müasir silah və texnika əldə etmək yolu tutduğundan fəxrlə söz açır və əlavə edir ki, hökumət son illər mövcud istiqamətdə bir neçə milyard dollarlıq müqavilələr imzalayıb. Bu isə hakimiyyətə yeni yiyələnmiş Hitlerin Birinci Dünya müharibəsindəki məğlub Almaniyanı Birləşmiş Millətlər Cəmiyyətindən çıxarmasına və sürətlə silahlandırmasına bənzəyir.

Otuz ilə yaxın müddətdə işğalla üzləşmiş Azərbaycan, əlbəttə, Ermənistanın silahlanmasına seyrçi qala bilməz və qalmır da. Yəni, indiki halda Nikolun “orduda islahatlar aparmaq, güclü və döyüşə hazır orduya malik olmaq hər bir ölkənin suveren hüququdur və biz bundan sonra da bu yolla gedəcəyik. Güclü və döyüşə hazır ordu Ermənistan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini təmin edən ən mühüm amillərdən biridir” şəklindəki çıxışı səmimi qarşılana bilməz.

Erməni baş nazirin fikirlərinin səmimi qəbulu həm də ona görə mümkün deyil ki, o, ölkəsinin təhlükəsizliyinin təminatı kontekstində iki əsas amilin üzərində dayanmaqdadır. Birincisi, xarici əlaqələr, ikincisi isə beynəlxalq hüquq baxımından aparılan siyasətin legitimliyi. Onun sözlərinə görə, legitimlik, eyni zamanda, Ermənistanın xarici təhlükəsizliyinin təmin edilməsində ən mühüm amil olmalıdır. Bu nə deməkdir? Əlbəttə, avantüra və reallıqların təhrifi, habelə Azərbaycanın haqlı mövqeyini nəzərə almamaq.

Doğrudur, Paşinyan Ermənistanın özünü beynəlxalq ictimaiyyət tərəfindən tanındığı ərazi ilə eyniləşdirməsinin vacibliyini bildirərkən, müəyyən mənada, konstruktiv sayıla bilər. Yəni, hesab edək ki, bu deyim qonşulara qarşı ərazi iddiası irəli sürməməkdir. Ancaq məsələnin ikinci tərəfinə də diqqət yetirməliyik. Nikol bildirir ki, Ermənistanın suveren ərazisi ilə eyni olan Ermənistan SSR ərazisi qəbul edilməlidir və bu, ölkənin xarici təhlükəsizliyinin təminatı üçün strateji əsasa çevrilməlidir. Nəzərə alaq ki, belə bir fikri söyləyən otuz ilə yaxın müddətdə sərhədinin Azərbaycanın Ağdam rayonunda olduğunu iddia edən ölkənin lideridir və o, haqqında söz açdığı məsələni “Azərbaycandan gələn bir sıra aqressiv bəyanatlara” toxunaraq gündəmə gətirir. Görəsən, fərqinə varırmı ki, silahlanma kontekstində “Azərbaycanın təcavüzü” ritorikasını qabartmaq işğalçılıq niyyəti kimi assosiasiya olunur? Heç şübhəsiz, baş nazirin sözlərindən sonra Ermənistanın revanşa hazırlaşması qənaəti daha da güclənəcək. Paşinyana və tərəfdarlarına bu lazımdırmı?

Diqqət yetirək, güclü və döyüşə hazır orduya sahiblənməyin hər bir ölkənin suveren hüququ olduğunu deyən erməni baş nazir bildirir ki, heç kim Ermənistanın bu haqqını şübhə altına ala bilməz: “Əgər kimsə hüququmuzu şübhə altına alırsa, o zaman bizim varlıq haqqımızı şübhə altına alır. Belə olan halda dövlətçiliyimizi, müstəqilliyimizi, ərazi bütövlüyümüzü mümkün və qeyri-mümkün üsullarla müdafiə etməkdən başqa çarəmiz qalmayacaq”.

Aydındır ki, Paşinyanın fikri Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirdiklərinə, bir növ, cavab kimi səslənməkdədir. Belə yanaşmada 44 günlük müharibədən əvvəlki “yeni ərazilər uğrunda yeni müharibə” deyimi ilə oxşarlıq axtarıla bilər. Yəni, Azərbaycanın məsələni məhz bu cür qəbul etməsi mümkündür. Çünki işğala məruz qalmış ölkədir. Deməli, Paşinyanın hücum etməməklə bağlı “güclü və geri dönməz zəmanətləri” də boş söz yığınından başqa bir şey sayılmayacaq.

*

Ermənistan müharibə məğlubu kimi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi də Nikolun fikirlərinin səmimiliyinə şübhə yaradır. Digər tərəfdən, Paşinyan qoşunların tutduqları mövqelərdən geri çəkilməsi fikrini ortaya atır və yenə 1991-ci ilin Alma-Ata Bəyannaməsinə söykənməyə çalışır. O deyir ki, Azərbaycanın və Ermənistanın hazırkı sərhədləri sözügedən sənədə uyğun olaraq dövlət sərhədinə çevrilib və mövcud əsasda 2022-ci il oktyabrın 6-da Praqada qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınması barədə razılıq əldə olunub. Söhbət Azərbaycan Prezidenti İlham Əliyevin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Paşinyanın görüşündəki razılaşmadan gedir.

Ancaq məlumdur ki, həmin razılaşmadan, təxminən, bir il sonrayadək Azərbaycan ərazisində, yəni Qarabağda Ermənistanın hərbçiləri qalırdılar və onlar yalnız lokal xarakterli antiterror tədbirlərindən sonra ərazini məcburən tərk etdilər. Deməli, Ermənistan indiyədək yalnız zor dilindən anlayıb. Belə olan halda Nikolun ölkəsinin sülh gündəliyinə sadiqliyini və bu gündəmdən kənara çıxmayacağını dilə gətirməsi də inandırıcı görünmür.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Ukrayna, Gürcüstan və Moldova – dost dosta tən gəlməyəndə...



**(əvvəli 1-ci səhifədə)**

Əlqərəz, Moldovaya nəzərən də ölkənin Qərbyönümlü siyasət xəttinin oradakı separatçılığı aradan qaldırmaq baxımından güclü olacağını bildirmək olmur. Hər bir halda Azərbaycan həmişə Moldovanın ərazi bütövlüyünü tanıyıb və dəstəkləyib. Yenə də eyni mövqedədir. Ölkəmiz üçün “Dnestryanı respublika” adlı qurum yalnız və yalnız qondarmadır. Belə olan halda...

Keçək Ukraynaya. Bəribaşdan deyək ki, Azərbaycan Ukraynanın da ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Əlbəttə, bu zaman biz qlobal siyasətin ayrı-ayrı seqmentlərini incələyib fikir yürütmək, ölkənin hazırkı iqtidarının beynəlxalq miqyasda apardığı siyasətin yanlış kimi qiymətləndirilməkdə olan tərəflərinə varmaq niyyətindən uzağıq. Məsələyə prinsipial yanaşırıq. Yanaşmamız isə budur ki, Ukrayna ərazisində də qondarma və separatçı mahiyyət daşıyan, özünü dövlət kimi qələmə verən birləşmələr olmamalıdır. Daha dəqiq desək, ölkənin ərazi bütövlüyü və suverenliyi toxunulmazdır.

Üstəlik, Azərbaycanın Rusiya-Ukrayna müharibəsindən əziyyət çəkən ikinciyə humanitar yardımları da vurğulanmalıdır. Əlbəttə, insafən Ukraynanın İkinci Qarabağ müharibəsindəki mənəvi dəstəyini də unutmuruq və unutmarıq da. Ancaq...

İndi isə uzaqdan yaxına keçək. Yəni, Gürcüstan barədə danışaq. Az əvvəl Rusiya tanklarının Tbilisinin həndəvərinə gəlməsindən söz açdıq. Məlum olduğu kimi, 2008-ci ildə yaşanmış bu hadisə işğalçılıq idi. Onun hansı zəmində meydana çıxmasından da danışdıq. Əlbəttə, sözümüz elə anlaşılmamalıdır ki, o zamankı Prezident M.Saakaşvili nəyisə düz etməmişdi. Yenə də mövcud xüsusdakı beynəlxalq miqyaslı mülahizələrin təfərrüatlarına varmaq kimi məqsədimiz yoxdur.

Əlahəzrət fakt budur ki, hazırda Gürcüstan da separatizmdən əziyyət çəkir. Söhbət Cənubi Osetiya və Abxaziya problemindən gedir. Bu problemlərin qalması ölkənin torpaqlarının işğalı deməkdir. Azərbaycan isə hər zaman belə mövqedə olub ki, Gürcüstanın ərazi bütövlüyü və suverenliyi toxunulmazdır.

Bəli, adlarını çəkdiyimiz üç dövlətin hər birinə, daha doğrusu, onların üzləşdikləri durumlara həssas münasibətimiz olub və var. Müəyyən mənada, heyətinin etimadnaməsinin təsdiqlənməməsi də bunun nəticəsidir. Məsələnin mahiyyətinə varmaq, əsl həqiqətə söykənmək o qədərmi çətindir? Fikrimizcə, yox! Elə isə keçək birbaşa mətləbə.

Beləliklə, Gürcüstan, Ukrayna və Moldova nümayəndə heyətləri AŞPA da keçirilmiş səsvermədə Azərbaycanın nümayəndə heyətinin mandatından məhrum edilməsinə səs veriblər. Yuxarıda sadaladıqlarımız isə ölkəmizin onların üzləşdikləri bəlalara münasibətinin, həmrəyliyinin nümunələri idi və bu həmrəylik, şübhəsiz, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin axarını da müəyyənləşdirən başlıca faktor rolunda çıxış edir. Belə olan halda nə üçün arxadan zərbə almalıyıq?

Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova keçmiş sovet respublikaları kimi bir-birilərinə, belə demək mümkünsə, bir köynək daha yaxındırlar. Yəni, bir-birilərinin dərdlərini, acılarını Avropadakılardan, okeanın o tayındakılardan daha yaxşı bilirlər. Əlbəttə, əsl demokratiyanın, insan haqlarının nə olduğunu bildiklərinə də şübhəmiz yoxdur. Sözümüz ondadır ki, bu ölkələr AŞPA müstəvisində Azərbaycana qarşı mövcud xüsusda oyun oynanıldığını fərqinə varmağa, sadəcə, borclu idilər. Axı, biz hər zaman özümüzü onların



borclu qalmadıqlarını deməliyik. Ancaq indiki davranışlarını da vurğulamasaq, olmaz. Yuxarıda bu ölkələrin hər birini birləşdirən xoşagəlməz durumdan, heç də təsadüfən, söz açmadıq. Bir daha deyək ki, ölkələr separatizmdən və faktiki olaraq işğaldan əziyyət çəkirlər.

Azərbaycanın da torpaqları otuz ilə yaxın müddətdə işğalda olub. Yəni, biz onların düşdükləri durumun həssaslığını daha çox anlayırıq və bu anlayışımıza uyğun davranışımızı da davam etdiririk. Onu da bildirməliyik ki, ölkəmizin bu gün dünya miqyasında üzləşdiyi problemlər də məhz işğala və separatizmə son qoymasından qaynaqlanır. Söhbət həm də Avropa Şurası Parlament Assambleyası müstəvisində qarşılaşdığımız ədalətsiz münasibətdən gedir.

Bəli, dünyanın ermənipərəstləri ölkəmizdən 44 günlük müharibənin də, lokal xarakterli antiterror tədbirlərinin də qisasını almağa girişiblər. Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi onlara ağrılı gəlir. Hər vasitədən, hər yoldan istifadə edirlər ki, Azərbaycanı beynəlxalq ictimaiyyətin gözündən salsınlar, erməni avantürizmi üçün zəmin hazırlasınlar. Nəhayət, Cənubi Qafqazda sülh prosesini pozsunlar. Ölkəmizin AŞPA-dakı nümayəndə haqlarını tanımağa borclu bilmişik. Uman yerdən küsməzlərmi? Küsərlər!

Əlbəttə, Azərbaycan heç kəsdən küsmək niyyətində deyil. Ölkəmiz bütün müstəvilərdə rasional davranış nümayişinin tərəfdarıdır. Rasional davranış isə həm də hadisə və proseslərə adekvat yanaşma tələb edir. Ölkəmiz aktiv diplomatiya potensialına malikdir. Bunu kimlər bilməsələr və qəbul etməsələr də, adlarını çəkdiyimiz üç ölkənin duruma dərin bələdçiliyi var. Üstəlik, Azərbaycanın Gürcüstan, Moldova və Ukrayna ilə birgə təmsil olunduğu GUAM-a sədrliyi məsələsini də vurğulamalıyıq. Heç şübhəsiz, Bakı potensialından istifadə edərək, təşkilata yeni nəfəs vermək qabiliyyətindədir. Ancaq indiki durumda Azərbaycan düşünmək məcburiyyətindədir. Çünki heç gözləmədiyi istiqamətdən zərbə alıb.

Yəqin razılaşarsınız ki, dost ölkələri arxadan zərbə vuran ampluasında görmək, onların bilərəkdən, ya bilməyərəkdən ermənipərəstliyə köklənmiş oyunda iştirakçıya çevrilmələri səmimiyyətə xələl gətirir. Yaxşı olar ki, həm Gürcüstan, həm Ukrayna, həm də Moldova bunu nəzərə alsın. Nəzərə alsın və nəticə çıxarsın.

**Ə.RÜSTƏMOV**
**XQ**

# "3+3": Cənubi Qafqazın geosiyasi xilas formulu

**III məqalə**

***Qaliblər sövdələşməni elə müzakirə edirlər ki, hamı udur.***

**Arnb dQ b dsteŋ**




## Azərbaycanın siyasi-diplomatik inqilabı

II məqalənin sonuncu müddəası belə idi: Azərbaycan rəhbərliyi "3+3" formulunun həyata keçməsi üçün regional reallıqlarla regionlararası reallıqların bir-birinə dəstəyinə nail olmağa başlamışdır. Onu həyata keçirmək mexanizmi isə başlıca olaraq konkret layihələrin (energetik, informasiya, kommunikasiya, logistika, müdafiə, təhlükəsizlik və s.) reallaşması ilə bağlıdır. Bununla rəsmi Bakı meydana gələn yeni əməkdaşlıq mühitinin təhlükəsizliyi məsələsini geniş coğrafi və geosiyasi məkanda aktuallaşdırmışdır. Həm də onu iştirakçı dövlətlərin milli təhlükəsizliyi ilə birbaşa bağlamışdır.

Azərbaycanın "3+3" nümunəsində bu prosesi başlaması iki trendin sintezini özündə ehtiva edir: birincisi, formulun işitrakçıları ilə yanaşı, digər regionlardan olan dövlətlərin də proseslərə daxil edilməsi təhlükəsizlik sisteminin elementlərini artırmaq və bu mənada müxtəlif maraqları nəzərə almaqla onu şaxələndirməkdir. İkincisi, həmin şaxələndirməni regionlararası mühitdə təhlükəsizliyin və əməkdaşlığın təmini istiqamətinə yönəltməklə, bütövlükdə, prosesi inteqrasiya etməkdir.

Burada başlıca siyasi-nəzəri və praktiki vəzifə bu iki tendensiyanın sintezində "3+3"+digər regionlar formulu kontekstində davamlı təhlükəsizliyi və əməkdaşlığı reallaşdırmaqdan ibarətdir. Eyni zamanda, genişləndirilmiş formada regionlararası təhlükəsizlik mühitində, şərti olaraq, "nüvə formulu" adlandırdığımız "3+3"ün "geosiyasi ərimməsi"nə nail olmaqdır. Və yaxud əksinə, digər regionların "3+3" formulunun təhlükəsizlik məntiqinə, ruhuna və məqsədlərinə uyğunlaşdırılmasıdır. Təbii ki, mürəkkəb və xeyli risklərlə dolu prosesdir. Çünki geniş regionlararası mühitə müxtəlif istiqamətlərdən böyük dövlətlərin təsiri daha artıq olur. Lakin rəsmi Bakı bu cür mürəkkəb vəziyyətdən çox səmərəli xilas yolu tapmışdır və "3+3" formulu həm də bu mənada xilas düsturudur.

## XXI əsr geosiyasətinin "avtofaktoru" və "3+3" modeli

Çoxlu sayda fəlsəfi, geosiyasi, siyasi-nəzəri araşdırmalar maraqlı bir əlamətin mövcudluğunu aydınlaşdırmışdır. Biz onu XXI əsr geosiyasətinin "avtofaktoru" adlandırırıq. Geosiyasi "avtofaktor" indiki mərhələdə xaosla nizamlılığın, müəyyənliklə qeyri-müəyyənliyin və təhlükəsizliklə təhdidlərin qarşılıqlı münasibətlər dinamikasının özəlliklərinin əmələ gətirdiyi "daxili özünüyaratma məntiqi" ilə əlaqəlidir. Mövcud mürəkkəb vəziyyətdən həmin məntiq əsasında konstruktiv seçim yolu ilə xilas mümkündür. Yəni, XXI əsr geosiyasətinin ümumi dinamikası fonunda elə təhlükəsizlik sistemi yaradılmalıdır ki, yalnız sabit siyasi normativlərə əməl edən təşkiledicilər olmasın, onların həm də dinamik yeniləşən "özünüyaratma" mexanizmləri mövcud olsun. Özünüyaratma ("avtoyaratma") hər bir geosiyasi sistemin (regional və qlobal miqyaslı) sürətlə dəyişən situasiyalara yalnız adaptiv deyil, həm də yaradıcı reaksiya vermək özəlliyinə malikdir. Konkret olaraq, "3+3" formulu iki səviyyədə "avtofaktor"a malikdir. Birincisi, bu formulun birbaşa təşkilediciləri olan dövlətlər – Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Rusiya, İran, yalnız sabit siyasi normativlər əsasında deyil, həm də qarşıya çıaxacaq hər bir qeyri-müəyyənliyə aktiv reaksiya verə biləcək siyasi, iqtisadi, mədəni, energetik, geosiyasi, loqistik və s. faktorların sintezinə malik olmalıdırlar. "3+3" daxilində də bu prosesin "müdafiə kəmərini" Rusiya, Türkiyə, İran münasibətləri təşkil etməlidir.

İkincisi, "3+3"ün "avtoyaratma" mexanizmləri nə qədər geniş məkana təsir gücünə malik olsa, bir o qədər səmərəli olacaq. Bunun üçün mütləq "3+3"ün coğrafi, siyasi, iqtisadi, mədəni, energetik, informasiya və geosiyasi sərhədləri aşılmalıdır. Praktiki aspektdə məhz məsələnin bu tərəfi böyük əhəmiyyət kəsb edir.

## Bakı yeni təhlükəsizlik dəyəri yaradır

Azərbaycan "3+3" formulunun "avtofaktor" mexanizmlərini regional və qlobal təşkilatların fəaliyyətinin uyğunlaşdırılması vasitəsi ilə aktivləşdirməkdədir. Bunun üçün rəsmi Bakı MDB, TDT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəaliyyətini koordinasiyalı şəkildə həyata keçirir. Bu zaman taktiki və strateji olaraq ən yaxın tərəfdaş (partnyor) kimi Avropa İttifaqını seçmişdir. Təhlükəsizlik və əməkdaşlıq dəyərinin məzmunlaşması üçün "Bir yol, bir kəmər" meqalayihəsinin potensialından və real fəaliyyət fəlsəfəsindən istifadə edilir.

Bu prosesi rəsmi Bakı Türkiyə diplomatiyası ilə birlikdə üzv olduqları təşkilatlardakı fəaliyyət+qlobal meqalayihənin reallaşma siyasəti kontekstində aparır. Bu zaman həmin proses konkret nəticə almağa imkan verən fəaliyyət şəbəkəsinin yaradılması fonunda reallaşdırılır. Bununla belə alınır ki, "3+3"+digər regionlar şəbəkəsi, faktiki olaraq, milli təhlükəsizliklə regional təhlükəsizliyin regionlararası təhlükəsizlik şərtləri ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilir. Daha konkret ifadə ilə deyə bilərik ki, Bakının yeni təhlükəsizlik avtofaktoru regional təşkilatlardakı fəaliyyəti meqalayihələrlə qarşılıqlı əlaqədə götürməklə, dinamik təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşdırmaqla bağlıdır.

Azərbaycan bu məqsədi üç konkret istiqamətdə strateji layihələrin aktivləşməsi vasitəsi ilə həyata keçirir. Onlar, birincisi, energetik layihələr, ikincisi, informasiya-kommunikasiya layihələri, üçüncüsü, nəqliyyat-loqistika layihələridir. Həmin layihələrin hər biri üçün avtofaktor rolunu müxtəlif marşrutların yaratdığı "kommunikativ yollar şəbəkəsi" təşkil edir. Bununla da maraqlı pilləvari bir sistem yaranır. Çoxlu sayda ölkələr konkret qarşılıqlı fayda verə biləcək layihələr şəbəkəsi ilə bir-birinə "bağlanır" və həmin "bağlantıların" reallaşması dəqiq müəyyən edilmiş "kommunikativ yollar şəbəkəsi" çərçivəsində baş verir. Onlara "dəhlizlər" də deyirlər. Məsələn, "Orta Dəhliz", "Zəngəzur Dəhlizi", "Cənub Qaz Dəhlizi", "Bakı-Ceyhan" nəql marşrutu, TAP, TANAP, Bakı-Tbilisi-Qars "dəmir ipək yolu", "Şərq-Qərb dəhlizi", "Şimal-Cənub dəhlizi" və son olaraq "Yaşıl enerji" (bərpaolunan enerji) Dəhlizi. Bunlar, faktiki olaraq, mahiyyət, məzmun və məqsəd baxımından birlikdə dinamik şəbəkə təşkil edən yeni faktorlardır.

Bakının fəaliyyətinin başqa maraqlı və əhəmiyyətli tərəfi ondan ibarətdir ki, bütün kommunkativ potensiallar və onların aktual formaları vahid bir strateji istiqamətə – Qərbə inteqrasiyaya yönəldilmişdir. Bu mənada Azərbaycan regional geosiyasi "avtofaktoru" "3+3" formulu fonunda qlobal miqyasa proyeksiya etmək şansı əldə etmiş olur. Məhz bu səbəbdən, hesab edirik ki, indi Qərbdə bu formula qarşı törədilən təxribatların hamısı strateijdə iflasa uğrayacaq. Onun reallaşmasına alternativ yoxdur!

Bəs Azərbaycanın ardıcıl olaraq yaratdığı bu yeni geosiyasi və təhlükəsizlik dəyərinin dinamikası, çevikliyi, avtotəhlükəsizlik və əməkdaşlıq faktoru rolu oynaması nəyə görə realdır?

## Müasir dünya sistemini yaradan təməl faktorlar

Məsələnin mahiyyəti bu məqamla əlaqəlidir. Rəsmi Bakı bütövlükdə müasir dünya üçün zəruri olan elə faktorları aktuallaşdırır ki, onlara hər bir dövlətin hər zaman ciddi ehtiyacı vardır. Bu faktorlar üçdür: enerji, informasiya və kommunikasiya texnologiyaları. Eyni zamanda, həmin təməl faktorları bir-biri ilə siyasi, geosiyasi, təhlükəsizlik aspektlərində bağlayan nəqliyyat-logistika proqramlarıdır. Bu faktorlar sistem halında qarşıya çıxa biləcək hər bir qeyri-müəyyənliyi, riski, təhdid və təhlükəni, xaosu aşa biləcək önəmə sahibdir. Çünki müasir bəşəriyyət onlarsız mövcud ola bilməz! Digər tərəfdən, Azərbaycan konkret aspektlər üzrə elə layihələr irəli sürür ki, onlar strateji əhəmiyyətə malikdirlər. Bu o deməkdir ki, həmin layihələrin uzun müddətə reallaşmasında prosesin bütün iştirakçıları maraqlıdırlar.

Bu sırada Azərbaycanın həyata keçirdiyi siyasətdə bir vacib məqam da var. O, rəsmi Bakının hər yeni mərhələnin xüsusiyyətlərinə uyğun proqramların təşəbbüskarı olmasıdır. Buna nümunə kimi Azərbaycanın enerji sferasında "yaşıl enerji" və ya bərpaolunan enerji layihələrində fəallıq göstərməsini deyə bilərik. Bu layihələr birbaşa Avropanın yeni enerji növü ilə təmin olunması ilə sıx bağlıdır. Bura günəş, elektrik, hidrogen, külək və başqa bərpaolunan enerji növləri daxildir. Artıq bu enerji növlərinin Avropaya nəqli marşrutları müəyyən olunmuşdur. Azərbaycan Yunanıstan–Bolqarıstan (açılışı: oktyabr 2022-ci il) və Serbiya–Bolqarıstan (açılışı: dekabr 2023-cü il) qaz interkonnektorlarının həyata keçməsinin birbaşa iştirakçısıdır. Bundan başqa, Bakı 5 Şərqi Avropa ölkəsi ilə enerji sahəsində yeni əməkdaşlıq formatı yaratmışdır. Həmin format çərçivəsində Azərbaycandan elektrik enerjisi Gürcüstandan və Qara dənizin dibindən keçməklə Rumıniyaya çatdırılır.

Ayrıca, Qərbə gəldikdə isə - onlar gözəl başa düşürlər ki, əgər bütün layihələr sistemi bütövlükdə Avropanın təhlükəsizliyi və inkişafının yeni dinamik şəkil almasına istiqamətlənibsə, deməli, onun üçün həyati əhəmiyyət, var olmanın ana xəttini təşkil edir. Əgər Avropa hələ tam dəli və huşsuz olmayıbsa, elementar düşüncə və analizetmə qabiliyyətinə malikdirsə, geniş miqyasda Azərbaycanın bu prosesini ikiəlli dəstəkləyəcək! Əgər bu, baş verməsə, onda "qoca dəli və huşsuzla" bir planetdə yaşamağın mənası yoxdur! Onu "dəfn etməyin" zamanı gəlmiş olur!

## Yekun: "3+3" formulunun alternativsiz perspektivi

Bu formul həm mahiyyətinə, həm də funksiyasının strateji xüsusiyyətlərinə görə regional təhlükəsizlik və əməkdaşlığın alternativsiz formatıdır. Onun reallaşmasının baza prinsiplərini və konkret mexanizmlərini artıq Azərbaycan hazırlamışdır. Onlar sistem və ya mürəkkəb şəbəkə təşkil edirlər. Bir-biri ilə sıx bağlı olan həmin mexanizmlər praktikada işləyirlər. Məhz həmin mexanizmlər sayəsində postmüharibə mərhələsində regionda intriqalı situasiyalar hərbi toqquşmalara gətirib çıxarmır. Onu nəzərə alaq ki, regionda destruktiv fəaliyyət göstərənlər əsasən Qərbdədirlər.

Konkret olaraq, Fransa getdikcə daha dərin və geniş miqyasda Cənubi Qafqazda yeni münaqişəli situasiyalar yaratmaqdadır. Həm də Paris bu dağıdıcılıq fəaliyyətini uzun müddətə təsir edə biləcək faktorlar üzərində qurmağa çalışır. Qəribədir ki, bu məsələdə Fransanın qeyri-konstruktiv fəaliyyətinə bütövlükdə AŞPA da dəstək verir və hətta onu təxribatçı qərarları ilə motivasiya edir.

Digər tərəfdən, rəsmi Parisin və ona "züy tutanlar"ın belə davranışları Avropanın özünün maraqlarına qətiyyən uyğun deyildir. Çünki onlar bilməlidirlər ki, Avropanın enerji təhlükəsizliyinin təminində Azərbaycan strateji rol oynayır. Bunu Avropa İttifaqının rəhbər şəxsləri açıq mətnlə etiraf edirlər.

Belə çıxır ki, Azərbaycanın regionda dağıdıcı qüvvələrə qarşı mübarizəsi indiki ssenari üzrə sonsuza qədər davam etməz. Həmin prosesə "3+3" formatı çərçivəsində kollektiv olaraq reaksiya vermək gərəkdir. Bu formulun hər bir üzvü həmin istiqamətdə fəallaşmalıdır. Regionda marağı olan digər geosiyasi aktorlar mütləq surətdə Azərbaycan–Türkiyə birliyinin çağırışlarına əməli reaksiya verməlidirlər. Regionun təhlükəsizliyi üçün hamı məsuliyyət daşıyır!

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki**

---

# İrəvanın sülh oyunbazlığı

## *İndi də Almatı Bəyannaməsi?!*

**Ermənistanın Azərbaycanla sülhə hazır olub-olmaması hazırkı Cənubi Qafqaz gündəminin əsas məsələlərindəndir. Rəsmi İrəvan müxtəlif beynəlxalq platformalarda sülhə hazır olduğunu, həmçinin regional kommunikasiyaların açılmasındakı marağını bəyan edir. Bu məqsədlə hətta, "Sülhün kəsişməsi" adlı layihə də irəli sürüb.**

Elə bugünlərdə Tbilisidə işgüzar səfərdə olan Ermənistanın baş naziri Nikol Paşinyan layihəni gürcü həmkarına təqdim edib. Qeyd edib ki, layihə regional əlaqəni təşviq etmək, dövlətlərin suverenliyinə, bərabərliyinə hörmətlə yanaşmağa yönəlib. Bir sözlə, İrəvanda elə görüntü yaratmağa çalışırlar ki, sanki sülhdə maraqlı olan onlar, maraqlı olmayan bizik. Halbuki Paşinyanın, onun rəhbərlik etdiyi komandanın bəyanatları sülh istəyi ilə qətiyyən uzlaşmır.

Bir ildən çoxdur ki, Almatı Bəyannaməsinin adı Ermənistan baş nazirinin dilindən düşmür. Qeyd edək ki, 1991-ci il dekabrın 21-də imzalanmış həmin sənəd Müstəqil Dövlətlər Birliyinin məqsəd və prinsipləri, onun əsasları haqqında bəyannamədir. Bəyannamədə MDB-nin yaranması ilə SSRİ-nin mövcudluğunu dayandırdığını qeyd edən Belovejsk sazişi təsdiqlənib.

Nikol Paşinyan 2022-ci il oktyabrın 6-da Avropa Siyasi Birliyinin Praqada keçirilən I sammiti çərçivəsində baş tutan dördtərəfli görüşdə 1991-ci il dekabrın 21-də imzalanmış Almatı Bəyannaməsinə əsasən Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdi. Təbii ki, regionda hər zaman gerçəkdən sülh istəyən ölkə kimi Azərbaycan da Ermənistanın ərazi bütövlüyünü və suverenliyinə sadiqliyini təsdiqlədi. Ancaq həmin vaxtadək bəyannamənin adı erməni tərəfinin heç yadına da düşmürdü. İndi isə Almatı Bəyannaməsi Ermənistanda siyasi leksikonda ən çox işlənən sözlərdən birinə çevrilib. Lakin məlum olur ki, Paşinyan özünü Qərbə sülhpərvər imicdə göstərmək üçün bu addımı atıbmış.

Məsələn, Ermənistan müxalifətinin nümayəndəsi, ölkənin ilk prezidenti Levon Ter-Petrosyanın qurucusu və lideri olduğu Erməni Milli Konqresinin sədr müavini, Ter-Petrosyan prezident olanda onun mətbuat katibi və köməkçisi vəzifəsində çalışmış Levon Zurabyan mətbuata açıqlamasında deyib: "Paşinyan bir ildir Almatı Bəyannaməsi haqqında danışır, amma o sənəd sülh sazişinin əsasını təşkil edə bilməz. Ona görə ki, Ermənistan tərəfi həmin sənədi parlamentdə müəyyən şərtlərlə ratifikasiya edib. Həmin şərtlərə görə isə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü heç tanımayıb".

Zurabyanın açıqlamasından sonra Paşinyan təbii ki, pis vəziyyətə düşüb və əsəbi şəkildə bildirib: "Mənim bildiyimə görə, Almatıda iclas keçiriləndə erməni tərəfi heç bir şərt irəli sürməyib. Əgər belə şərt varsa, qoy, müxalifət həmin şərti təqdim etsin".

Müxalifət də öz növbəsində həmin şərti təqdim etdi. Belə ki, Zurabyan mediaya açıqlamasında deyib: "Ratifikasiya zamanı Ermənistan Ali Soveti sənədə 10 düzəliş qəbul etdi. Onuncu düzəlişə əsasən, MDB-yə yalnız keçmiş sovet respublikalarının deyil, həmçinin hələ SSRİ-nin süqutundan öncə müstəqillik haqqında referendum keçirmiş muxtar qurumların da qoşulmalarına imkan verilməli idi. Düzəliş orijinalda belə səslənirdi: "13-cü maddənin ikinci abzasına – "bütün keçmiş müttəfiq sovet respublikaları üçün açıqdır" cümləsinə, həmçinin SSRİ-nin mövcudluğunu başa vurması ilə bağlı bəyannamədən öncə öz müstəqilliklərinin elan edilməsi haqqında referendum keçirmiş muxtariyyətlər üçün də açıq olmalıdır cümləsi əlavə olunmalıdır". Ermənistan 1992-ci ildə Almatı Bəyannaməsini ratifikasiya etdi. Orada çox aydın şəkildə bir istinad var idi ki, "dağlıq qarabağ respublikası" müstəqil respublika qismində MDB-yə qoşula bilər".

Yeri gəlmişkən, qeyd edək ki, ümumiyyətlə, Almatı Bəyannaməsində ərazi bütövlüyü ilə bağlı bənd ümumi xarakter daşıyır. Yəni, burada təkcə Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü tanımasından söhbət getmir. Sənəddə ərazi bütövlüyü belə ifadə olunur: "Bəyannamə bir daha təsdiq etdi ki, SSRİ-nin mövcudluğu dayandırılır və onun yerində indi on bir keçmiş sovet respublikasının daxil olduğu Müstəqil Dövlətlər Birliyi yaranır. MDB nə dövlət, nə də dövlətüstü qurumdur, onun bütün iştirakçıları bir-birinin ərazi bütövlüyünü tanıyır və mövcud sərhədlərin toxunulmazlığına hörmət edirlər".

Ermənistan müxalifətinin təmsilçisi Levon Zurabyanın dediklərindən və proseslərin ümumi gedişindən aydın olur ki, Ermənistan diplomatiyası 2022-ci ilin oktyabrından bu yana, əslində, Almatı Bəyannaməsi ətrafında oyun oynayırmış. Bu yerdə "ayının min oyunu, bir armudun başındadır" məsəli yada düşür. İrəvan da sülh istəyi adı altında "sülh oyunu" oynayırmış.

Onu da qeyd edək ki, 2023-cü il mayın 14-də və iyulun 15-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin növbəti görüşü keçirilmişdi. Həmin təmasda da Almatı Bəyannaməsi meydana gəlmişdi. Görüşdən sonra açıqlama verən Şarl Mişel bəyan etmişdi ki, iki ölkə bir-birinin ərazi bütövlüyünü tanımaqla bağlı Praqa bəyanatına sadiqdir. Belə ki, Ermənistan Azərbaycanın 86,6 min kvadratkilometrdə, Azərbaycan isə Ermənistanın 29,8 min kvadratkilometrdə ərazi bütövlüyünü tanıyır. Beləliklə, Almatı Bəyannaməsi burada da baza rolunu oynadı. Bundan sonra ermənipərəst Qərb dövlətləri və təşkilatları böyük bir kampaniyaya start verdilər.

Onlar Paşinyanı öyməyə, onun cəsarətli addım atdığını deməyə başladılar. Bildirdilər ki, "Görün Paşinyan necə cəsarətli addım atıb. Əvvəlki erməni rəhbərlərindən fərqli olaraq, o açıq bəyan edir ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Almatı Bəyannaməsi əsasında sülh müqaviləsi imzalamağa hazırdır. Hətta bizə iradlar da tuturlurdu. Deyilirdi ki, nədənsə, Azərbaycan bu haqda çox həvəslə danışmır, çox soyuqqanlı yanaşır. Bizə çağırışlar edirdilər ki, Paşinyanın bu açıqlamasından sonra Azərbaycan da bəzi tələblərindən geri çəkilməlidir. Çünki Paşinyan belə "böyük, vacib addım atıb". Ancaq vaxt keçdi və indi bəlli olur ki, Azərbaycanın bu məsələyə soyuqqanlı, təmkinlə yanaşmasının əsaslı səbəbləri var imiş. Levon Zurabyanın yuxarıda qeyd etdiyimiz açıqlaması da bunun daha bir təsdiqidir.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**politoloq**



– Almatı Bəyannaməsinin Ermənistan parlamentində hansı şərtlərlə ratifikasiya edildiyi məlum deyil. Bunu heç bilmək də olmur. Onlar indi, yəni üstündən neçə il keçəndən sonra hansısa düzəlişlərdən danışırlar. Söhbət ondan gedir ki, əgər onlar Almata Bəyannaməsini tam qəbul etmirlərsə, sual yaranır. Bəs onlar orduları sərhəddən geri çəkməklə bağlı təklif irəli sürərkən hansı sərhədlərdən danışırlar?! Digər suallar da yaranır. Amma indi söhbət ondan gedir ki, torpaqlarımızı işğaldan azad etmişik və oyun qaydalarını biz diktə edirik. Yəni, müxtəlif hoqqabazlıqla, hansısa şərtlər irəli sürməklə məsələlər həll olunmur. Hazırda söhbət sülh müqaviləsinin imzalanmasından gedir. Onlar, ilk növbədə, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın bütün şərtlərini yerinə yetirməlidirlər. İlk növbədə, Zəngəzur dəhlizi açılmalıdır. Buna əngəl törədirlər. Görünür, sülh sazişinin imzalanmaması üçün müxtəlif bəhanələr irəli sürürlər. Əslində, bizim bu məsələ ilə bağlı mövqeyimiz kifayət qədər aydındır. Biz regionda təhlükəsizliyin təmin olunmasında maraqlıyıq. Müharibədə qalib gəlməyimizə və torpaqlarımızı azad etməyimizə baxmayaraq, yenə də alicənablığımızı nümayiş etdiririk. Sülh istiqamətində təkliflərimizi irəli sürmüşük. Bunu qəbul etmək və birdəfəlik sülh sazişinə imza atmaq lazımdır.

### Ekspert rəyi

**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**



– Almatı Bəyannaməsi ilə bağlı Ermənistanın siyasi qüvvələri arasında çox müzakirələr gedir. Levon Zurabyan isə elə də ciddi fiqur deyil. Onun fikirlərinə heç Ermənistanın özündə o qədər də əhəmiyyət vermirlər. Yəni, zəif bir qurumun nümayəndəsidir. Ümumiyyətlə, müxalifətin cəmiyyətdə səsi eşidilmir. Önəmli olan Qarabağ da daxil olmaqla, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasıdır. Bunun Almatı Bəyannaməsinə, yaxud digər bir sənədə uyğun olacağı elə də əhəmiyyət kəsb etmir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. İrəvanın başqa alternativi yoxdur. Məhz bu əsasda sülh sazişi imzalanmalıdır.

Onsuz da Paşinyanın müxalifətdən qorxusu yoxdur. Bu addımları atmaq istəsə, ona mane ola bilməyəcəklər. Müxalifət onu devirə bilmədi, seçkidə məğlubiyyətə uğradı. Küçələrə 3 mindən çox adam çıxara bilmir. Orada Levon Zurabyandan da güclü fiqurlar var. Məsələn, Serjik Sarkisyanın, Robert Koçaryanın tərəfdarları var. Heç onlar durumu dəyişə bilmirlər, nəinki Levon Zurabyan. Onun qarışıqlıq yaratması, keçmiş sənədi fərqli izah etməyə çalışması da əbəsdir.

Onlar işğal dövründə Qarabağı Azərbaycan ərazisi kimi tanımaya bilərdilər. Ancaq indi reallıqlar dəyişib. Əslində, sülh müqaviləsi, ilk növbədə, Ermənistanın özünə lazımdır. Biz sülh müqaviləsi olmadan da işimizə davam edə bilərik. Zatən, ərazi bütövlüyümüzü təmin etmişik. Ermənistanın bunu tanıyıb tanımaması heç nəyi dəyişməyəcək. Yaxud sərhəd məsələsi uzanır. Onsuz da strateji yüksəkliklər bizim nəzarətimizdədir. Bizim əsas tələbimiz odur ki, bəli, sülh sazişi imzalamaq istəyirlərsə, ölkəmizin ərazi bütövlüyünü tanımalıdırlar.

# Hikmət Hacıyevin Pakistan səfiri ilə görüşü

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee ilə görüşüb. Bununla bağlı B.Hayee "X" sosial şəbəkəsində paylaşım edib.**



Görüşdə ölkələr arasında əməkdaşlığın gündəliyi və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

"Pakistan–Azərbaycan dostluğu illər ərzində daha da dərinləşib və 2024-cü il ikitərəfli əlaqələrimizə yeni təkan verəcək", – səfir qeyd edib.

**XQ**

# Azərbaycan–Türkiyə: hərbi əməkdaşlıq yüksək səviyyədədir



**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

General-polkovnik Z.Həsənov Azərbaycan və Türkiyə prezidentlərinin dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi hərbi sahədə də əməkdaşlığın yüksələn xətlə inkişafında mühüm rol oynadığını xüsusi vurğulayıb.

H.Akar ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasının xüsusi əhəmiyyətə malik olduğunu bildirib və belə səfərlərin əhəmiyyətini diqqətə çatdırıb.

**XQ**

# Dünya Bankı ölkəmizlə əməkdaşlığa önəm verir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Ştefani Ştallmaysterlə görüşüb.**



Dünya Bankı ilə çoxistiqamətli əlaqələrin və səmərəli əməkdaşlığın əhəmiyyətini vurğulayan iqtisadiyyat naziri investisiya mühitinin təkmilləşdirilməsi, dövlət-özəl sektor tərəfdaşlığı, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı, sahibkarlığın dəstəklənməsi və digər sahələr üzrə uğurlu tərəfdaşlığı qeyd edib.

Ştefani Ştallmayster təmsil etdiyi beynəlxalq qurumun Azərbaycanla əməkdaşlığa önəm verdiyini, ölkəmizin inkişaf prioritetlərinə nail olunmasında Dünya Bankının dəstəyini davam etdirəcəyini vurğulayıb.

Görüşdə Azərbaycanın inkişaf prioritetləri, Ölkə Tərəfdaşlıq Çərçivəsi sənədində əks olunacaq məsələlər və COP29-un ölkəmizdə təşkili barədə müzakirələr aparılıb.

# COP29 üzrə təyinatlar




**Elnur Soltanov COP29 Azərbaycan üzrə baş icraçı direktor təyin edilib.**

Bu barədə COP29-un "X" sosial səhifəsində məlumat verilib.

E.Soltanov Texas Texnologiya Universiteti, Slippery Rock Universiteti və Truman Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olub.

ADA Universitetində, Xəzər Enerji və Ətraf Mühit Mərkəzində çalışıb. 2018-ci ildən Azərbaycan Respublikası energetika nazirinin müavinidir.

*

Nigar Arpadarai COP29 üzrə BMT-nin İqlim Dəyişikliyi üzrə Yüksək Səviyyəli Çempionu təyin edilib. Bu barədə COP29-un "X" səhifəsində məlumat verilib.

N.Arpadarai Milli Məclisinin deputatıdır.

# "Holokost soyqırımı müasirlərin gözü ilə"



**Yanvarın 29-da Bakıda "Holokost soyqırımı müasirlərin gözü ilə" mövzusunda dəyirmi masa keçirilib.**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Holokostun insanlığa, bəşəriyyətə qarşı törədilən dəhşətli cinayətlərdən biri olduğunu qeyd edib. Azərbaycan xalqının da soyqırımından əziyyət çəkdiyini xatırladan icraçı direktor vurğulayıb ki, biz nə Holokostu, nə də Xocalını unutmayacağıq.

İsrailin ölkəmizdəki səfiri Corc Dik vurğulayıb ki, Azərbaycan multikulturalizm siyasəti ilə bütün dünyaya nümunə göstərir. Ölkəmizin hər zaman dinc yanaşı yaşayışın tərəfdarı olduğunu bildirən diplomat Holokost qurbanlarının xatirəsinin anılmasına görə Azərbaycan dövlətinə təşəkkürünü ifadə edib.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Milli Məclisin deputatı Anatoliy Rafailov, Avropa Yəhudilərinin Bakı Dini İcmasının rəhbəri Aleksandr Şarovski və digərləri soyqırımların, qətliamların insanlığa zidd hərəkətlər olduğunu, bunun nə din, nə də hüquq çərçivəsinə sığışdığını diqqətə çatdırıblar.

Xatırladaq ki, Holokost zamanı 6 milyondan çox yəhudi qırğına məruz qalıb ki, onlardan 1,5 milyonu uşaqlardır.

**XQ**

# Türkiyənin parlament heyəti XİN-də



**Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komissiyasının sədri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Tərəflər Şuşa Bəyannaməsi çərçivəsində bütün sahələr, xüsusilə də təhlükəsizlik və ordu quruculuğu üzrə iki ölkə arasında sıx əməkdaşlıq əlaqələrini, bu münasibətlərin geniş inkişaf potensialının mövcudluğunu vurğulayıblar.

Nazir Ceyhun Bayramov qardaş ölkələrimiz arasında strateji müttəfiqlik münasibətlərinin intensiv inkişafını məmnunluqla vurğulayıb və qarşılıqlı səfərlərin bu əlaqələrin inkişafı üçün vacibliyini qeyd edib.

Hulusi Akar ölkələrimizin bütün platformalarda bir-birinə göstərdiyi qarşılıqlı dəstəyin səviyyəsindən, habelə parlamentlərarası münasibətlərin perspektivlərindən məmnunluğunu ifadə edib.

**XQ**

# Paşinyanın açıqlaması bölgənin inkişafına maneədir

**Ermənistanın baş nazirinin açıqlaması Azərbaycanla Ermənistan arasında Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli Saziş layihəsi üzrə prosesdən fikir yayındırmaq məqsədi daşıyır.**




Bu fikirləri XİN-in mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş nazirinin "ordu" günündə səsləndirdiyi fikirlərə dair yerli medianın sualına cavabında bildirib.

O qeyd edib ki, Azərbaycan tərəfinin sözügedən saziş layihəsi üzrə müzakirələr başlanandan etibarən Ermənistan tərəfinin öz Konstitusiyasında, qanunvericilik orqanının bir sıra qərarlarında, müxtəlif beynəlxalq məhkəmələrə müraciətlərində, rəsmi yazışmalarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialara son qoymağa çağırış etməsinə baxmayaraq, indiyə qədər bu istiqamətdə Ermənistan tərəfindən hər hansı bir əməli addım atılmayıb.

Ermənistanın 30 il ərzində məhz tərəf olduğu ərazi bütövlüyümüzün və suverenliyimizin tanındığı beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəlikləri kobud şəkildə pozduğu, Azərbaycana qarşı təcavüz törətdiyi, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində qeyri-qanuni yerləşdirməklə beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlətdiyi hər kəsə məlumdur.

"Qeyd edilənləri, habelə baş nazir Paşinyanın da bildirdiyi kimi, ölkəsinin ciddi hərbiləşmə siyasəti apardığını, son illərdə bir neçə milyard dollarlıq silah tədarükü müqavilələri imzalandığını, hərbi sənayeni inkişaf etdirdiyini nəzərə alaraq, Ermənistanın sülh prosesinə ciddi yanaşdığını iddia etməsi siyasi manipulyasiyadır.

Azərbaycan öz növbəsində sülh və quruculuq səylərini davam etdirəcək və Ermənistandan da sözdə deyil, əməldə adekvat addımların atılmasını gözləyir", – deyə Ayxan Hacızadə vurğulayıb.

Qeyd edək ki, yanvarın 28-də Ermənistanın baş naziri Nikol Paşinyan "ordu" günü ilə əlaqədar çıxışı zamanı, ölkəmizə qarşılıqlı silahlara nəzarət mexanizmi, habelə hücum etməmək haqqında pakt imzalamağı təklif etdiklərini bildirib.

**XQ**

# Gürcüstanın Baş naziri vəzifəsini tərk edib

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili istefa verdiyini açıqlayıb. Siyasətçinin sözlərinə görə, o, 2012-ci ildə yaradılmış hakim "Gürcü arzusu" partiyasına rəhbərlik etmək təklifi alıb. Hazırda partiyanın lideri İrakli Kobaxidzedir. Ehtimal olunur ki, Kobaxidze Qaribaşvilini əvəz edəcək və hökumətə rəhbərlik ona tapşırılacaq.**



İrakli Qaribaşvili yanvarın 29-da keçirdiyi brifinqdə vəzifəsini tərk etməsinin səbəbini açıqlamayıb. Lakin Gürcüstanın "İmedi" telekanalının analitikləri hesab edirlər ki, bu qərar qarşıdan gələn parlament seçkiləri ilə əlaqədardır. Bildirilib ki, oktyabrın 26-da parlament seçkiləri yeni formatda keçiriləcək. Seçkilər zamanı 5 faiz baryeri olan proporsional sistemdən istifadə olunacaq.

Bu arada Gürcüstan hökuməti Avropa İttifaqına daxil olmaq şanslarını artırmaq üçün 9 tövsiyənin həyata keçirilməsi üzrə fəaliyyət planını təsdiqləyib. Bu planın hazırlanmasını ölkənin Xarici İşlər Nazirliyi, eləcə də Gürcüstan parlamenti əlaqələndirib. "Rusiyanın Gürcüstana təsirini" məhdudlaşdıran qətnamə layihəsi isə rədd edilib.

**P.ƏFƏNDİ**
**XQ**

# Zəfər seçkisi yeni eranın əsasını qoyacaq

## Seçki ilə bağlı bütün proseslərdə qadınlar önəmli rol oynayırlar



**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən genişmiqyaslı proqramında nəzərdə tutulan maarifləndirmə tədbirləri müvəffəqiyyətlə reallaşdırılmaqdadır.**

Dünən Mərkəzi Seçki Komissiyasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə layihəsi çərçivəsində qadınların seçkilərdə fəallığının yüksəldilməsinə həsr olunan “dəyirmi masa” keçirilib.

Maarifləndirmə tədbirinin keçirilməsində əsas məqsəd Şərqdə ilk dəfə seçki hüququ qazanan Azərbaycan qadınlarının seçkilərdə azad və sərbəst fəaliyyətinin təkmilləşdirilməsi, onların fəallığının və məlumatlılıq səviyyəsinin daha da yüksəldilməsinə yönəlmiş layihələrin müzakirəsindən ibarət olub.

MSK sədri deyib ki, növbədənkənar prezident seçkiləri ilə bağlı silsilə maarifləndirmə tədbirləri davam edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə keçirilən bu tədbirə də xüsusi əhəmiyyət veririk. Çünki Azərbaycanda qadınlar həyatımızın bütün sahələrində fəal iştirak edirlər. Ona görə də seçki ilə bağlı bundan sonrakı bütün proseslərdə qadınlar önəmli rol oynayacaqlar. Həm müşahidəçi qismində prosesi izləyən, həm də seçici kimi prosesdə iştirak edən qadınlar fəallıq nümayiş etdirəcəklər.

M.Pənahov növbədənkənar prezident seçkiləri ilə bağlı 80 minə yaxın müşahidəçi qeydiyyatdan keçdiyini diqqətə çardırıb. Deyib ki, ölkədə 6300-dən çox seçki məntəqəsi var. Hər məntəqəyə 15-ə yaxın müşahidəçi düşür. Əsas məqsəd odur ki, müşahidəçilər fəal olsunlar, çünki onların müəyyən məsələlərə müdaxilə etmək səlahiyyətləri var.

Beynəlxalq müşahidəçilərin sayının 800-ə çatdığını bildirən MSK sədri əlavə edib ki, beynəlxalq qurumların yaxşı müşahidə aparmasını vacib hesab edirik. “Çox istərdik ki, xüsusilə ATƏT-in uzunmüddətli missiyası da müşahidə prosesində fəal iştirak etsin. ATƏT-in müşahidəçilərinin vəzifəsi işğaldan azad olunmuş ərazilərdə ciddi müşahidə aparmaq olmalıdır. Çünki biz bu seçkiləri Zəfər seçkisi adlandırırıq. Hamımız fəal olmalıyıq”, – deyə o əlavə edib.

## “Seçkidə iştirakı təşviq etmək öhdəliyimizdir”

**Bu fikri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qadınların seçkilərdə fəallığının yüksəldilməsinə münasibət bildirərkən deyib.**



O bildirib ki, vətəndaş hüquqlarından istifadə edərək seçkidə hər kəsin iştirakına dəstək verməyi hədəfləyirik. Ona görə də hamı öz öhdəliyini yerinə yetirməlidir. Biz qadınların ictimai-siyasi proseslərdə fəal iştirak etməsini arzulayırıq. Onların seçkidə iştirakını təşviq etmək bizim öhdəliyimizdir.

Qadının ailədə böyük rol oynadığını vurğulayan B.Muradova deyib ki, hamının siyasi-ictimai proseslərdə iştirakına təşviq məsələsində də qadının rolu danılmazdır. Hər kəs bacardığı işin qulpundan yapışmalı, bilmədiklərini isə öyrənməlidir.

## Beynəlxalq müşahidəçilər İsmayıllıda

**ATƏT/DTİHB-nin müşahidəçiləri İsmayıllıda seçkiyə hazırlıq prosesini izləyiblər. Qurumun müşahidəçiləri 89 saylı İsmayıllı Seçki Dairəsinə iki dəfə baş çəkiblər. Beynəlxalq müşahidəçilər, əsasən, seçici siyahılarının dəqiqliyini yoxlayıb və seçkilərə hazırlıq prosesindən razı qalıblar. Bunu 89 saylı Dairə Seçki Komissiyasının sədri Əlirəmzi Məhərrəmov deyib.**




DSK sədri dairə üzrə, ümumilikdə, 630 müşahidəçinin qeydiyyatdan keçdiyini bildirib. Onun sözlərinə görə, seçkilərə hazırlıq prosesi qanunvericiliyə uyğun formada davam etdirilir. Dairə üzrə qeydiyyatda olan 50 min 533 seçici 61 seçki məntəqəsində səsvermə hüququndan istifadə edəcək. Altı seçki məntəqəsində panduslar quraşdırılıb. Səsvermə gününə qədər pandusların quraşdırılması davam edəcək. Altı seçki məntəqəsində isə veb-kameralar quraşdırılıb. Namizədlərin təşviqat kampaniyasına geniş imkanlar yaradılıb. Bütün seçki məntəqələrində təşviqat lövhələri mövcuddur və hər bir namizədə Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq bərabər səviyyədə yer ayrılıb.

## Xaricdə yaşayan həmvətənlərimiz seçkiyə Vətən sevgisi ilə gedəcək

**Azərbaycanın Almaniyadakı səfirliyi bu ölkədə yaşayan vətəndaşlarımızın seçki hüququnu təmin etmək üçün lazım olan bütün işləri həyata keçirir. Səsvermə hüququ olan vətəndaşlarımız həmin gün seçkiyə qürurla gedəcəklər. Çünki onlar qalib ölkənin təmsilçiləridir. Hazırda Azərbaycan dünyada qalib, işğal altında olan torpaqlarını öz gücü ilə cəmi 44 günə azad edən ölkə kimi tanınır. Bu, hər bir soydaşımızı qürurlandırır. Onlar belə bir ölkənin vətəndaşı olduqlarına görə fəxr edirlər.**




Almaniyada yaşayan səsvermə hüququ olan vətəndaşlarımız da növbədənkənar prezident seçkilərinə bu əhval-ruhiyyə ilə gedirlər. Bu fikri Alman–Azərbaycan Mədəniyyət Evinin sədri Ağa Ağayev səsləndirib.

O bildirib ki, Azərbaycanda növbədənkənar prezident seçkiləri elan olunduqdan sonra səfirliyin saytında səsvermə hüququ olan vətəndaşların seçicilər siyahısına daxil olması üçün xüsusi forma dərc edilib. Vətəndaşlarımızın səfirliyin saytında qeydiyyatdan keçərək həmin formanı doldurmaları təmin edilib. Azərbaycanın Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq səfirlik tərəfindən seçici siyahıları hazırlanıb və Mərkəzi Seçki Komissiyasına təqdim edilib. Səfirliyin seçki ilə əlaqədar atdığı addımlar təqdirəlayiqdir. Almaniyadakı vətəndaşlarımızın səsvermədə rahat iştirakı üçün seçki günü nəqliyyat vasitələri ayrılacaq.

Almaniyada yaşayan vətəndaşlarımız Berlində yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində yaradılmış seçki məntəqəsində səs verəcəklər. Azərbaycanın Almaniyadakı səfirliyi artıq bu haqda seçiciləri məlumatlandırıb. Bundan öncəki seçkilərdə Almaniyanın müxtəlif əyalətlərində yaşayan soydaşlarımızın Berlinə gəlməsi və səfirliyimizin binasında yaradılmış məntəqədə səs verməsi üçün xüsusi avtobuslar ayrılmışdı. Bu proses növbədənkənar prezident seçkilərində də həyata keçiriləcək. Bu işə diaspor təşkilatları da töhfə verdilər.

Alman–Azərbaycan Mədəniyyət Evi bu seçkilərdə də soydaşlarımızın seçki məntəqəsinə rahat çatması və səs verməsi üçün öz dəstəyini təklif edəcək. Almaniyada yaşayan vətəndaşlarımız hər zaman seçkilərdə yüksək fəallıq nümayiş etdiriblər. Diaspor rəhbəri əminliklə bildirib ki, 7 fevral seçkilərində də soydaşlarımız yaradılmış imkanlardan səmərəli istifadə edərək eyni fəallığı göstərəcək və növbəti müddətə Azərbaycan Respublikası Prezidentinin seçilməsinə töhfələrini verəcəklər.

A.Ağayev Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsindən sonra keçiriləcək seçkilərin əhəmiyyətindən danışarkən deyib ki, biz dünyaya demokratik ölkəmizin olduğunu nümayiş etdirəcəyik. Bu, bizim demokratik seçki zəfərimiz olacaq və tarixə düşəcək. Xaricdəki soydaşlarımız da qalib ölkənin vətəndaşı kimi səsvermə hüquqlarından böyük qürur hissi ilə istifadə edəcəklər.

## Laçınlılar yenidən doğma yurdlarında səs verəcəklər

**Növbədənkənar prezident seçkilərində qürurverici və yaddaqalan hadisələrdən biri də bu seçkilərin Azərbaycanın bütöv ərazisində keçirilməsidir. İşğaldan azad edilmiş ərazilərimizdə ilk dəfə seçki keçirilməsi anti-Azərbaycan, islamofob, Azərbaycanofob və türkəfob qüvvələri ciddi narahat edir. Hazırda Azərbaycan dünyada bütov və suveren ölkə kimi tanınır. Otuz ildən sonra ilk dəfə olaraq doğma ata-baba yurdlarında səs verəcək laçınlılar da seçkiyə bu qürurla gedəcəklər.**




Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Laçın rayonunda yaşayan və işləyən 6 min 17 seçicinin iştirakı gözlənilir. İşğaldan azad edilmiş Laçın rayonunda yaşayan və işləyən insanlar 3-ü rayon mərkəzində olmaqla 5 seçki məntəqəsində səs verəcəklər. Onlardan biri – 105 saylı seçki məntəqəsi Laçın şəhər 2 nömrəli tam orta məktəbdə yerləşir. Havaların şaxtalı keçməsi, o cümlədən qar yağması seçki prosesinə hazırlığa problem yaratmayıb. Azad edilən ərazilərimizdə yaradılan digər 25 seki məntəqəsində olduğu kimi, burada da seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçirilməsi üçün zəruri şərait yaradılıb. Hazırda həmin məntəqə MSK tərəfindən bütün ləvazimatlarla təmin edilib. Seçki qutuları, eyni zamanda, yaşlıların, xəstələrin, fiziki qüsurluların evdə səs vermələri üçün yaradılmış səyyar seçki qutuları məntəqəyə vaxtında çatdırılıb. Seçici siyahısında adları olan seçicilərə bildirişlər də çatdırılıb.

Laçında yaşayıb səs verənlər deyirlər ki, doğma ata-baba yurdunda səs vermək hər birimiz üçün qürurverici hadisədir. Onlar həmin gün nə qədər qar yağsa da, şaxta olsa da, səsvermədə iştirak edəcəklərini bildirirlər. Laçın işğal olunanda hələ uçaq olanlar bu gün doğma yurdlarına böyük həvəslə, ruh-yüksəkliyi ilə qayıdıblar.

Laçın şəhəri ilə yanaşı, rayonun Zabux, Qorçu və Zerti kəndlərində də seçki məntəqələri yaradılıb. Ümumilikdə, 121 saylı Laçın Seçki Dairəsinin 119 seçki məntəqəsi üzrə 59 min 563 seçici qeydə alınıb.

## Şəffaf və demokratik seçki təmin edilib

**8 saylı Binəqədi I Seçki Dairəsi üzrə hazırda 37 seçki məntəqəsi fəaliyyət göstərir. Bir seçki məntəqəsinin isə seçki qanunvericiliyinə əsasən, səsvermə gününə azı 5 gün qalmış seçki dairəsinin ərazisində yerləşən 11 saylı ciddi rejimli cəzaçəkmə müəssisəsində yaradılması nəzərdə tutulub. Hazırda dairə üzrə seçicilərin sayı 49 min 460 nəfərdir. Onlardan 55 faizini qadınlar, 45 faizini isə kişilər təşkil edir. Növbədənkənar prezident seçkilərində 2 min 356 nəfər ilk dəfə səs verəcək. Onlarla maarifləndirici söhbətlər aparılıb.**



DSK-nın sədri Natiq Əliyev növbədənkənar prezident seçkilərinə hazırlıqla əlaqədar daha sonra bildirdi ki, bu vaxta qədər ölkəmizdə keçirilən seçkilərdə hər hansı bir insident, seçkinin nəticəsinə təsir edə bilən ciddi qanun pozuntuları və digər neqativ hallar baş verməyib. Hətta beynəlxalq müşahidəçilər ölkəmizdə keçirilən seçkilərdə tətbiq edilən yenilikləri yüksək dəyərləndiriblər. Qeyd ediblər ki, həmin yeniliklər seçkilərin şəffaf və demokratik keçirilməsində digər ölkələrə örnəkdir. Seçki məntəqələrinə veb-kameraların quraşdırılması, barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi, ultrabənövşəyi lampalarla müşahidə edilməsi yenilikdir. O qeyd etdi ki, növbədənkənar seçkilərdə də bu yeniliklər tətbiq ediləcək.

N.Əliyev seçkiyə hazırlıq işləri barədə də məlumat verərək dedi ki, Mərkəzi Seçki Komissiyası tərəfindən seçki məntəqələri seçkiyə aid olan bütün zəruri əşyalarla – seçki kabinələri və qutuları, seyf, ultrabənövşəyi lampalar, mürəkkəb balonları, generator, istilik radiatorları, fənər, məlumat lövhələri, dövlət rəmzləri olan bayraq, gerb və s. təchiz olunmuşdur. İstismar müddəti bitmiş və yararsız vəziyyətə düşmüş əşyalar və avadanlıqlar dairə seçki komissiyasının məlumatı əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən yenilənmişdir. Seçki dairəsi üzrə sağlamlıq imkanları məhdud olan seçicilərin səs verməsi üçün şəraitin yaradılması məqsədilə MSK tərəfindən seçki məntəqələrinin girişlərində panduslar quraşdırılıb. Seçki dairəsi üzrə əvvəlki seçkilərdə olduğu kimi, 10 seçki məntəqəsində veb-kameralar yerləşdirilib.

Namizədlərin təbliğat və təşviqatı üçün seçki dairəsi üzrə bütün seçki məntəqələrinə yaxın ərazilərdə təşviqat lövhələri quraşdırılmışdır. Eyni zamanda, namizədlər üçün seçki dairəsinin ərazisində təbliğat məqsədilə bir qapalı və bir açıq yer müəyyən olunmuşdur.

Seçkidə şəffaflığın və demokratikliyin təmin olunmasında əsas vasitələrdən bir də müşahidəçilərin çoxluğu və onlara yaradılan şəraitdir. N.Əliyev dedi ki, bu məsələ daim diqqət mərkəzindədir. Bir neçə gün əvvəl beynəlxalq müşahidəçilərdən ATƏT/DTİHB-də Qazaxıstanı təmsil edən Akanov Olzhas və italiyalı Arcidlacono Noemi DSK-ya gəlmişlər. Bundan əlavə, 600-ə yaxın yerli müşahidəçi qeydiyyatdan keçib. Bizim dairə üzrə bütün işlər MSK-nın hazırladığı “Təqvim Planı” na uyğun aparılıb. Biz növbəti dəfə şəffaf və demokratik seçki nümayiş etdirəcəyik.

## Abşeronda seçkiyə son hazırlıq

**Ölkəmizdə əhalinin seçki hüququnun təmin olunması üçün bütün imkanlardan istifadə edilir. 50 saylı Abşeron III Seçki Dairəsi də bu məqsədlə yaradılıb. DSK Mehdiabad, Saray və Digah qəsəbələrinin, Novxanı, Məhəmmədi, Fatmayı və Görədil kəndlərinin inzibati ərazisini əhatə edir. Dairə Seçki Komissiyasının əhatəsində 23 yeni seçki məntəqəsi formalaşdırılıb. Növbədənkənar prezident seçkilərində DSK üzrə 53 min 835 seçicinin səs verməsi nəzərdə tutulub.**



Dairə Seçki Komissiyasının sədri Çingiz Hünbətov deyib ki, DSK-nın yeni formalaşdırılmasına baxmayaraq, prezident seçkilərinə hazırlıq yüksək səviyyədədir. Aşağı seçki komissiyaları MSK tərəfindən təşkil olunmuş treninqlərdə bilik və bacarıqlarını artırıblar. Treninqlər MSK-nın təcrübəli mütəxəssisləri tərəfindən aparılıb. Bütün seçki məntəqələri seçki prosesi zamanı lazımi ləvazimatlarla təmin olunub. Üç seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Seçki məntəqələrinə yaxın ərazilərdə quraşdırılmış xüsusi dəmir lövhələrdə prezidentliyə namizədlərin təşviqatının aparılması üçün bərabər səviyyədə yer ayrılıb. Bu vaxta qədər namizədlərin səlahiyyətli nümayəndələri tərəfindən hər hansı bir narazılıq və şikayət daxil olmayıb. DSK üzrə 495 müşahidəçi qeydiyyata alınıb. Onların seçkilərdə müşahidə aparmaları üçün qanunvericiliyin tələblərinə ciddi riayət olunur.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Milli maliyyə strategiyasının hədəfləri

## *2024–2026-cı illərdə biznes kreditləri 16,5 milyard manata çatdırılacaq*

**Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin təsdiqlədiyi "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" ölkəmizdə sığorta, kapital bazarları və ödəniş sistemlərinin inkişafı, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi kimi prioritetləri əlavə edir. Burada maliyyə xidmətlərinin əhatəliliyinin artırılması və səmərəliliyin yüksəldilməsi, korporativ idarəetmənin tətbiqi, habelə şəffaflığın gücləndirilməsi kimi strateji məqsədlər öz əksini tapır.**




Strategiya, həmçinin Mərkəzi Bankın müvafiq keyfiyyət tələblərini və risk əsaslı nəzarət mexanizmlərini, rəqəmsal, dayanıqlı maliyyə, eyni zamanda, əhalinin bu sahədə biliklərinin artırılması kimi istiqamətləri də müəyyənləşdirir. "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nın hədəflərinə nail olunması ölkədə makroiqtisadi və maliyyə sabitliyinə töhfə verəcək, vətəndaşların güclü və dayanıqlı maliyyə sistemindən faydalanmaq imkanlarını daha da artıracaq.

Mərkəzi Bankın sədri Taleh Kazımovun "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" haqqında açıqlamasında bütün bunlarla bərabər, həmçinin bildirilir ki, sənəddə sürətli inkişaf mərhələsində olan sığorta sektoru üzrə vasitəçi və satış kanallarının (sığorta agentləri və brokerləri daxil olmaqla) genişləndirilməsi, könüllü və icbari sığortanın təşviqi, sığorta məlumat– monitorinq mərkəzinin yaradılması, eləcə də korporativ idarəetmənin gücləndirilməsi kimi önəmli məsələlər nəzərdə tutulub.

T.Kazımovun sözlərinə görə, sığorta sektoru üzrə əsas strateji hədəflər sığorta təminatını genişləndirmək və istehlakçı hüquqlarını effektiv müdafiə etməklə bu sahəyə olan inam indeksinin 66 faizdən 80 faizə yüksəldilməsini və sığortaçıların ödəmə qabiliyyətinin artırılması ilə yanaşı, adambaşına düşən ümumi sığorta haqqının cari 121 manatdan potensial olaraq 195 manata çatdırılmasını əhatə edir. Bu kompleks yanaşma riskləri effektiv idarə etməklə iqtisadi artımı dəstəkləmək məqsədi daşıyır.

Sənəddə vurğulandığı kimi, yüksək inkişaf potensialı olan kapital bazarları üzrə strategiya ölkəmizdə kapital bazarlarının maliyyə sistemində rolunu artırmaq və iqtisadi inkişafa töhfə vermək məqsədi daşıyır. Kapital bazarları üzrə əsas strateji hədəflər bazar infrastrukturunun inkişaf etdirilməsini, bazara olan etimadın gücləndirilməsini və dayanıqlığı, bazara çıxış imkanlarının genişləndirilməsini və investisiya alətlərinin çeşidinin artırılmasını əhatə edir. Bundan başqa, kapital bazarlarının ehtimal olunan potensialının qeyri-neft ÜDM-də payının cari 10 faizdən 14 faizə yüksəldilməsi, əhalinin kapital bazarlarında investisiya həcminin cari 150 milyon manatdan potensial olaraq 1 milyard manata çatdırılması, həmçinin effektiv nəzarət çərçivəsinin formalaşdırılması strategiyada nəzərdə tutulur.

Hazırda ödəniş sektorunda innovativ həllərin tətbiqi ilə yanaşı, ödəniş xidmətlərinə əlçatanlığın artırılması, ödəniş bazarında şəffaflıq və rəqabətliliyin gücləndirilməsi diqqət mərkəzindədir. Ödəniş xidmətləri üzrə təhlükəsizliyin və səmərəliliyin təmin edilməsi məqsədilə milli ödəniş sisteminin müasirləşdirilməsi, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması və səmərəli nəzarət çərçivəsinin formalaşdırılması da nəzərdə tutulur.

Ödəniş sektoru üzrə başlıca strateji hədəf olaraq adambaşına düşən orta illik nağdsız əməliyyat sayının indiki 93-dən potensial olaraq 200-ə çatdırılması planlaşdırılır. Nəticə etibarilə, rəqabət qabiliyyətli və innovativ ödəniş ekosisteminin formalaşdırılmasının, eyni zamanda, nağdsız ödənişlərin genişləndirilməsinin iqtisadi artıma əhəmiyyətli töhfə verəcəyi gözlənilir.

Strategiyaya uyğun olaraq bank sektorunda əlverişli və məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi vasitəsilə dayanıqlı inkişafın dəstəklənməsi nəzərdə tutulur. Bu məqsədlə sözügedən sahədə bazarın genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi qarşıya mühüm vəzifə kimi qoyulur. Bu çərçivədə, bank sektorunda biznes kreditlərinin həcminin ehtimal olunan potensialı 16,5 milyard manata çatdırılması, müvafiq korporativ idarəetmə, şəffaflıq və rəqabət qabiliyyətliliyinin inkişafı, habelə risk əsaslı tənzimləmə və nəzarətin gücləndirilməsi hədəflənir.

Strategiyada, həmçinin ESİ (ekoloji, sosial və idarəetmə), habelə dayanıqlı maliyyə meyarlarının maliyyə xidmətlərinə inteqrasiyası, rəqəmsal maliyyə həllərinin inkişafı, bu sahədə innovasiyaların geniş miqyasda təşviqi, nəhayət, kibertəhlükəsizliyin gücləndirilməsi təşəbbüsləri də əhatə olunub.

Maliyyə sektorunda çalışan mütəxəssislərin peşəkarlıq səviyyəsinin daha da artırılması, eyni zamanda, cəmiyyətdə maliyyə biliklərinin və əlçatanlığının təşviqi kimi fundamental məsələlər də sənəddə öz əksini tapıb.

"2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nın hədəflərinin və prioritetlərinin uğurla həyata keçirilməsi ölkəmizin makroiqtisadi – maliyyə sabitliyinə töhfə verəcək, vətəndaşların güclü və dayanıqlı maliyyə sistemindən faydalanmaq imkanlarını daha da artıracaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# Son 3 ildə qeyri-neft ixracı 82 faiz artıb

## Ötən il isə 110-dan artıq ölkəyə 3,3 milyard dollarlıq məhsul satılıb

**Son 3 ildə Azərbaycanın qeyri-neft ixracında 82 faiz artım qeydə alınıb. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) ixrac potensialı isə 2022-ci illə müqayisədə 9,8 faiz artıb. Bu və digər məsələlər barədə yanvarın 29-da AZPROMO-da keçirilən mətbuat konfransında ətraflı məlumat verilib.**




Qurumun 2023-cü ildəki fəaliyyəti, "Made in Azerbaijan" brendinin təşviqi, ixracın və investisiyaların stimullaşdırılması istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər, eləcə də qarşıda duran vəzifələr haqqında məlumat verən AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev bildirib ki, ötən il Azərbaycandan dünyanın 110-dan artıq ölkəsinə 3 milyard 348 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac olunub ki, bu da yeni tarixi rekord hesab olunur. Ən çox məhsulun ixrac olunduğu ölkələr Rusiya, Türkiyə və Gürcüstan olub. Belə ki, ötən il ölkəmizdən Rusiyaya 1 milyard 114 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulu ixrac edilib. Son illər sənaye məhsullarının ixracının getdikcə artdığını bildirən Y.Abdullayev, həmçinin deyib ki, 2024-cü ildə Azərbaycandan xaricə daha çox qeyri-neft məhsullarının göndərilməsi planlaşdırılır ki, bu da ixracın strukturunda həmin növ malların xüsusi çəkisinin artmasına səbəb olacaq.

Bununla yanaşı, 2023-cü ildə Azərbaycanda qeyri-neft sektorunun inkişafı, xüsusilə qeyri-neft ixracının artırılması istiqamətində reallaşdırılan tədbirlər, ixracyönümlü qeyri-neft məhsullarının istehsalı, ixracatçılara yaradılan əlverişli şərait, "Made in Azerbaijan" brendinin ölkənin hüdudlarından kənarda tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər barədə də media nümayəndələrinə ətraflı məlumat verilib.

Hazırda Azərbaycanın xarici ölkələrdə 12 ticarət evinin fəaliyyət göstərdiyinə diqqət çəkən AZPROMO rəhbəri bildirib ki, 2023-cü ildə Çinin paytaxtı Pekində və Sian şəhərlərində daha iki Azərbaycan Ticarət Evi fəaliyyətə başlayıb. Qurum rəhbəri onu da deyib ki, ötən il Çinə üç növ məhsulun ixracı üzrə 7 müqavilə imzalanıb. İl ərzində AZPROMO-nun Ticarət Nümayəndəliyi aparatının dəstəyi ilə bu ölkəyə 2,1 milyon ABŞ dolları dəyərində qida, içki məhsulları və xalçalar ixrac edilib. Bütövlükdə isə, Azərbaycanın xaricdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin fəaliyyəti sayəsində ölkənin qeyri-neft məhsullarının ixracının genişləndirilməsi sürətlə davam edir və qeyri-neft ixracının potensialı yüksək səviyyədə reallaşdırılır.

Mətbuat konfransında AZPROMO-nun investisiyaların təşviqi çərçivəsində gördüyü işlər, o cümlədən "Investment Roadshow" tədbirlərinin keçirilməsi və agentliyin 2023-cü ilin dekabr ayında ard-arda üçüncü dəfə İnvestisiya Təşviqi Agentliklərinin Dünya Assosiasiyasının Mərkəzi Asiya üzrə bölgə direktoru statusunu qazanması diqqətə çatdırılıb. Bildirilib ki, ötən il Azərbaycanın ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin xarici həmkarları ilə işgüzar əlaqələrinin genişləndirilməsi və tərəfdaşlığın inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilib. Bu baxımdan AZPROMO-nun 2023-cü ildə 23-ü beynəlxalq tədbir olmaqla 42 tədbir təşkil etdiyi və bu tədbirlər çərçivəsində agentliyin 11 anlaşma memorandumu və 1 fəaliyyət planı imzaladığı diqqətə çatdırılıb.

Məlum olduğu kimi, bu ilin noyabr ayında Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. İki həftə ərzində dünyanın diqqətlə izləyəcəyi mötəbər beynəlxalq konfrans çərçivəsində ölkəmizdə bir sıra mühüm tədbirlər həyata keçiriləcək. Agentlik direktorunun sözlərinə görə, COP29 günlərində Bakıda ilk Azərbaycan İnvestisiya Forumunun reallaşdırılacağı nəzərdə tutulur.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktoru onu da bildirib ki, cari ilin payız aylarında ölkəmizdə Birinci İllik İxrac Forumunun da keçirilməsi nəzərdə tutulur. Forumda Azərbaycanın ixrac potensialının təqdim ediləcəyini vurğulayan Y.Abdullayevin sözlərinə görə, 2024-cü ildə əsas hədəflərdən biri də qlobal şirkətlərin ölkəmizə gətirilməsidir. Bu baxımdan əcnəbi şirkətlərin diqqətini işğaldan azad olunmuş ərazilərimizə yönəldilməsi xüsusi əhəmiyyət daşıyır. Məsələ ilə əlaqədar media nümayəndələrinə məlumat verən AZPROMO rəhbəri deyib ki, bu il üçün əsas hədəflərdən biri xarici investorların Qarabağa gətirilməsidir. Qeyd olunub ki, artıq "Made in Azerbaijan" və "Made in Karabakh-heart of Azerbaijan" əmtəə nişanlarına dair İstifadə Qaydaları layihəsi hazırlanaraq rəy verilməsi üçün müvafiq strukturlara təqdim edilib.

2024-cü ildə Ağdam Sənaye Parkında fəaliyyət göstərən şirkətlərdən birinin ilk ixraca başlayacağını söyləyən Yusif Abdullayevin dediyinə görə, həmin şirkətə "Made in Karabakh-heart of Azerbaijan" əmtəə nişanı təqdim ediləcək. Ötən il Azərbaycan şirkətlərinin "Made in Azerbaijan" vahid ölkə stendi ilə 5 beynəlxalq sərgidə iştirak etdiklərinin bildirən agentlik direktoru onu da diqqətə çatdırıb ki, hesabat dövründə "World Food Moscow 2023" və "Anuga 2023" kimi beynəlxalq sərgilərdə meyvə, spirtli içkilər, qənnadı məmulatları, fındıq ləpəsi, nar şirəsi kimi məhsulların ixracına dair 2,6 milyon ABŞ dolları dəyərində müqavilələr imzalanıb. "Bu ilin yanvarında İraqda "Yaşıl həftə" sərgisində Azərbaycan öz məhsulları ilə təmsil olunub. İl ərzində Yaponiya, Koreya və Almaniyada keçiriləcək sərgilərdə də Azərbaycanın iştirakı nəzərdə tutulur", – deyə o əlavə edib.

Bu ilin birinci yarısında Azərbaycanın Milli İxrac Strategiyasının təsdiqlənməsinin nəzərdə tutulduğunu vurğulayan agentlik rəhbəri deyib ki, il ərzində "Made in Azerbaijan" və "İnvest in Azerbaijan" saytları tam təkmilləşmiş formada istifadəyə veriləcək. Həmin saytların xidmətindən isə sahibkarlar lazımınca yararlana biləcəklər. Bununla yanaşı, hazırda "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə ixracatçılara logistika subsidiyasının verilməsi ilə bağlı proseslər son mərhələdədir. Bu da ixracatçılara dəstək olacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 3 min 276 layihəyə güzəştli kredit ayrılıb

**Sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə 2023-cü ildə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən ümumi dəyəri 459,9 milyon manat olan 3 276 investisiya layihəsinin maliyyələşdirilməsinə 193,8 milyon manat güzəştli kredit ayrılıb.**



Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib. Nazir qeyd edib ki, bu kreditlər hesabına 3 mindən çox yeni iş yeri yaradılıb. Kreditlərin layihə sayı üzrə 99,8 faizi, məbləğ üzrə isə 91,1 faizi mikro, kiçik və orta sahibkarlıq subyektlərinə verilib.

***XQ***



# Ölkəmizdə böyük mis yataqları aşkar edilib

**Azərbaycanda qızıl, mis və gümüş istehsalçısı olan Böyük Britaniyanın "Anglo Asian Mining" şirkəti qazma nəticələrinə əsasən "Xarxar" yatağında əhəmiyyətli dərəcədə mis minerallaşması olduğunu təsdiqləyib.**

Xatırladaq ki, adıçəkilən yataqda 2022-ci ilin iyulunda mis minerallaşmasının mərkəzi zonasını əhatə edən geniş kəşfiyyat proqramına başlanılıb. Azərbaycan hökuməti və "Anglo Asian Mining PLC" şirkəti arasında 1997-ci il avqust ayının 21-də imzalanan müqaviləyə əsasən 6 yatağın işlənməsi nəzərdə tutulub. Müqavilədə ölkəmizin payı 51 faiz, Böyük Britaniya şirkətinin payı isə 49 faiz təşkil edir.

Qeyd edək ki, "Anglo Asian Mining PLC"nin hazırda respublikamızda ümumi sahəsi 2 min 544 kvadrat kilometr olan 8 müqavilə sahəsi var. Şirkət Gədəbəy və Qoşa müqavilə sahələrindən qiymətli metalların hasilatı ilə məşğuldur.

***XQ***

# Orta Dəhliz – Şərqdən Qərbə ən qısa yol

**2024-cü il üçün Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM – Orta Dəhliz) üzrə tarif dərəcələri və yüklərin daşınma planı təsdiq edilib. "Azərbaycan Dəmir Yolları" QSC-nin bununla bağlı yaydığı məlumata görə, bu, Türkiyənin Ankara şəhərində "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının növbəti iclasında reallaşıb.**




Qeyd edilir ki, iclas zamanı ötən ilin yük daşımalarının təhlili nəzərdən keçirilib və nəticələrə əsasən, marşrutun inkişaf etdirilməsi ilə bağlı digər məsələlər müzakirə olunub.

Yığıncaq çərçivəsində Gürcüstan və Qazaxıstanın dəmir yolu rəhbərləri ilə üçtərəfli görüş keçirilib. Görüşdə hər üç tərəfin təsisçisi olduğu Orta Dəhliz çərçivəsində yaradılmış birgə müəssisənin fəaliyyətinin təşkili və biznes modelinin müəyyənləşdirilməsi müzakirə edilib.

***XQ***

# 52 minədək dövlət əmlakı özəlləşdirilib



**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına əsasən, 1996–2022-ci illərdə Azərbaycanda dövlətə məxsus 51min 867 kiçik müəssisə, obyekt və nəqliyyat vasitəsi özəlləşdirilib.**

Məlumata görə, həmin əmlaklardan 15 min 571-i nəqliyyat vasitəsi, 15 min 248-i icarəyə verilmiş və istifadəsiz qeyri-yaşayış sahəsi, 10 min 766-sı məişət xidməti müəssisəsi, 5 min 225-i ticarət və ictimai iaşə obyekti və digər daşınmaz əmlaklar olub. 27 ildə Azərbaycanda 1566 səhmdar cəmiyyət yaradılıb. 2022-ci ilin sonuna qədər bunun 1476-sı tam özəlləşdirilib.

***XQ***

# AŞPA-da Azərbaycanın əleyhinə səs verən türkiyəli deputat kimdir?

**Avropalı parlamentarilərin Azərbaycan nümayəndə heyətinə qarşı qərəzli ittihamlarla çıxışları Türkiyə cəmiyyətində də qınaq və təpkilərlə qarşılanmaqdadır. AŞPA-nın qərəzli mövqeyi Türkiyədə yaşayan çoxsaylı azərbaycanlılar tərəfindən də pislənilir.**

Xüsusilə də özlərini üzdə Azərbaycanın dostu kimi göstərən və dost ölkə imici qazanmış ölkələrin mövqeyinə münasibətlərini gizlətməyən türkiyəli qardaşlarımız da AŞPA-dakı siyasi korrupsiyanı, ayrı-seçkilik, etnik və dini nifrət mövqeyini, ikili standartları nəinki pisləmiş, bunu qərəz adlandırmışlar. Xüsusən də Türkiyənin kürdləri təmsil edən Xalqların Demokratik Partiyasından (XDP) olan deputat Berdan Öztürkün ölkəmizə qarşı mövqeyinin təkcə Azərbaycana deyil, Türkiyənin və bütün Türk dünyasının birliyinə xəyanət olduğunu söyləyirlər.

Əslində kürdləri təmsil edən deputat Berdan Öztürkün belə bir mövqedə dayanması onun siyasi fəaliyyətinin bir hissəsi kimi də görünür. Vaxtilə - 2020-ci ilin sentyabrında Azərbaycan öz torpaqlarının azad edilməsi uğrunda mübarizəyə başlayanda və Türkiyənin bu məsələyə dəstəyini alanda da Türkiyə Böyük Millət Məclisində ciddi etirazları ilə gündəmə gələnlər də olmuşdu.

Növbəti belə qərəzli münasibətin AŞPA-dan gəlməsi də xeyli çaşqınlıq yaratdı. Belə olan halda tanımaq istədik ki, öz ölkəsinə, millətinə və qardaş dövlətə qarşı çıxan Berdan Öztürk kimdir? Onun dosyesindəki bəzi detallara diqqət etmək kifayətdir ki, haqqında və siyasi məsləki barədə bilgilər almaq olsun.

1980-ci il mayın 1-də Ağrının Tutak rayonunda dünyaya gələn Berdan Öztürk Mərmərə Universitetinin hüquq fakültəsinin məzunudur. London Universitetində beynəlxalq arbitraj və kommersiya hüququ üzrə magistr təhsilini tamamladıqdan sonra vəkil kimi fəaliyyətə başlayıb. Xalqların Demokratik Partiyasından (XDP) 2015-ci ildə Ağrıdan və 2023-cü il seçkilərində yenidən Diyarbəkirdən millət vəkili seçilib. 2016-cı ildə 5 PKK-çının dəfn mərasimində iştirak etdiyinə görə türkiyəli siyasətçi barəsində istintaq başladılıb. 2018-ci ilin mayında ona bəraət verilib. 2019-cu ildən "Barış Pınarı" əməliyyatı ilə bağlı verdiyi açıqlamaya görə terror təbliğatı apardığı üçün istintaqa cəlb olunub.

B.Öztürk Mesopotamiya Qohumlarını İtirənlərə Yardım və Həmrəylik Dərnəyi (MEYA-DER) və İnsan Haqları Dərnəyinin (İHD) fəaliyyətlərində fəal iştirak edib. Demokratik Cəmiyyət Konqresinin (DTK) 16 sentyabr 2017-ci ildə keçirilən 8-ci qurultayında həmsədr seçilib. Digər həmsədr Hakkari millət vəkili Leyla Güvənlə Diyarbəkir 9-cu Ağır Cəza Məhkəməsində istintaqa cəlb olunublar.

Əslində bu faktları xatırlamaqda məqsəd dünyanın demokratik ölkələrindən biri olan Türkiyənin daxilində baş verənləri də anlatmaq istədik. Bu cür hadisələr Türkiyənin siyasi həyatında tarixən də yaşanmışdır. Amma bu cür məsələlərin ölkə xaricində səsləndirilməsi qəbul edilmir. Digər tərəfdən, bu cür meyarlarla çıxış edib ölkənin uğurlarına kölgə salmaq istəyənlər heç vaxt istəklərinə nail olmayacaqlar.

Özünə "Öztürk" soyadını götürmüş PKK məramlı kürd deputatın islamofobiya tribunasına çevrilmiş AŞPA-nın cəlbedici koalisiyasına qoşulması ölkəmizdə olduğu kimi, qardaş Türkiyədə də ciddi narazılıq və qınaqlara səbəb olub.

**Esma ÖZDAŞLI,**
**beynəlxalq əlaqələr üzrə ekspert,**
**Türkiyə**



– AŞPA-da millət vəkili Berdan Öztürkün səs ilə Türkiyə və Azərbaycana qarşı iki hesabatı təsdiqlənib. Obyektivlikdən uzaq və erməni yalanlarını ehtiva edən hesabatların birincisi birbaşa Azərbaycanı hədəfə alır. Hesabatda 2-ci Qarabağ müharibəsi və 2023-cü il sentyabrında həyata keçirilən antiterror əməliyyatı ilə Qarabağdakı işğala son qoymaqda Azərbaycan günahlandırılır. 2-ci Qarabağ müharibəsi zamanı olduğu kimi, Azərbaycan erməni terrorçularının sipər etməyə çalışdığı dinc əhalini bölgədən çox diqqətlə təxliyə etdi. Azərbaycan antiterror əməliyyatı başlayanda hədəfinin bölgədəki silahlı quldur dəstələri olduğunu, mülki əhalinin və infrastrukturun qorunacağını bəyan edib, 23 saata qədər davam edən əməliyyat zamanı heç bir nəfər də olsun mülki vətəndaşın burnu qanamayıb.

Əslində erməni terrorçuları əməliyyat zamanı özlərini qorumaq üçün mülki əhalidən qalxan kimi istifadə edəndə Azərbaycan dinc əhaliyə zərər verməmək üçün bu terrorçulara belə atəş açmadı. O, bu görüntüləri bütün dünya ilə paylaşıb. 2-ci Qarabağ müharibəsi və ondan sonrakı terror əməliyyatı zamanı Azərbaycanın mülki şəxslərə qarşı göstərdiyi bütün bu həssaslığa baxmayaraq, AŞPA Azərbaycana qarşı qalmaqallı qərar verdi. AŞPA-nın bu qərarını TBMM-nin deputatı Berdan Öztürk də imzalayıb. Vaxtı ilə Berdan Öztürkə PKK terrorçularının dəfn mərasimlərində iştirak etdiyi və terror təbliğatı apardığı üçün cinayət işi açılıb.

AŞPA-nın ikinci qalmaqallı qərarı Türkiyəni işgəncələrdə ittiham edən daha bir hesabatın təsdiqlənməsidir. Berdan



Öztürk Azərbaycanın, eləcə də Türkiyənin günahlandırıldığı hesabata səs verib. Hesabatda terrorçuların lideri Abdullah Öcalana istinad edilməsi Qərb qurumlarının Türkiyə əleyhinə terror təşkilatlarına dəstəyini bir daha açıq şəkildə nümayiş etdirdi. Öztürk terrorçu liderə də azadlıq tələb edib. Erməni lobbisinin açıq təzyiqi ilə ortaya çıxmış hesabatdan belə məlum ki, Azərbaycan da Qarabağda terrorçulara qarşı susmalıydı.

Bir sualı da terroru qanuni hesab edən qərbli qondarma demokratiya həvarilərinə verməliyik. Aİ və NATO-nun sənədlərində terror təşkilatı sayılan və bir çox Qərb dövlətlərinin terrorçu siyahısında olan terror təşkilatının Avropa parlamentində tərifələnməsi terrora dəstək deyilmi? Hər hansı Qərb qurumu, məsələn, Əl-Qaidə və ya onun liderinin hərəkətlərini qanuni hesab edən qərar qəbul etsə, ABŞ və digər Qərb ölkələrinin reaksiyası necə olacaq? Bu xəbərlər göstərdi ki, Qərb Türkiyə və Azərbaycana gəldikdə asanlıqla ikili siyasət yeridə bilirlər.

Qarabağdakı ermənilərə işgəncə verilməsi ilə bağlı yalan danışan Avropa Şurası Parlament Assambleyası Qarabağda taleyi məlum olmayan 4 minə yaxın azərbaycanlı üçün heç bir tədbir görməyib. İşğal prosesi Qarabağda və onun ətrafında hər mənada böyük dağıntılara səbəb olub, ermənilər, demək olar ki, bütün infrastruktur və mədəniyyət abidələrini dağıdıblar. Qarabağda və ətraf ərazilərdə biomüxtəlifliyə ciddi ziyan dəymiş, xüsusi mühafizə olunan mədəni-tarixi obyektlər və abidələr dağıdılmış, su ehtiyatları çirkləndirilmiş, endemik növlər də daxil olmaqla meşələr qəsdən yandırılmış, qiymətli ağaclar müxtəlif məqsədlər üçün kəsilmişdir. Ekoloji terror səbəbiylə bir çox bitki, o cümlədən nadir növlər məhv edilmişdir. Amma AŞPA bu hərəkətlərlə bağlı Ermənistana qarşı heç bir addım atmayıb. Əvəzində AŞPA-nı fransız və erməni lobbilərinin oyuncağına çeviriblər.

**Asif KURBAN**
**Dünya Azərbaycanlıları**
**Konqresinin sədri,**
**Türkiyə**



– Bu addımlar son illər regionda iqtisadi cəhətdən güclənən, öz gücü ilə haqqını alan, yeni işğal altındakı torpaqlarını xilas edən və suverenliyini qazanan Azərbaycanın üstünlüyünə kölgə salmaq cəhdidir. 30 ildir haqları tapdalanan vətəndaşlarımızın səsinə etinasız qalan avropalı deputatların indi ortaya çıxması və işğalçının yanında olması, onların təkcə qeyri-səmimi olduğuna işarə deyil, həm də Azərbaycana qarşı ədalətsiz və düşmənçilik mövqeyinin təzahürüdür. Avropalı deputatların xalqları milliyyətinə, dininə görə ayıraraq, islamofobiya mühiti yaratmaq, bunun fonunda azərbaycanofobiya meyillərini dəstəkləmək heç cür qəbul edilə bilməz. Onların bu cür məkrli siyasətlərinə dəstək verən və Azərbaycana qarşı səs verən Türkiyə Böyük Millət Məclisinin üzvü Berdan Öztürkün xəyanəti bizi daha da sarsıtdı. Biz həmişə qürur və güvənclə deyir və heç bir sübuta ehtiyac hiss etmədən bilirik ki, Azərbaycanın gücü Türkiyənin, Türkiyənin gücü isə Azərbaycanın gücüdür. Demək, buradan belə bir nəticəyə gəlmək olar ki, Berdan Öztürk bunları istəməyən, qəbul etməyən siyasətçidir, türkün yox, avropalı düşmənlərin silahdaşı və məslək yoldaşıdır. Təbii ki, onun bu düşüncə ilə Türkiyə Böyük Millət Məclisində olması və deputat olaraq mövqe bildirməsi Türkiyənin siyasi dairələrində çaşqınlıq yaradır, insanları məyus edir.

Türkiyəli millət vəkili Berdan Öztürkün mövqeyi heç vaxt Türkiyənin mövqeyi ola bilməz, AŞPA-da təmsil olunan 9 deputatdan 8-nin qardaş Azərbaycanın lehinə səs verməsi də bunu təsdiqləyir. Kürdləri təmsil edən Xalqların Demokratik Partiyasından (XDP) olan deputat Berdan Öztürkün bu addımı təkcə Azərbaycanın deyil, həm də Türkiyənin də terrorla apardığı gərgin və uzun illərdir davam edən mübarizəsinə qarşı durmaqdır. Öz ölkəsi, milləti və qardaş dövlətin siyasi mövqeyinə qarşı çıxan Berdan Öztürk, bir az da dəqiq desəm, bu qətnamənin lehinə səs verməklə birmənalı olaraq separatizmə tərəfdar olmuşdur. Bu gün AŞPA-dakı "xristian klubu"nun Azərbaycana qarşı mövqeyini ancaq bu cür dəyərləndirmək olar. Sual oluna bilər niyə? Cavab olduqca sadə və bəsitdir: Azərbaycanın öz ərazisini azad etməsi, nəhayət ki, suverenliyini öz gücü hesabına qazanması Qərbin məkrli planlarının məhvi demək idi. Eyni ilə ata-baba torpaqların separatizmdən təmizlənməsi heç vaxt məkrli Qərbin istəyi olmayıb. Bu gün AŞPA və onun kürsülərindən meydan oxuyanlar başqa məsələlərdə olmasa da, hər an Türk dünyasına, o cümlədən onun önəmli lokomativi olan Azərbaycana və Türkiyəyə qarşı birləşməyə hazırdırlar. Belə hesab edirəm ki, Azərbaycan əleyhinə qətnamə, həm də Türkiyənin əlehinə aparılan siyasətin bir hissəsidir. Berdan Öztürkün ziddiyyətli addımını qəbul etmir və onun beynəlxalq platformalarda bu cür mövqeyini pisləyirik.

**Namiq QƏDİMOĞLU**
**XQ**

---

**Qədim yurd yerlərimiz**



# Kərki Naxçıvanın ayrılmaz hissəsidir

**Kərki kəndi Sədərəkdən 8–10 kilometr məsafədə yerləşir. 960 hektara yaxın ərazisi var. "O tay", "Sulu zağa", "Bəzirxana", "Köhnə Kərki", "Dəlik daş", "Sənəm zağası", "Gavurqala", "Cəhənnəm dərə", "Şırran", "Qızıl daş", "Qurdbaba", "Alma yokkuşu", "Qırmızı güney", "Şurut bulağı" kimi toponimlərin mövcudluğu Kərkinin qədim türk yurdu olduğunu qəti surətdə sübut edir.**

Kərki kəndi ötən əsrin 90-cı illərində ermənilərin işğalçılıq siyasətinin ilk hədəfi idi. Kərkinin işğalı Bakıdakı 20 Yanvar faciəsinin, ermənilərin Naxçıvanın alınmaz qalası Sədərəyə silahlı basqınlarının, dəhşətli Xocalı faciəsinin, işğal olunan rayonlarımızın acı taleyinin başlanğıcı oldu. Bu həmin vaxtlar idi ki, erməni şovinistləri ilə münasibət gərginləşib pik səviyyəyə çatmışdı.

Mənfur ermənilər Sədərəkdən Kərkiyə gedən avtomobil yolunu kəsdiyindən gecələr Sədərəkdən Kərkiyə yük maşını ilə, bəzən də piyada 30-40 könüllü müdafiəçi gedir, gecəni səhərədək kərkililərlə birlikdə kəndin keşiyini çəkirdilər. Sonralar həmin könüllülərə Şərurdan və Naxçıvandan gələnlər də qoşuldular. Ancaq çox keçmədi ki, Kərki ilə Sədərək arasında əlaqə tamam kəsildi, Kərkinin müdafiəçilərinə ərzaq və silah-sursat çatdırmaq da problemə çevrildi. Lakin bu kəndin müdafiəçiləri qəhrəmanlıqla vuruşub son ana qədər düşmənə ciddi müqavimət göstərdilər.

Kərkinin işğalı, sadəcə, son illərin planı deyildi. Tarixə nəzər salanda görürük ki, ermənilər zaman-zaman öz məkrləri ilə Azərbaycanın bir sıra torpaqlarını ələ keçirmişlər. Belə fakta Zaqafqaziya SFSR MİK Rəyasət heyətinin 18 fevral 1929-cu il tarixli qərarında da rast gəlirik. Əsassız bir qərarla Azərbaycanın Naxçıvan MSSR ərazisindən 657 kvadratkilometr və ya 65,7 min hektar torpaq sahəsi Ermənistana verilmişdir. 9 kəndin (Kərçivan, Qurdqulaq, Goradiz, Ağbin, Ağxəç, Almalı, Sultanbəy, İtqıran və Kilit kəndinin bir hissəsi) Ermənistan ərazisinə qatılması yerli əhali tərəfindən etirazla qarşılansa da, nəticəsi olmamışdır. Azərbaycanlı əhali zaman-zaman həmin əraziləri tərk etmiş və bu torpaqlar saxta yolla Ermənistan ərazisinə çevrilmişdir.

Kərki kəndinin taleyi də fərqli olmamışdır. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 5 may 1938-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin ətrafındakı torpaqların da xeyli hissəsi Ermənistana verilmişdir. Beləliklə, kənd Azərbaycandan (Naxçıvan MR ərazisindən) tam təcrid olunaraq ada şəklinə düşmüşdür.

Yerli əhali arasında narazılıqların yaranmasının qarşısını almaq, həmçinin sakinlərin hamısının azərbaycanlı olması nəzərə alınaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində yerləşmiş ermənilər təkcə Kərki kəndinin yerləşdiyi çox kiçik bir ərazini Azərbaycanın tərkibində saxlamaqla kənd ətrafındakı 900 hektardan artıq bir ərazini saxta sənədlərlə rəsmiləşdirmişdilər. Sədərəklə Kərkini dağ yolu birləşdirdiyindən ermənilərin növbəti hiyləsi Kərki ərazisindən yol salmaq olmuşdur.

Əslən Sədərəkdən olan mərhum tarixçi alim Vaqif Məmmədov "Kərkinin taleyi" adlı kitabında ermənilərin məkrli niyyətindən söz açaraq bildirmişdi: "Əsas məqsəd Sisyan–Cermuk yoluna kəsə yol qazanmaq olursa, digər tərəfdən Kərkini tədricən yerli əhalidən təmizləmək, "Kərkinin düzü" adlı sahəni ələ keçirmək və Kərki ilə Sədərək arasında əlaqələri kəsmək olur. Beləliklə, Arazdəyən-Cermuk şosesi Kərkinin düzü adlanan ərazidən salınır". Kərki Sədərək üçün böyük dayaq sayılırdı. Sədərəkdən yaylağa gedən 40-dan artıq obanın adamlarının, sürüsünün yolu Kərkidən, Kərkinin düzündən keçərdi.

60-cı illərin əvvəllərində İrəvandakı Eçmiədzin kilsəsinin keşişinin qardaşı oğlu, erməni şairi Paruyr Sevak Kərki düzü adlı ərazidə maşın qəzasından ölür. Fürsəti dəyərləndirən ermənilər qəza yerində xatirə kimi simvolik qəbir düzəldirlər. 15-20 il ərzində həmin "xatirə qəbir" böyük bir sahəni "işğal" edir, kiçik qonaq evi, restoran, otel, nəhayət, qəsəbə salınır – Sevakavan". Hansı ki bu qəsəbə Kərkini işğal etmək və kərkililəri sıxışdırmaq baxımından ermənilər üçün əhəmiyyətli olur.

Ötən əsrin sonlarına doğru məqsədli şəkildə əraziləri zəbt edən ermənilərin növbəti hədəfi Sədərək idi. 1988-ci ildən kəndin keşiyini çəkən kərkililərin köməyinə Şərurdan, Sədərəkdən gələnlərin dəstəyinə baxmayaraq, Kərki illərlə yürüdülən erməni məkrinin qurbanına çevrilir. 1989-cu ilin son aylarında Kərkiyə gediş-gəliş tamamilə dayandırılır. Həmin dövrdə artıq kənddə müdafiəçilər qalmışdı.

Son günə qədər kəndi tərk etməyən kərkililər 1990-cı il yanvarın 15-də rus hərbçilərinin təkidli tələbi ilə axşam saat 6-7 radələrində doğma yurdu tərk etmək məcburiyyətində qalırlar. Yanvarın 18-də isə 3-ü polis əməkdaşı olmaqla, kəndi müdafiə edən 30-dək sakin, artıq silah-sursatları bitdiyindən Kərkini tamamilə tərk etməyə məcbur olur. Beləliklə, SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Sədərək rayonunun Kərki kəndi ermənilərə verilir.

30 ildən çoxdur ki, öz doğma ocaqlarından ayrı düşən Kərki sakinləri muxtar respublikanın Kəngərli rayonunun ərazisində yaradılan Yeni Kərki kəndində məskunlaşıblar. Hər cür dövlət qayğısı ilə əhatə olunan bu insanlar öz kəndlərinin düşmən işğalından azad ediləcəyinə, yenidən öz dədə-baba torpaqlarına qovuşacaqları günün uzaqda olmadığına inanırlar. Bu əminliyi doğuran isə ordumuzun gücü, müstəqil dövlətimizin nüfuzu və qüdrətinin ilbəil artmasıdır.

**Səbuhi HƏSƏNOV,**
**XQ-nin bölgə müxbiri**
**Naxçıvan**

---

# Fransada bu dəfə taksi sürücüləri...

## Yeni mitinq dalğası

**Fransada taksi sürücüləri də etirazlarını ifadə etmək üçün yanvarın 29-dan etibarən ölkənin bir sıra şəhərlərində "ilbiz" (escargot) əməliyyatına (nəqliyyatın hərəkətinə mane olmaq, uzun tıxaclar yaratmaq) başlayacaqlarını bildiriblər.**

Yerli mətbuat xəbər verir ki, taksi sürücüləri peşələri və Tibbi Sığorta Milli Fondu arasında tibbi nəqliyyatla bağlı sazişin geri götürülməsini tələb edirlər. Fevralın 1-də qüvvəyə minməli olan bu sazişin təfərrüatı hələ məlum deyil, lakin o, pasiyentlərin nəqliyyat xərclərini ödəmək üçün qiymətləri əhəmiyyətli dərəcədə dəyişdirir.

Bildirilir ki, Bordo dairəvi yolunda 500-dən 800-dək taksinin toplaşması gözlənilir. Onlara Jirond, Şarant-Maritim, Land, Lo-e–Qaron, Yuxarı Priney, Pireney və Atlantik şəhərlərindən olan həmkarları da qoşulacaq. Aksiyadan sonra taksilər şəhərlərin mərkəzində Prefekturanın qarşısında toplaşacaq. Tuluzada taksilər səhər saat 06:00-dan Blanyak hava limanına gedən yolu blokadaya almaq üçün səfərbər edilib.



Ölkənin 20-dən çox şəhərində taksilər hava limanlarına, eləcə də dəmir yolu vağzallarına gedən yolları blokadaya alıblar. Lion, Marsel, Nitsa, Monpelye, Tulon, Möz kimi bir çox şəhərlərdə bu gün səhərdən "ilbiz" əməliyyatlarına görə nəqliyyatın hərəkətində problemlər yaranıb. Ölkə ərazisindən keçən A7, A55, A50 kimi magistral avtomobil yolları blokadaya alınıb.

**XQ**

# Xudafərin qəsəbəsi şanlı qələbəmizə layiq dirçəldilir

**İşğaldan azad edilmiş ərazilərin bərpası Azərbaycanın milli prioritetidir. Ermənilərin tamamilə dağıtdığı Ağdam, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı və Kəlbəcər rayonlarında yaşayış məntəqələri yenidən qurulur. Artıq bəzi şəhər və kəndlərdə ilk yaşayış məhəllələrinin tikinti işləri başa çatıb. Bu, Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, məcburi köçkünlərin doğma yurda qayıdışına imkan verib.**

İndiyədək Füzuli şəhərində 500 ailənin (1854 nəfər), Laçın şəhərində isə 408 ailənin (1555 nəfər) daimi məskunlaşması təmin edilib. Laçın rayonunun Zabux kəndinə 203 ailə (783 nəfər), Böyük Qayıdışın başlandığı ilk kəndə – Zəngilan rayonunun Ağalı kəndinə 175 ailə (871 nəfər) köçüb. Ağdərə rayonunun Talış kəndində isə 20-dən artıq ailənin (90 nəfər) normal həyatı təmin edilib. Bu ailələrin hamısı dövlət qayğısı ilə əhatə olunub. 2024-cü ildə isə Ağdam və Cəbrayıl şəhərlərinə köç başlayacaq.

Növbəti illərdə keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışları daha da intensivləşəcək. Çünki azad olunmuş ərazilərin yaşayış məntəqələrində bərpa-quruculuq işləri sistemli və surətli şəkildə davam edir. Bu yaşayış məntəqələrindən biri də Cəbrayıl rayonunun Xudafərin qəsəbəsidir. Onun təməlinin qoyulmasında Prezident İlham Əliyev iştirak edib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, burada 149 evin tikilməsi nəzərdə tutulur. Birinci mərhələdə 20 ev tikilərək istifadəyə veriləcək və bu evlərdə 77 sakin məskunlaşdırılacaq.

Bu gün qəsəbədə tikinti işləri sürətlə davam edir. Yaşayış məskəninin konseptual həllində "dayanıqlı kənd", "yaşıl enerji" və "dayanıqlı nəqliyyat" yanaşmaları əsas götürülüb.

"Dayanıqlı kənd" yanaşmasına uyğun olaraq qəsəbədə torpaqların məhsuldarlığının ardıcıl yüksəlməsinin təmin edilməsi ön planda dayanır. Bu yanaşma mövcud torpaq və su resurslarını, o cümlədən bioloji müxtəlifliyi qorumaq və iqlim dəyişikliyinə cavab vermək üçün təbii ehtiyatlardan daha səmərəli şəkildə istifadə etməyə imkan verir. Bu barədə iqtisadçı Vüsalə Babayeva bildirib ki, torpaqların idarə edilməsi sahəsində informasiya təminatının müasir texnologiyalar və yanaşmalar istifadə edilməklə qurulması torpaq münbitliyinin artırılması, mühafizə və bərpasında önəmli rol oynayır.

Beləliklə, qəsəbənin ətrafında "Dayanıqlı kənd" təsərrüfatı sahəsi yaradılır. Təsərrüfatda müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə olunacaq.

Vüsalə Babayeva daha sonra deyib: "Əkin sahələrinin koordinatlarının və sahədə hansı məhsulun əkilməsinin müəyyənləşməsi innovativ metod və üsullardan istifadə edilməklə həyata keçirilir. İnformasiya Sistemində fermerlərin həyata keçirdikləri biznes fəaliyyətlərinin və kənd təsərrüfatı məhsullarının istehsalının ilkin mərhələsindən son mərhələsinə qədər bütün proseslər öz əksini tapır. Eyni zamanda, bu sistem bir çox hədəflərə nail olmağa imkan yaradır. Məsələn, sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır,



su resurslarından qənaətlə istifadə üçün müasir suvarma sistemlərindən istifadə olunur. Təsərrüfat sahələrinin bütün kritik nöqtələrində quraşdırılmış sensorlar torpaq şəraiti, hava və s. haqqında məlumat toplayaraq mərkəzə ötürür. Toplanan məlumatlar sistem tərəfindən təhlil edilərək izlənilən obyektin və ya prosesin vəziyyəti barədə nəticələr çıxarır. Ən əsası bütün bu proseslər bir mərkəzdən idarə edilir. Bu, fermerlərin daha düzgün qərarlar qəbul etməsinə, dəqiq idarəçilik, resursların qənaətli istifadəsinə imkan verir. Xudafərin qəsəbəsində bu innovativ metodlardan istifadə ediləcək.

Texnoloji yeniliklər əsasında "dayanıqlı kənd" konsepsiyasının reallaşdırılması qəsəbədə mövcud əkinçilik sistemlərinin struktur zəifliklərini aradan qaldırmağa, məhsuldarlığı artırmağa, xərcləri optimallaşdırmağa, rəqabətçi və davamlı nəticələr əldə etməyə imkan verəcək.

"Dayanıqlı kənd" konsepsiyasına uyğun qəsəbədə sosial obyektlər tikilir. Məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq.

"Dayanıqlı kənd" yanaşmasının əsas məqsədlərdən biri də ərazinin abadlaşdırılması, mövcud yaşıllıqların qorunması və yaşıllaşdırılmasıdır. Layihədə ərazinin küçə-yol şəbəkəsi, mühəndis hazırlığı, mühəndis-kommunikasiya təminatı şəbəkəsi və ərazinin yaşıllaşdırılması həlli öz əksini tapıb. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Qəsəbənin tikintisində həm də "dayanıqlı nəqliyyat" yanaşmaları əsas götürülüb. Bəs, "dayanıqlı nəqliyyat" nədir? Bura qənaətcil, mühitin qorunmasına və sağlam həyat tərzinin təbliğini şərtləndirən piyada və velosipedlə hərəkət, ekoloji avtomobillər, tranzit yönümlü layihələndirmə aiddir. "Dayanıqlı nəqliyyat" sistemləri xidmət etdikləri cəmiyyətin ekoloji, sosial və iqtisadi dayanıqlığına pozitiv töhfə verirlər. Buna uyğun Xudafərin qəsəbəsində küçə-yol şəbəkəsinin formalaşması xüsusi yer tutur. Planda qəsəbənin küçə-yol şəbəkəsi məhəllə və kompleksləri ərazinin müxtəlif funksional zonaları (müxtəlif təyinatlı ictimai zonalar, mərkəzlər, istehsalat sahələri, istirahət və əyləncə mərkəzləri) ilə əlaqələndirir. Nəqliyyat vasitələrinin və piyadaların rahat hərəkətini təmin edilir. Belə ki, nəqliyyat vasitələrinin hərəkəti üçün 2 zolaqlı avtomobil yolları, velosiped yolları və səkilər nəzərdə tutulur. Bütün küçələrin profillərinə uyğun abadlaşdırılması, binaların yaxınlığında və həyətlərində tələb olunan yerüstü avtomobil dayanacaqları üçün meydançalar olacaq.

Eyni zamanda, layihədə Xudafərin qəsəbəsində "yaşıl enerji"dən istifadə nəzərdə tutulub. Qəsəbənin ərazisində bərpaolunan enerji növləri istehsal etmək üçün böyük potensial var. Əsasən günəş panellərindən istifadə ediləcək. İnzibati və digər binaların damlarına günəş panelləri quraşdırılacaq.

Göründüyü kimi, azad edilmiş ərazilərin bərpası yalnız evlərin tikintisi ilə məhdudlaşmır. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həm də müasir texnologiyalar əsasında infrastrukturlar yenidən qurulur, sosial obyektlər tikilir, "yaşıl enerji"dən istifadə genişlənir, aqrar sektorda innovativ metod və üsullardan istifadə edilir.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

**Bakı–Cəbrayıl–Bakı**

Unudulmaz Vətən oğulları

**...Ağrıları güc gəlsə də, üzündən təbəssüm əskik olmazdı. Daxilindəki işıq həmişə sifətini nurlandırırdı. Həm də Qarabağ savaşının dəhşətlərini xatırladıqca həyəcanlanırdı. Ölüm-dirim savaşının ən qaynar nöqtələrində olmuşdu. Qanlı-qadalı səhnələri öz gözləri ilə görmüşdü. Elə buna görə də cəbhə xatirələrini danışanda qəribə hallar keçirirdi. Mən ondakı dözümə, qəlbindəki Vətən eşqinə, vətənpərvərlik yanğısına heyrətlənirdim.**

# Qazi kimi məğrur, alim kimi qüdrətli...

O, könlü istəyən yerə uca könüldən gedirdi. Birinci Qarabağ müharibəsinə də könüllü getmişdi.



...Rəşid Əliyev 1954-cü ildə, Borçalının Faxralı kəndində doğulub boya-başa çatıb. 1961-ci ildə orada orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Atasının işi ilə əlaqədar, ailələri Bolnisi rayon mərkəzinə köçüb. Təhsilini Bolnisi şəhər rus orta məktəbində davam etdirib. Məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra Bakı Dövlət Universitetinin (keçmiş Azərbaycan Dövlət Universiteti) fizika fakültəsinin axşam şöbəsinə qəbul olub. Tələbə yoldaşları arasında bilik və bacarığına görə fərqlənib. Elə buna görə də universitetin elmi-tədqiqat işlərinə cəlb olunub. Universitetdə təcrübə keçməklə fizika elminin sirlərinə dərindən yiyələnməyə başlayıb. Axşam şöbəsində oxuduğuna görə, sovet ordusu sıralarında hərbi xidmətə çağırılıb. Əsgəri borcunu yerinə yetirdikdən sonra universitetdə təhsilini davam etdirib. 1979-cu ildə fizika fakültəsinin tam kursunu bitirib və orada da əmək fəaliyyətinə başlayıb.

Universitetdə 35 ildən artıq çalışıb. İşinin öhdəsindən vicdanla gəlib. Baş laborantlıqdan aparıcı mühəndis vəzifəsinə yüksəlib. Universitetin Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun "Bioloji sistemlər fizikası" laboratoriyasında aparıcı mühəndis vəzifəsində çalışarkən, savadlı, yüksək ixtisaslı mütəxəssis kimi tanınıb. Bir çox elmi məqalələrin, ixtiraların, səmərələşdirici təkliflərin müəllifi olub.

O, müasir texnika və texnologiyanı mükəmməl bilirdi. Eksperimentlərin incəliklərini dərindən duyan fizika mühəndisi idi. Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunda, AMEA-nın Genetik Ehtiyatlar və digər institutlarındakı ən mürəkkəb rentgen, lazer, optik qurğuların sazlanması, "LAZER" Elmi-texniki Mərkəzində işlənib hazırlanmış xüsusi təyinatlı lazer texnikasının "N" saylı hərbi hissədə sınaqlarının keçirilməsində yaxından iştirak edib. BDU-dakı elmi fəaliyyəti ilə yanaşı, respublikada gəmi təmiri üzrə də əhəmiyyətli işlər görüb.

Onun bir vətənpərvər gənc kimi coşqunluğu Vətənin dar günündə özünü büruzə verib. Rəşid Əliyev 1992-ci ilin may ayında dissertasiya işi üzərində elmi fəaliyyətini yarımçıq qoyub, Vətənin müdafiəsinə qalxmaq üçün könüllü cəbhəyə yollanıb. Ağdam, Ağdərə, Qubadlı, Tərtər və Murov uğrunda gedən qanlı döyüşlərdə iştirak edib. Orduda öz sənətinə uyğun vacib işlər görüb. Xüsusi təyinatlı batalyonun bütün rabitə sistemlərini yenidən qurub və mülki şəxs kimi rabitə rəisi vəzifəsini yerinə yetirib. Milli Orduda 7 il xidmət etdikdən sonra səhhətində yaranmış problemlərlə əlaqədar tərxis olunub. Müharibənin döyüş səngərlərindən keçib, I Qarabağ müharibəsi veteranı və ehtiyatda olan zabit kimi əvvəlki işinə qaydıb. Universitetdə öz elmi işini davam etdirməyə başlayıb.

Rəşid Əliyev elmi işçi kimi Litvada ezamiyyətdə olub. Orada elmi ixtirasına görə patent qazanıb. 2007-ci ildə ona İran İslam Respublikasından da elmi əməkdaşlıq təklifi gəlib. BDU rəhbərliyinin razılığı ilə İranın "Sazan Electronics İndustry" şirkətində öz bilik və bacarığı ilə xeyli iş görüb. Səhra şəraitində laboratoriya qurduğuna görə İran şirkətinin rəhbərliyi Rəşid Əliyev kimi yüksək səviyyəli mütəxəssisi cidd-cəhdlə orada saxlamaq istəyib. Ona dəfələrlə İranda qalıb işləmək, İran vətəndaşlığını qəbul etmək təklif olunub. Rəşid müəllim canından artıq sevdiyi Vətənə qayıtmağı hər cür şirnikləndirici təkliflərdən üstün tutub. İran tərəfin məkrli niyyətini anlayıb və təkliflərini qətiyyətlə rədd edib. İran rejimi isə başqa yola əl atıb. Onu şərləyərək girov götürüblər. Rəşid müəllimi 1il 10 ay həbsdə saxlayıblar. O, sınmayan iradəsi ilə İran tərəfinin hər cür təzyiq və təhdidlərinə qalib gəlib və girovluqdan qurtulub.

O zaman Rəşid müəllimin hüquqlarının müdafiəsi üçün Azərbaycan alimlərindən ibarət Müdafiə Komitəsi yaradılıb. Hüquq müdafiəçilərinin və Milli Məclisin deputatlarının iştirakı ilə dəfələrlə mətbuat konfransı, İranın Azərbaycandakı səfirliyinin qarşısında mitinqlər keçirilib. Ölkəmizin rəsmi dövlət qurumları, Azərbaycanın İrandakı səfirliyinin, Xarici İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin əməkdaşları, Rəşid müəllimin döyüş dostları ona dəstək olublar. Nəhayət, o, İran rejiminin girovluğundan qurtula bilib.

...Rəşid müəllim gənc nəslin mühəndis biliklərinə yiyələnməsinə xüsusi önəm verir və gələcəkdə yeni-yeni ixtiraların kəşf olunmasını istəyirdi. Əvəzçilik üzrə işlədiyi Azərbaycan Texniki Universitetində neçə-neçə magistr yetişdirib. Amma səhhətində yaranmış problemlər uğurlu işlərini davam etdirməyə imkan verməyib. Amansız ölüm ötən il onu doğmalarından ayırdı.

İndi Rəşid müəllim öz ailəsi, doğmaları ilə yanaşı, yurddaşlarının, cəbhə yoldaşlarının – qazilərin və müharibə veteranlarının, digər dostlarının qəlbində yaşayır.

Bugünlərdə qohumları, döyüş dostları BDU-nun Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun aparıcı mühəndisi, I Qarabağ müharibəsinin qazisi, kapitan Rəşid Əliyevin anım gününü qeyd etdilər. Onu qədirbilənliklə xatırladılar. Haqqında xatirələr danışdılar. Xatirələrin işığında Rəşid müəllimin bir şəxsiyyət kimi dəyəri aydın duyulurdu.

Azərbaycan Veteranlar Birliyi Rəşid Əliyevin xatirəsini əziz tutaraq ölümündən sonra onu " Böyük Zəfər" xatirə medalı ilə təltif edib. 776-cı batalyonun komandirinin siyasi işlər üzrə keçmiş müavini, ehtiyatda olan mayor Saleh Əliyev medalı Rəşid Əliyevin qardaşı Azad Əliyevə və oğlu Elçin Əliyevə təqdim edib. Rəşid müəllimin bacısı, fizika-riyaziyyat elmləri namizədi Lalə xanım tədbir iştirakçılarına və Azərbaycan Veteranlar Birliyinin rəhbərliyinə ailəsi adından minnətdarlığını bildirdi.

Bu gün qazi Rəşid Əliyevin anadan olmasının 70 ili tamam olur. Biz də qazimizi ehtiramla anırıq və ruhu şad olsun, deyirik...

**Həzi HƏSƏNLİ,**
**şair–publisist**

Epidemioloji durum

# Suraxanıda Hepatit A tam nəzarətdədir

**Ötən ilin dekabrında Suraxanı rayonundakı məktəblərdə şagirdlərin Hepatit A virusuna yoluxduğu barədə xəbərlər yayıldı. Yoluxma təsdiqləndikdən dərhal sonra Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları "Azərsu" Açıq Səhmdar Cəmiyyətin mütəxəssisləri ilə birgə mərkəzləşdirilmiş içməli su şəbəkəsinin laborator müayinə üsullarının tətbiqi ilə yoxlamalara başladı. Laborator müayinələrdən sonra məlum oldu ki, "Azərsu" ASC-nin xəstəlik yayılan əraziyə verdiyi içməli su standartlara tam uyğundur.**



Qeyd edək ki, 2023-cü ilin noyabr ayında Yevlax və Mingəçevirdə Hepatit A virusuna kütləvi yoluxma faktı aşkarlanmışdı. Rəsmi qurumlar ölkədə epidemioloji vəziyyətin sabit olduğunu, xəstəliyin ciddi nəzarət altında olduğunu desələr də, təhlükə hələ də qalır. Xüsusən də məktəblilərin valideynləri bu təhlükə barədə sosial şəbəkələrdə fikirlərini açıq yazırlar. Votsap qruplarında valideynlərə səs atırlar ki, uşaqlarınıza qaynamamış su verməyin. Çünki xəstəliyin məhz içməli su ilə yayılması iddia olunur. Bəs virusa içməli sudan yoluxmaq həqiqətdirmi? Yoluxmamaq üçün nə etmək lazımdır?

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva bu sualla bağlı XQ-yə bildirdi:**

– Hepatit A virusuna yoluxma çirkli əllə, çirklənmiş su ilə, gigiyenik qaydalara riayət etmədikdə baş verir. Bununla bağlı hazırda məktəblərdə, rayon ərazisində əks-epidemik tədbirlər aparılır, monitorinqlər keçirilir, həyətlərdə olan su çənləri, su anbarları yuyulur, təmizlənir, dezinfeksiya tədbirləri aparılır, eyni zamanda məktəblərdə olan su çənləri də yuyulub təmizlənir, zərərsizləşdirilir. Laboratoriyada suyun bakterioloji, kimyəvi müayinələri aparılır. İçməli suya tam nəzarət olunur. Onu da qeyd edim ki, yanvar ayının əvvəllərinə nisbətən hazırda yoluxma hallarında azalma müşahidə olunur.

Hepatit həmişə olub. Hələ ki, ləğv olunan xəstəliklər sırasına daxil edilməyib. Hər il qeydə alınır. Keçən ilin dekabr ayında Suraxanı rayonunda xəstəliyə yoluxma haqqında məlumat aldıq. Bir ailədə 2, o birində 1, digərində 3 uşaqda Hepatit A virusu aşkarlanmışdı. Bülbülədə, Əmircanda həyət evində yaşayan qohumlar, qonşular arasında xəstəlik yayıldı. Dekabrda yoluxma hadisəsi tək-tək baş versə də, həmin qəsəbələrdə yanvar ayında artım müşahidə edildi.

Hadisənin belə cərəyan etməsi ilə həyəcan təbili çalındı. Rayon icra hakimiyyəti ilə birlikdə digər əlaqədar qurumlar hərəkətə keçdi. Mərkəzləşdirilmiş su xətləri, həyətlərdəki su çənləri yoxlanıldı. İlk mənbənin məişət zəminində olduğu təsdiqləndi. Xəstəlik öncə ailədən məktəbə gəlib. İnsanlar çirklənmiş su çənlərindən istifadə etməklə, virusun olduğu yerə toxunmaqla həm özləri yoluxur, həm də digərlərini yoluxdururlar.

**Suraxanı rayonundakı Aslan Muradov adına 84 nömrəli tam orta məktəbin direktoru Röya İslamova bildirdi ki,** dekabrın 19-da Hepatit A virusuna ilk yoluxma aşkarlanıb: "Amma yoluxma faktı aşkarlanmazdan bir neçə gün öncə o şagird özünü halsız hiss etdiyindən məktəbə gəlmirdi. Xəstəlik təsdiqləndikdən sonra, dekabrın 20-də epidemiologiya mərkəzindən gəlib məktəbin su ehtiyatından laborator müayinələr götürdülər. Götürülən nümunələr standartlara uyğun oldu".

Direktor daha sonra bildirdi ki, məktəbdə dərs saatı bitdikdən sonra hər gün texniki heyət xlor tərkibli dezinfeksiyaedicilərlə təmizlik işi aparır: "Biz şagirdlərdə xəstəlik aşkarlanmazdan öncə rayonda virusun yayıldığını eşitmişdik. Həmin vaxtdan hər səhər şagirdlərin məktəbə qəbulu zamanı temperatur yoxlanır, gözün selikli qişasına baxılır. Tibbi heyyət tərəfindən baxış keçirildikdən sonra şagird məktəbə buraxılır. Hər hansı dəyişiklik olduqda isə valideynə xəbər verilir, onların müşayiəti ilə şagird evə göndərilir və məlumat verilir ki, yaşadıqları ərazi üzrə sahə həkiminə müraciət etsinlər".

**Sabunçu Tibb Mərkəzinin infeksionisti Sima İsmayılova** müəssisədə xəstələrin olduğunu təsdiqlədi. Bildirdi ki, xəstəxanaya daxil olanlar 10–14 günə sağalırlar. Xəstəliyin yayılma sürəti çox olmadığından bir ailədən yalnız bir nəfərin xəstələnməsi, digərlərinin isə yoluxmaması mümkündür. Sarılıq insandan insana keçdiyinə görə müalicə mütləq stasionarda aparılmalıdır. Xəstəlik ən çox 3–15 yaşlı uşaqlarda, 45–50 yaş böyüklərdə müşahidə olunur. İmmuniteti güclü olanlar, yaşlı adamlar Hepatit A virusuna yoluxmur. İnfeksiya təmasla keçdiyindən gigiyenik qaydalara əməl edilmədikdə yoluxmaq mümkündür. Virusun bir xüsusiyyəti var ki, o ətraf mühitdə uzun müddət qalır. Məktəblərdə məhz gigiyena qaydalarına əməl etməyən uşaqlar arasında yoluxma baş verir. Şagirdlərin əllərini partaya, stola, qapıya toxundurması yoluxmaya səbəblərdəndir. Viruslu yerə toxunub sonra həmin əllə meyvə, tərəvəz, şirniyyat yemək yoluxmaya səbəb olur. Bu xəstəliyin müsbət cəhəti odur ki, xroniki hala keçmir, xəstə tez və tam sağalır.

Hepatit A infeksiyasına yoluxma halları ilə bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, Suraxanı rayonunun Əmircan və Bülbülə qəsəbələri üzrə müxtəlif orta məktəb və məktəbəqədər təhsil müəssisəsində müşahidə edilən epidemioloji vəziyyətlə əlaqədar nazirliyin mütəxəssisləri tərəfindən ərazilərdə içməli suyun mikrobioloji göstəricilərinin yoxlanılması məqsədilə keçirilən monitorinqlərin sayı artırılıb. Aparılan monitorinqlər nəticəsində "Azərsu" ASC tərəfindən əhaliyə verilən içməli suyun mikrobioloji göstəricilərinin ölkədə qüvvədə olan dövlət standart və normalarına cavab verdiyi müəyyən edilib.

Hazırda epidemioloji vəziyyət nəzarət altındadır, yoluxma hallarının sayında azalma müşahidə olunur. Eyni zamanda, su xətləri və çənlərin yuyulub-təmizlənməsi və zərərsizləşdirilməsi istiqamətində də işlər davam etdirilir.

**Zərifə HÜSEYNOVA**
**XQ**

# Səyyar bərpa xidmətləri

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi yaşayış yerini tərk etməkdə və nəqliyyatdan istifadədə çətinlik çəkən əlilləri yaşadıqları ünvanlarda da (səyyar) reabilitasiya xidmətləri ilə təmin edir. Səyyar xidmətlərə qurum tərəfindən 2022-ci ildən başlanıb. 2024-cü ilin əvvəlinədək 1700 əlilə yaşadıqları ünvanlarda reabilitasiya xidmətləri göstərilib.**

Səyyar xidmətlərdən yararlanmaq istəyən əlil və ya onun qanuni nümayəndəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "142 Çağrı Mərkəzi"nə, eləcə də, DOST mərkəzləri və ya ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət edir. Müraciətə əsasən agentliyin müvafiq reabilitasiya mərkəzinin həkim və psixoloqlarından ibarət səyyar briqadası həmin şəxsin yaşadığı ünvanda ilkin müayinə və qiymətləndirməsini aparır.

Faktiki vəziyyət səyyar xidmətlər üçün uyğun hesab edildikdə icra olunacaq prosedurların tarixi, sayı və müddəti müəyyən olunur. Sonra həmin şəxsə fərdi proqram əsasında səyyar reabilitasiya xidmətlərinin göstərilməsinə başlanır. Bu




xidmətlərə həkim və psixoloq müayinəsi, loqoped seansı, müalicəvi masaj, müalicəvi bədən tərbiyəsi, əmək terapiyası və s. daxildir.

**XQ**

**Fəridə Əlyarbəyli – 100**

# Gəncənin şair-dramaturq xanımı

**Ulu Şeyx Nizami yurdu Gəncə Azərbaycana dahi sənətkarlar, görkəmli şəxsiyyətlər bəxş edən bir diyardır. Buranın qaynar ədəbi mühiti Məhsəti Gəncəvi, Rəziyyə Gəncəvi kimi qadın şairləri də yetirib. Həmin yaradıcılıq bulağından su içmiş şair-dramaturq Fəridə Əlyarbəyli isə ötən əsrin tanınmış imzalarından olub.**



Fəridə Həsən qızı Əlyarbəylinin bu il 100 yaşı tamam olur. Ədəbiyyata sevgisi onu 1942-ci ildə indiki Bakı Dövlət Universitetinin filologiya fakültəsinə gətirib. Ali təhsil aldıqdan sonra Fəridə xanım Azərbaycan Elmlər Akademiyasının Gəncə Bazasında kiçik elmi işçi kimi fəaliyyətə başlayıb. 50-ci illərin əvvəllərində Yazıçılar Birliyinin Gəncə filialının işi bir qədər zəiflədiyi üçün AYB-də Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Əli Vəliyev, Süleyman Rəhimov və Əhməd Cəmilin iştirakı ilə keçirilən iclasda filialın Fəridə Əlyarbəyli də daxil olmaqla yeni bürosu təsdiq edilib. Fəridə Əlyarbəyli filialın məsul katibi seçilib, sonra isə bölmənin rəhbəri kimi də fəaliyyət göstərib.

Ötən əsrin əvvəllərində Gəncədə yaşayıb-yaratmış Əkbərşah Ruhi barədə möhtəşəm bir monoqrafiyanın, "Arzular", "Yasəmən", "Gəncəli qız", "Qayğı", "Sərv ağacı", "Dünyaya insan gəlir", "Novruz bayramı", "Könül çırpıntıları", "Cavad xan türbəsi", "Ona xanım dedilər", "Pürrəng çay", "Sular bulananda", "Dünya nə qəmlisən" və başqa kitabların müəllifi olan xanım şairin "Damlardan uca çinar" şeirlər toplusu Moskvada "Sovetski pisatel" nəşriyyatında rus dilində çapdan çıxıb, ədəbi ictimaiyyət və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanıb. Onun "Səkkizliklər"i ümumbəşəri fikir və duyğularla zəngin olub.

Fəridə Əlyarbəyli maraqlı dram əsərlərinin də müəllifidir. "Xan qızı", "Qonşular", "Günahkar qız", "Özgə yeri" pyesləri onun yaradıcılığında xüsusi yer tutur. "Xan qızı" tarixi dramını 1972-ci ildə qələmə alıb və elə həmin ildə də Gəncə Dövlət Dram Teatrının səhnəsində Xalq artisti, rejissor Vaqif Şərifovun quruluşunda bu əsər uğurla tamaşaya hazırlanıb. Qeyd etməliyəm ki, Fəridə Əlyarbəyli Azərbaycan teatrında Xurşudbanu Natəvan haqqında tarixi bir dram əsəri yazmış ilk müəllifdir. Səhnədə hadisələr cərəyan etdikcə XIX əsrdə Şuşada yazıb yaradan, tarixdə hər zaman öz imzası ilə seçilən xan qızını görür, onun həyatına və o illərdə bir insan olaraq gördüyü xoşməramlı işlərə valeh olmaya bilmirsən. Tamaşada Xurşudbanu Natəvan obrazını xalq artisti Sədayə Mustafayeva ifa edib. Aktrisanın ifasında bu rol həssas qəlbli ana, lirik, romantik təbiətli şair, həm də mürtəce qüvvələrə qarşı sərt və barışmaz insan kimi canlanır.

Fəridə Əlyarbəyli "Xan qızı"nın yaranması haqqında öz xatirələrində yazırdı: "70-ci illərin əvvəllərində Xalq artisti Məhəmməd Burcəliyev mənim bu dram əsərini yazmağımın səbəbkarı oldu. Bu xeyirxahlığı heç zaman unutmaram. Biz ailəvi dost idik. Bir gün yenə bir yerə yığışıb söhbət edirdik ki, o, mənə Xurşudbanu Natəvan haqqında pyes yazmağımı məsləhət gördü. Elə bu söhbətdən sonra mən Natəvan haqqında axtarışlar etdim və "Xan qızı" – ilk pyesimi yazdım. Pyes üzərində işləyərkən nədənsə həmişə Xalq artisti Sədayə Mustafayevanın xoş siması gözlərimin önündən getmirdi. Sanki mən Xan qızı haqqında düşünərkən elə səhnədə artıq Sədayə xanımı görürdüm. Xan qızı obrazını məhz Sədayə xanım üçün yazdım. Tamaşanı hazırlamağı gənc rejissor Vaqif Şərifova həvalə etdilər. Rejissor rol bölgüsündə, elə bil ki, qəlbimdən keçənləri, duymuşdu. O, Xan qızı rolunu Sədayə Mustafayevaya verdi. Həm aktrisanın, həm də rejissorun gücünə yaxşı bələd idim. Əsərin uğurlu səhnə taleyi olacağına inanırdım və belə də oldu".

Fəridə Əlyarbəylinin ötən əsrin 80-ci illərində qələmə aldığı "Qonşular" pyesi də maraqlı detalları ilə diqqətçəkən səhnə əsərlərindəndir. Belə ki, sovet rejiminin tüğyan etdiyi bir zamanda guya rüşvətxorluqla mübarizə etmək pərdəsi altında əslində bir çox məsələlərin elə korrupsiya ilə həlli yollarının göstərilməsi o zamanlar yazardan böyük cəsarət tələb edirdi. Fəridə Əlyarbəyli bu pyesində korrupsiya batağlığında boğulan bəzi dövlət məmurlarını göstərməklə mübarizə yollarının aparılması üçün də əsas şərtləri səciyyəvi xarakterləri ilə acıb göstərməyə nail olmuşdu. Tamaşanın quruluşçu rejissoru, mərhum Hilal Həsənov müəllif fikirlərini öz rejissor traktofkası ilə səhnədə daha dolğun göstərməyə çalışırdı.

"Qonşular" pyesi haqqında Xalq artisti, rejissor Vaqif Şərifov öz müsahibələrinin birində deyirdi: "Yadınıza gəlirsə, 1988–1990-cı illərdə meydanlarda mitinqlər gedirdi. O zamanlar sanki teatrın bir qismi meydana köçmüşdü. Bir cəsarətli söz də o dövr üçün kifayət idi. Xatırlayıram ki, Fəridə Əlyarbəylinin "Qonşular" pyesini oynayırdıq. Bu pyes korrupsiya ilə mübarizəyə yönəlmişdi. Pyesdə fikir səslənirdi ki, uşaqlıqda oğurluq üstə tutulanlardan kimsə indi polis rəisidir və ya rüşvət alan təhsil şöbəsi müdiridir. Bu kimi fikirlərə görə o dövrlərdə senzura bizə qan uddururdu. Buna baxmayaraq, əsərin mübariz ruhunu qoruyub saxlaya bildik..."

Xüsusi olaraq qeyd edək ki, Fəridə Əlyarbəyli poeziyada olduğu kimi, səhnə əsərlərində də öz mövzularına daim sadiq qalır, insanın daxili aləmi ilə yanaşı, cəmiyyətdə, ictimai həyatda pak mövqeyinə sənətkar münasibəti göstərirdi. Onun son illərdə qələmə aldığı əsərləri milli faciələrin, Qarabağ hadisələrinin, işğal edilmiş torpaqlarımızda tökülən günahsız qanların, erməni vəhşiliklərinin hərtərəfli göstərilməsi ilə yadda qalıb.

"Əzəldən qəm üstündə köklənmiş bu dünya kimsəni sona qədər sevmədi" – deyən Fəridə Əlyarbəyli 2011-ci ilin sonunda canından artıq sevdiyi Gəncədə əbədiyyətə qovuşub.

**Anar Ərtoğrul BURCƏLİYEV,**
**teatrşünas**

# Qazax Teatrının yeni həyatı

**Bu gün ölkəmizdə əyalət teatrlarının peşəkar səviyyəsi və funksionallığı deməyə əsas verir ki, zəngin ənənəsi olan milli səhnə sənəti öz dinamikasını qoruyub saxlamaqla, həm insanların mədəni zövqünün inkişafına, həm də onların asudə vaxtının səmərəli keçməsinə xidmət edir.**



Bu baxımdan Qazax Dövlət Dram Teatrının məhsuldar fəaliyyətini də qeyd etmək olar. "Ədəbiyyat və incəsənət" portalında bu sənət məbədindən bəhs edən həmkarımız Könül xanım xatırladır ki, ilk dəfə 1938-ci ildə Qazaxda kolxoz-sovxoz teatrı yaradılıb, 1943-cü ildə dram teatrına çevrilib və ona Səməd Vurğunun adı verilib. Dövlət Dram Teatrı kimi 1949-cu ilə kimi fəaliyyət göstərib. O dövrdə teatrın repertuarında, əsasən, Azərbaycan və dünya klassiklərinin əsərləri, həmçinin müasir ədəbiyyat nümunələri yer alırdı. Teatrda məşhur isimlər – Gürcüstan Respublikasının Xalq artisti İbrahim İsfahanlı, Azərbaycan Respublikasının xalq artistləri Muxtar Avşarov, Solmaz Orlinskaya, Barat Şəkinskaya, əməkdar artistlər Əliheydər Həsənzadə, Rüxsarə Ağayeva, rejissorlar Məcid Zeynalov və başqaları fəaliyyət göstəriblər.

Təəssüf ki, 1949-cu ildə Mərkəzi Komitə əyalət teatrlarını qeyri-rentabelli hesab edərək onların, o cümlədən də Qazax Dram Teatrının fəaliyyətinə xitam verib. Əslində isə bu yanlış addım sırf antimilli xarakter daşıyıb, çünki cəmi 15 kilometr məsafədə Ermənistanın əyalət teatrı – İcevan Teatrı fəaliyyətini davam etdirməkdə idi. 11 illik "antrakt"dan sonra Qazax teatrı yenidən, amma bu dəfə xalq teatrı kimi fəaliyyətini davam etdirib. Nəhayət, 1988-ci ildə yenidən dövlət teatrı statusu alıb və Xalq şairi Bəxtiyar Vahabzadənin "Dar ağacı" tarixi faciəsi ilə ilk tamaşasını göstərib.

Həmkarımız yazır ki, ötən illər ərzində teatrda 70-dən artıq əsərə quruluş verilib, teatr respublikada keçirilən festivallarda dəfələrlə iştirak edib. Müxtəlif illərdə teatrda Respublikanın xalq artistləri Zülfiqar Abbasov, Tariyel Qasımov, Rafiq Əliyev, Vaqif Şərifov, əməkdar artistlər Vidadi Əliyev, Münəvvər Əliyeva fəaliyyət göstəriblər. Teatr rus, alman, bolqar, türk, tacik dramaturgiyasına müntəzəm müraciət edib, klassik və müasir Azərbaycan dramaturgiyası isə teatrın repertuarının əsasını təşkil edib. Qazax teatrı müxtəlif illərdə Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında qastrol səfərlərində olub. I Qarabağ müharibəsi dövründə Ağdərə və Tərtərdə əsgərlər qarşısında çıxışlar edib. Teatr Mədəniyyət və Turizm Nazirliyinin, Teatr Xadimləri İttifaqının keçirdiyi müxtəlif festivalların iştirakçısı olub.

Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə milli teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi məqsədilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan Qazax Dövlət Dram Teatrına 100 min manat vəsait ayrılıb. Bu tarixi sərəncamdan sonra teatrın yerləşdiyi inzibati bina yenidən qurularaq müasir avadanlıqla təchiz olunub.

Teatrın direktoru Saqif İskəndərov, baş rejissoru Əməkdar artist Musa Eyyubovdur. Bu gün Qazax teatrında repertuar siyasətinin təşkili və həyata keçirilməsində bədii şura üzvlərinin fikirləri əsas götürülür, daha aktual və müasir dövrümüzlə səsləşən pyeslər təqdim edilir.

2023-də Əməkdar artist Xəzər Gəncəlinin quruluşunda Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlunun ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə qələmə aldığı "İnan mənə" əsəri də uğurlu səhnə həllini tapıb. Bu tamaşa ötən ilin payızında Teatr Xadimləri İttifaqında, eləcə də dəfələrlə Gəncəbasar bölgəsində göstərilib və alqışlarla keçib.

Bir neçə gün öncə teatrda türkiyəli dramaturq Tuncər Cücənoğlunun "Dosya" əsəri əsasında hazırlanan eyniadlı tamaşasının premyerası uğurla keçib. Rolları Əməkdar artist Hacı Hacıyev, aktyorlar Sərdar Rüstəm, Xanım Məmmədova, Aytac Cəfərova, Məlahət Vəliyeva, Zəmanə Dərviş, Yusif Qoca, Nəsimi Aşpazov, Xaqan Qurbanov və Aydın Orucov və Məmməd Hacəliyev ifa ediblər.

Teatrda illik repertuar planından kənar olaraq uşaqlar üçün İsgəndər Coşqunun "Ana laylası" pyesi əsasında da eyniadlı tamaşa hazırlanır. Səhnə işi fevralın sonunda balaca tamaşaçıların ixtiyarına veriləcək. Cari mövsüm üçün isə plan üzrə 4 əsər repertuara daxil edilib. Bunlar Əli Əmirlinin "Onun iki qabırğası" komediyası, Braziliya yazıçı-dramaturqu Gilyerme Fiqeyredunun "Ezop", türkiyəli dramaturq Turqut Özakmanın "Adət", gənc yazıçı Jalə İsmayılın "Ametis bəy və Apetit xanım" əsərləridir.

**Ə.DOSTƏLİ**
**XQ**

**Məzahir Süleymanov – 80**

# Qocaman aktyorun gənclik həvəsi

**Xalq artisti Məzahir Süleymanov. Bu ad və soyad sənətsevərlərə yaxşı tanışdır. Çünki bu aktyoru həm teatr səhnəsində, həm də televiziya ekranlarında uzun illərdir ki, görür, ustalıqla yaratdığı obrazları maraqla izləyirik.**



Bəziləri onu oynadığı müsbət obrazlarda sevir, bəziləri də yaratdığı mənfi obrazlara görə yamanlayırlar. Deməli, aktyor oynadığı hər bir obrazı sevərək yaradır və onun ərsəyə gəlməsinə böyük zəhmət sərf edir.

Məzahir Süleymanovu 48 ildir ki, tanıyıram. Mənim və başqa rejissorların quruluş verdiyi çoxlu tamaşada maraqlı obrazlar yaratdığından onun haqqında qətiyyətlə bu sözləri deyə bilərəm: çox zəhmətkeş, məsuliyyətli sənətçidir və yaratdığı hər bir rola son dərəcə ciddi yanaşır. Ən kiçik rolları belə böyük obraz səviyyəsinə yüksəldə bilir. Bu isə hər aktyora nəsib olan xüsusiyyət deyil. Bunu yalnız əsl ustad sənətkarlar bacarırlar.

Məzahir Həbulla oğlu Süleymanov 1944-cü il yanvarın 29-da Zərdab rayonunun Məmmədqasımlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakının Razin (indiki Bakıxanov) qəsəbəsində 2 nömrəli texniki peşə məktəbində çilingər peşəsinə yiyələnib, eyni zamanda Montin qəsəbəsindəki "Elm və Texnika" Mədəniyyət Sarayında fəaliyyət göstərən dram dərnəyinin üzvü olub. Aktyorluğa həvəs Məzahirdə elə həmin vaxtdan yaranıb. Bir müddət ayrı-ayrı müəssisələrdə çilingər işləyib və 1963-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dram və kino aktyorluğu fakültəsinə daxil olub. Elə həmin ildə ordu sıralarına gedib, 4 il hərbi dəniz donanmasında xidmət edib. Əsgərlikdən sonra ali təhsilini davam etdirib.

O, 1972-ci ildə ali məktəbi bitirərək Sumqayıt Dövlət Dram Teatrına göndərilib. Uzun illər, təxminən 42 il bu teatrda aktyor kimi çalışıb. Sənətkarlığı sayəsində 2006-cı ildə Əməkdar artist, ikicə il sonra isə Xalq artisti fəxri adlarına layiq görülüb, ali dərəcəli ustad sənətkara çevrilib. Bu gün Azərbaycanda əksər aktyorlar onun oynadığı rolların siyahısına baxıb həsəd apara bilərlər. Milli dramaturqların ən maraqlı pyeslərindən tutmuş, dünya klassiklərinin inci əsərlərinə qədər oynadığı tamaşaların sayı 100-dən artıqdır. Əksərən də əsas və baş rollarda. Məzahir Süleymanov Sumqayıt teatrında işlədiyi illər ərzində, demək olar ki, bütün tamaşalarda oynayıb. Çünki quruluşçu rejissorlar çox istəyiblər ki, belə istedadlı aktyor onların hazırladığı tamaşada mütləq rol alsın.



Məzahir Süleymanovun çoxsaylı təkrarsız obrazları var. Jan Batist Molyerin "Skapenin kələkləri"ndə Oktav, Eqon Rannetin "Azmış oğul"unda Lembit, Nazim Hikmətin "Domoklın qılıncı"nda Arxitektor, Üzeyir Hacıbəylinin "Arşın mal alan"ında Soltan bəy, Cəlil Məmmədquluzadənin "Ölülər"ində Hacı Həsən ağa, Mirzə Fətəli Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah"ında Müsyo Jordan, Anarın "Adamın adam"ında Tərs Tahir, Mövlud Süleymanlının "Dəyirman"ında Sarı Qasım, Nazim Hikmətin "Bayramın birinci günü"ndə Vəli Əfəndi, Hüseyn Cavidin "Afət"ində Qaplan, Azat Abdulinin "13-cü sədr"ində Prokuror, Nikolay Qoqolun "Müfəttiş"ində Bələdiyyə rəisi, Ağalar İdrisoğlunun "Sabir Rüstəmxanlının porteret cizgiləri"ndə Cavad xan, Aleksandr İvaşenkonun "Uşağa bir üç yazın"ında Temiçkin, Ağalar Mirzənin "Məlikməmmədin yeni sərgüzəştləri"ndə Şeytan, Nikolay Qoqolun "Evlənmə" əsərində Podkolyosniy, Georgi Xuqayevin "Varlı ev"ində Beçir, Ağalar İdrisoğlunun "Şah İsmayıl"ında Hüseyn Lələ bəy, Georgi Xuqayevin "Qocaların məhəbbəti"ndə Qaqutsa, Georgi Xuqayevin "Bir köpək vardı" əsərində Çoban, Georgi Xuqayevin "Ailə"sində Jorji, Mark Tvenin "Şahzadə və Dilənçi" əsərində Lord Hetford, Yudjin Onilin "Qarağaclar altında məhəbbət"ində Efraim Kebot, Aqşin Babayevin "Xilaskar"ında Filosof-deputat, Nodar Dumbadzenin "Ağ bayraqlar"ında İsidor Salidze, Abdulla Şaiq və Süleyman Sani Axundovun "Qaraca qız"ında Piri baba və başqaları bu qəbildəndir. Dəfələrlə Prezident mükafatına layiq görülüb. Haqqında 100-dən çox məqalə, ressenziya yazılıb.

Təəssüf ki, teatr, televiziya və kino rejissorları onu yaddan çıxarıblar. Halbuki, bu gün Məzahir Süleymanov kimi sənətkarlara ehtiyac var. Əgər ona rollar verilsə, yenə də bir-birindən maraqlı obrazlar yaradar…

Məzahir Süleymanovla bağlı söhbətimi burada bitirə bilərdim. Amma onu yarım əsrə qədər bir müddətdə tanıdığımdan, səhnədə tərəf-müqabili olduğumdan və quruluş verdiyim tamaşalarda bir-birindən maraqlı rollar oynadığından haqqında deyiləsi sözlərim çoxdur. Çünki insanlıq və sənətkarlıq bir vəhdət halında heç də hər kəsdə olmur. Bu, bir Allah vergisidir. Məzahir saf olduğuna görə həmişə haqqı müdafiə edir, ədalət hissini itirmir, yarınmağı, məddahlıq etməyi də bacarmır. Dostluqda da çox möhkəmdir. Xarakterindəki bütövlük və yuksək mədəniyyət onun oynadığı rollara da sirayət edib.

O, həmçinin yaxşı yol yoldaşıdır. Uzun illər biz onunla həm Azərbaycanın rayonlarında, həm də keçmiş sovetlər məkanında qastrol səfərlərində olmuşuq. İnsani keyfiyyətini, dözümlüyünü, yoldaşa qarşı diqqətini həmişə büruzə verib. Heç vaxt özünü başqalarından üstün tutmayıb. Düz 6 ay Dağıstan Respublikasında qastrolda olduğumuz müddətdə və mənim yaratdığım Azərbaycan–Dağıstan Beynəlmiləl Teatr Truppasında bunun çox şahidi olmuşam. Vaxtilə rəhbərlik etdiyim Sumqayıt Dövlət Musiqili Dram Teatrında quruluş verdiyim tamaşalardan 6-sında Məzahir Süleymanov ən yüksək səviyyədə rollar oynayıb, həqiqi mənada obrazların daxilinə nüfuz edib. Obrazları elə ustalıqla yaradıb ki, ona tamaşaçı kimi daha çox baxmaq istəmişəm. Əlbəttə, belə oyun üsulu yalnız ustad sənətkara nəsib olur.

Məzahir Süleymanovun Sumqayıt teatrına gəldiyi vaxtdan 52 il ötür. Artıq 10 ildir ki, təqaüdə çıxıb. Deyir ki, Rusiya teatrlarında yaşı 90-ı keçmiş çoxlu rejissorlar, aktyorlar, aktrisalar çalışır və böyük həvəslə rollar oynayırlar. "Elə də bizim müqtədir aktyorlar – Möhsün Sənani, Ağasadıq Gəraybəyli, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Nəsibə Zeynalova, Leyla Bədirbəyli, Firəngiz Şərifova, Süleyman Ələsgərov və digərləri ömürlərinin axırına qədər səhnədə olublar, gözəl obrazlar yaradıblar. Mən də teatrsız qala bilmirəm. Amma, təəssüf ki, dəvət edən yoxdur. Teatrda, kinoda "yaş senzinə" fərdi qaydada yanaşmaq lazımdır, məncə"...

**Ağalar İDRİSOĞLU,**
**Əməkdar incəsənət xadimi**

## Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

### QƏRAR

### № 3-27/3-7-16/2023

**Bakı şəhəri 22 noyabr 2023-cü il**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar bəzi hüquqi aktlarda dəyişiklik edilməsi haqqında

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 228s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə, dövlət qeydiyyatına alınmış "Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası"nda, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 3 sentyabr tarixli 01 nömrəli qərarı ilə təsdiq edilmiş "Nömrə resurslarının ayrılması və istifadəsi Qaydaları"nda, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 27 fevral tarixli Q/01 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının nəqliyyat donanması gəmilərində heyət üzvlərinin sertifikatlaşdırılması haqqında Əsasnamə"də və Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 1 iyul tarixli Q/06 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə adların verilməsi haqqında Qaydalar"da dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 22 noyabr tarixli 3-27/3-7-16/2023 nömrəli qərarı ilə təsdiq edilmişdir**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 727-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar bəzi hüquqi aktlarda edilmiş dəyişikliklər:

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2011-ci il 14 fevral tarixli 16/Ü nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 2011-ci il 16 fevral tarixli 4119 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

1.2. 3.1-ci bəndə və 3.2-ci bəndin birinci cümləsinə "çatışmazlıqlar" sözündən sonra "(bu Qaydanın 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 3 sentyabr tarixli 01 nömrəli qərarı ilə təsdiq edilmiş "Nömrə resurslarının ayrılması və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

2.2. 2.3.2-ci yarımbəndə "edilmədikdə" sözündən sonra "(bu Qaydaların 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.3. 2.5-ci bəndin birinci cümləsinə "sənədlər" və "çatışmazlıq" sözlərindən sonra "(bu Qaydaların 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.4. 2.13-cü bənddən "formaya uyğun olaraq," sözləri çıxarılsın;

2.5. 2.14.3-cü yarımbəndə "edilir" sözündən sonra "(bu Qaydaların 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.6. 2.17-ci bəndə "həmin nömrə resurslarının ərizəçiyə ayrılmasını təsdiq edən sənədlər" sözlərindən sonra "(bu Qaydaların 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 27 fevral tarixli Q/01 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının nəqliyyat donanması gəmilərində heyət üzvlərinin sertifikatlaşdırılması haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 4.2-1-ci bənd əlavə edilsin:

"4.2-1. Bu Əsasnamənin 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər namizəddən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.";

3.2. aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Bu Əsasnamənin 5.4-cü bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər namizəddən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.";

3.3. aşağıdakı məzmunda 9.5-1-ci bənd əlavə edilsin:

"9.5-1. Bu Əsasnamənin 9.5-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər gəmi sahibindən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi gəmi sahibinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya gəmi sahibi tərəfindən təmin edilir.";

3.4. 9.6-cı bəndin beşinci abzasına "edilmədikdə" sözündən sonra "(bu Əsasnamənin 9.5-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Kollegiyasının 2013-cü il 1 iyul tarixli Q/06 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə adların verilməsi haqqında Qaydalar"a aşağıdakı məzmunda 11-1-ci hissə əlavə edilsin:

"11-1. Bu Qaydaların 11-ci hissəsində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər gəminin mülkiyyətçisindən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi gəminin mülkiyyətçisinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya gəminin mülkiyyətçisi tərəfindən təmin edilir.".

# ABŞ böyük sınaq qarşısında

## Ağ ev uğrunda mübarizə bütün cəbhələrdə gedir

**ABŞ prezident seçkilərinə hazırlaşır. Praymerizlərin nəticəsi, demək olar ki, məlumdur: demokratların namizədi Co Bayden, respublikaçıların isə namizədi Donald Tramp olacaq. Buna görə də amerikalılar Tramp–Bayden qarşıdurmasının təkrarlanmasına hazırlaşırlar. Amma bu qarşıdurmanın daha ciddi nəticələrə gətirib çıxaracağı ilə bağlı proqnozlar da səsləndirilir. Xüsusilə də Donald Trampın seçkilərdə iştirakının qarşısının alınmasına yönəlmiş süni maneələrin ortaya atılması ölkənin iki cəbhəyə bölünməsinə və seçkilərdən sonra burada qarşıdurmanın daha da dərinləşməsinə yol açacağına dair şübhələri artırır. Meksika–ABŞ sərhədində baş verən son proseslər isə ölkədə siyasi böhranın böyüməsinə, daha dəqiq desək, mərkəzdənqaçma meyillərinin güclənməsinə rəvac verir.**



Builki seçkilər Amerika üçün görünməmiş sınaq olacaqmı? Trampın prezidentliyə namizəd kimi diskvalifikasiyası ehtimalı varmı? Prezident seçkiləri genişmiqyaslı etirazlara səbəb ola bilərmi? Bu gün bu suallar ABŞ-ın siyasi gündəmini təşkil edir. Əlbəttə, ümumi siyasi mənzərə aydındır, hər iki cəbhədən mübarizə aparacaq namizədlərin adları da bilinir. Amma seçkilərə hələ on ay var, buna görə də indidən bu suallara konkret cavablar vermək çətindir. Bununla belə, ABŞ tarixində noyabrda keçiriləcək 60-cı prezident seçkilərinin görünməmiş seçkilər olacağı dəqiqdir. Ona görə ki, əvvəllər heç vaxt ölkənin iki böyük partiyasından birinin aparıcı namizədi onun namizədliyinə qadağa qoyulacağı ilə hədələnməmişdi. Əvvəllər heç vaxt prezidentliyə aparıcı namizəd çoxsaylı cinayət təqibinin hədəfi olmamışdı. Əvvəllər heç vaxt belə bir namizədin seçki kampaniyası aparması və eyni zamanda, iki məhkəmə prosesində potensial cavabdeh olması müşahidə edilməmişdi.

Bütün bu sadalananlar belə düşünməyə əsas verir ki, bu il ABŞ, obrazlı desək, "barıt çəlləyi"nin üstündə oturmuşdur. Əgər sabiq prezident Tramp son anda seçkilərə buraxılmasa və ya seçkilərdə nəsə şübhəli nəticələr qeydə alınarsa, ölkədə qarşıdurma baş verə bilərmi? Bir çox mütəxəssis konkret proqnoz səsləndirməkdə çətinlik çəkdiyini açıqlayır. Amma qarşıdurma məsələsində mümkün ssenarilərin ola biləcəyini də istisna etmirlər. Belə bir iddia səsləndirilir ki, məhkəmə çəkişmələri Trampın seçkidən tamamilə uzaqlaşdırılması ilə nəticələnərsə, bu, yanğına səbəb ola bilər. Hüquqşünasların sözlərinə görə, belə hal baş verərsə, ABŞ demokratiyasına, seçki sisteminə və ölkənin hüquq nizamına böyük ziyan dəyəcək. Bunun çox riskli vəziyyət yaradacağı güman edilir.

Co Bayden və Donald Tramp bütövlükdə ABŞ əhalisi arasında o qədər də populyar deyillər, lakin onları partiya üzvlərinin 80 faizi dəstəkləyir. Ona görə də hər iki siyasətçi 2024-cü il seçkiləri üçün praymerizdə aşkar favorit kimi görünürlər. Amma son proseslər göstərir ki, D.Trampın şansı getdikcə artır və bu vəziyyət demokratları narahat etməyə bilməz. Bəzi şərhçilər düşünürlər ki, demokratlar D.Trampın yenidən seçilməməsi üçün məhkəmə çəkişmələrindən istifadə etmək lazımdır. Ancaq bu çəkişmələr özündə risk də daşıyır. Ona görə ki, hər məhkəmə çəkişməsindən sonra D.Trampın reytinqi daha da artır. D.Trampın məhkəmələr vasitəsilə təqib olunması amerikalılarda belə təəssürat yaradır ki, sabiq prezidentin seçilməsinə imkan vermək istəmirlər. Dövlət-vətəndaş münasibətlərinin həmişə mürəkkəb olduğu ABŞ-da da hökumətin istənilən təzyiqi əks reaksiya doğurur, D.Trampın elektorat bazasının genişlənməsinə şərait yaradır. Bütün bu amilləri nəzərə alaraq analitiklər ehtimal edirlər ki, qarşıdakı seçkilər ABŞ-ın siyasi sistemi üçün ciddi sınaq olacaq.

ABŞ əhalisini narahat edən təkcə seçkilərin nəticələri deyil. Amerikalıları federal hökumətlə ştatlar arasında gərginliyin artması da ciddi şəkildə düşündürür. Hazırda Texas ştatı Meksika sərhədində quraşdırdığı tikanlı məftilləri gücləndirir. Qeyd edək ki, miqrantlar iki ölkə arasında sərhədi təşkil edən Rio Qrande çayı vasitəsilə qeyri-leqal şəkildə Texas ərazisinə daxil olurlar. Onlar üçün Texasın "Eagle Pass" sərhəd qapısına çəkilmiş tikanlı məftilləri aşmaq elə də çətin olmur. Buna görə də Texasın qubernatoru Qreq Abbot hesab edir ki, Co Bayden administrasiyası sərhəd təhlükəsizliyi ilə bağlı kifayət qədər tədbir görmür. Buna görə qubernator qeyri-qanuni mühacirlərin ABŞ-a keçmək üçün üstünlük verdiyi "Eagle Pass" bölgəsindəki sərhədə, təxminən, 4 kilometr tikanlı məftil çəkilməsi barədə göstəriş vermişdir.

Bundan sonra Bayden administrasiyası sərhəd təhlükəsizliyinin federal hökumətin səlahiyyətində olduğunu açıqlayaraq tikanlı məftillərin sökülməsi üçün ABŞ Ali Məhkəməsinə müraciət etmişdi. Ali Məhkəmə Meksika sərhədində Rio Qrande çayı boyunca tikanlı məftillərin çıxarılmasına qərar versə də, Texas qubernatoru bu qərara əməl etməyəcəyini açıqladı. Bundan sonra Bayden hökuməti ilə mübahisə daha da böyüdü. Məhkəmə qərarına baxmayaraq, Texas Milli Qvardiyası yanvarın 23-dən ABŞ sərhəd patrulunun öz işini görməsinə icazə vermir və tikanlı məftillər çəkməyə davam edir. Texasın vitse-qubernatoru Den Patrik də sərhəd boyunca tikanlı məftilləri quraşdıraraq federal hökumətə meydan oxuyur: "Biz konstitusiyaya görə haqlı olduğumuza inanırıq. Bizim vətəndaşlarımızı qorumaq hüququmuz var, bu ölkəni qorumaq hüququmuz var və biz, sadəcə, öz işimizi görürük". Luiziana qubernatoru Jeff Landry isə rəsmi bəyanat yayaraq Texasın hərəkətlərini dəstəklədiyini bildirmişdir.

Demokratlar Co Baydendən Texas Milli Qvardiyasını öz nəzarəti altına almağı və sərhəddən uzaqlaşdırmağı tələb edirlər. Ancaq Ağ ev sərt addımlar atmağa tələsmir, çünki mərkəzi hökumətə qarşı çıxan tək Texas ştatı deyil. Daha 25 ştat Texası dəstəkləyir. Məsələn, Cənubi Dakota qubernatoru Kristi Noem Texasa məftillər verməyə hazır olduğunu açıqlamışdır. Burada xüsusi qeyd etmək yerinə düşər ki, mərkəzi hökumətə meydan oxuyan ştatların hamısı respublikaçıların təsiri altındadır və bu hal qarşıdakı seçkilərin nə qədər gərgin keçəcəyindən xəbər verir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

## BEYNƏLXALQ HƏYAT

# Makronizm Afrikada iflasa məhkumdur

**Ötən il dünyada diqqətçəkən siyasi hadisələrdən biri də Fransanın Afrika siyasətinin iflasa uğraması oldu. Dekabrın sonunda dünya mətbuatında xəbər yayıldı ki, Sahel regionunda Parisin ənənəvi hərbi-siyasi dayağı olan Fransa hərbi kontingenti Nigeri tamamilə tərk edib. Bununla eyni vaxtda məlum oldu ki, Burkino-Fasoda diplomatik pasportu olan 4 Fransa vətəndaşı həbs edilib. Yerli hakimiyyət onları casusluqda ittiham edirdi. Həqiqətən də, bir müddət sonra aydın oldu ki, saxlanılanların 4-ü də Fransanın DGSE hərbi kəşfiyyatının əməkdaşı olub və iki ölkənin xüsusi xidmətlərinin qarşılıqlı operativ fəaliyyəti çərçivəsində tamamilə leqal fəaliyyət göstəriblər.**




Əlbəttə, Afrika ölkələrində diplomatik toxunulmazlığı olan şəxslərin həbs edilməsi elə də çox eşidilən xəbər deyil. Çünki əvvəllər Afrikada açıq düşmənçilik nişanəsi olan belə qalmaqala getməkdən ehtiyat edirdilər. Son günlər isə üzə çıxan belə xəbərlər mühüm bir simptomun – Fransa Prezidenti Emmanuel Makronun Afrika siyasətinin süqutunun əlamətidir. Əslində, bu yeni bir şey deyil. Son 3 ildə ənənəvi olaraq Fransanın təsir dairəsinə daxil olan Afrika ölkələri Parisə diş qıcamaqda idilər. Eyni vaxtda bu ölkələrin bir neçəsində rejimlərin dəyişməsinə gətirib çıxaran bənzər çevrilişlər baş verirdi. Nəticədə, Parislə isti münasibətdə olan liderlər hakimiyyətdən salınır, onların yerini isə yerli hərbi dairələrin rəhbərləri tuturdular.

Bu tendensiya son illər daha geniş hal aldı. 2021-ci ildə Malidə hərbçilər hakimiyyətə gəldilər, bir neçə ay sonra isə bu vəziyyət Qvineyada təkrarlandı. Daha bir il sonra – 2022-ci ildə anoloji vəziyyət Burkino-Fasoda baş verdi. 2023-cü ilin iyulunda isə artıq Fransa üçün strateji cəhətdən vacib olan Nigerdə hərbi çevriliş xəbəri dünyaya yayıldı. Nəhayət, ötən ilin avqustunda Fransanın maraqları baxımından Nigerdən heç də az əhəmiyyət kəsb etməyən Qabonda hərbçilər hakimiyyəti ələ keçirdilər.

Maraqlı burasıdır ki, çevrilişlərdən sonra bu ölkələr, Fransa ilə onilliklərlə mövcud olmuş əlaqələrdən imtina etdilər. Bu isə açıq şəkildə Fransa səfirlərinin bu ölkələrdən qovulması və siyasi münasibətlərin kəskin soyuması ilə müşayiət olundu.

Bütün bunlardan sonra Fransanın siyasi dairələrində, hətta rəsmi elita arasında və nüfuzlu mətbuat orqanlarında Parisin faktiki olaraq "qara kontinent"dən birdəfəlik getməsi haqqında ciddi müzakirələr oldu. Ötən ilin avqustunda bir qrup senator Makrona ünvanladığı açıq məktubda onun "Afrika treki"ndə siyasətinin iflasa uğradığını birbaşa bəyan etdi.

Kontinent çalxalanmağa və dövlət çevrilişləri bir-birini əvəz etməyə başlayanda Fransa Prezidenti Makron, həqiqətən, bu çağırışların heç birinə qarşı təsirli tədbir görə bilmədi. Yelisey sarayı nə bu hadisələri qabaqcadan görə, nə də özünə dost olan rejimlərin devrilməsinin qarşısını ala bildi. Çünki Makronun və onun komandasının, eləcə də Fransa isteblişmentinin başı daha çox Cənubi Qafqazda Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsindən sonra çətin vəziyyətə düşən Ermənistanı müdafiəyə və Fransadakı erməni lobbisinin Prezident Makronun qarşısına qoyduğu tələbləri yerinə yetirməyə qarışmışdı. Ancaq burnunun ucundan uzağı görməyən Makron bu trekdə də finişə çatmağa müvəffəq ola bilmədi.

Hadisələrin nəticələrinin aradan qaldırılması üçün rəsmi Parsin ortaya qoyası elə bir siyasi proqramı olmadı. Əvvəlki vaxtlarda Yelisey sarayı belə vəziyyətlərdə ya hadisələrin baş verdiyi ölkəyə qoşun yeridər, ya da hakimiyyətə gələn hərbçilərlə dil tapmağa müvəffəq olardı. Kuluarlarda razılıq əldə etmək üçün Fransa Prezidenti özünün ənənəvi üsullarından – rəsmi və qeyri rəsmi emissarlar institutundan istifadə edirdi. 2021–2023-cü illərdə bunların heç biri baş tutmadı. Makronun komandası aktiv və qəti addımlar atmağa cəsarət etmədi. Paris, sadəcə, süst halda ölkələrin birbir onun təsir dairəsindən çıxdığını müşahidə etdi. Nəticədə, Fransa Sahel regionundakı ölkələrdə öz əvvəlki təsirini itirdi. Onun qitədə hərbi kontingentinin dairəsi kəskin şəkildə məhdudlaşdı. Malidən, Burkino-Fasodan, Mərkəzi Afrika Respublikasından və Nigerdən hərbçilər çıxarıldı.

Burada əsas məqam heç də Fransanın xarici siyasətində Afrikanın, sadəcə, vacib istiqamətlərdən biri olmasında deyil. Avropa ilə bərabər, "qara kontinent" Parisin beynəlxalq səylərinin prioritet sahəsidir. Beşinci Respublikanın yaranmasından – 1958-ci ildən başlayaraq, bu sahə Yelisey sarayının xüsusi diqqətindədir. Afrika ölkələri ilə münasibətlərin vacibliyi açıq ifadə edilməsə də, aparat və fərdi səviyyədə təhkim olunmuş hər bir istiqamətin cavabdehi olan kuratorlar dövlət başçısına ən yaxın fiqurlardır.

Makronun Afrika siyasətinin zəifliyi prezidentin şəxsi uğursuzluğu ilə yanaşı, onun komandasında Afrika kontinenti ilə münasibətlərə cavabdeh olan şəxslərlə də bağlıdır. Bununla yanaşı, Yelisey sarayının Afrika ölkələrinə təklif etdiyi qarşılıqlı münasibətlər formulu, daha açıq şəkildə iqtidarın daxili siyasi strategiyasında da əks olunub. Lakin makronizm proqramı Afrikada işləmədi.

Fransa diplomatiyası "qara kontinent"də iflasa uğradıqdan sonra Parisin keçmiş müttəfiqləri hərbi çevrilişlər və siyasi münaqişələr fonunda daha çox başqa ölkələrlə əməkdaşlığa meyil göstərirlər. Bu onu göstərir ki, 2024-cü ildə də Fransa üçün uğursuzluq zolağı davam edəcək.

Ekspertlər hesab edirlər ki, Fransanın Afrika ilə münasibətləri müstəmləkəçilik dövründən bəri ən aşağı "dönüş nöqtəsində"-dir. Fransız hərbi hissələrinin qitənin bir sıra ölkələrində, o cümlədən Fil Dişi Sahili, Seneqal və Qabonda hələlik qalmalarına baxmayaraq, onların taleyi də şübhə altındadır.

Ona görə də bir vaxtlar Fransanın düşündüyü və yaratdığı Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyi iqtisadi qurumdan getdikcə daha çox hərbi-siyasi təşkilata çevrilir və indi onun prioriteti əsasən çevrilişlərə qarşı mübarizə aparmaqdır. Bu mübarizənin nə qədər uğurlu olacağını Makronun hazırkı xarici siyasəti ilə əsla proqnozlaşdırmaq mümkün deyil. Çünki artıq Afrikanın siyasi elitası da dərk etməyə başlayıb ki, Qərbin hegemonluğunun sonu yaxınlaşmaqdadır. "Köhnə qitə"nin dövlətləri artıq əvvəlki kimi ikinci, hətta üçüncü növə böldükləri ölkələri istismar etmək gücündə və iqtidarında deyillər. Necə Fransa illər əvvəlki Fransa, Afrika da əvvəlki Afrika deyil.

**P.S. Yazı çapa hazırlanarkən öyrəndik ki, hərbi rejimlərin idarə etdikləri 3 Afrika ölkəsi – Burkino-Faso, Mali və Nige bazar günü Qərbi Afrika Ölkələri İqtisadi Birlyindən çıxdıqlarını bəyan ediblər.**

**Üç dövlətin imzaladığı və Niger Prezidentinin katibliyinin saytında yerləşdirilmiş birgə kommünikedə deyilir ki, dövlətlərin rəhbərləri – kapitan İbraim Traore (Burkino¬- Faso), polkovnik Assimi Qoita (Mali) və briqada generalı Əbdülrəhman Tçiani (Niger) regional Qərbi Afrika təşkilatından dərhal çıxmaq barədə suveren qərar qəbul ediblər.**

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan kimyəvi məhsulların satın alınması məqsədilə*

Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il fevralın 7-si saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 19 (30423) 30 yanvar 2024-cü il, çərşənbə axşamı

## Belçikada 4 medal

***Azərbaycan cudoçuları Belçikanın Vise şəhərində keçirilmiş Belçika Açıq Turnirində 4 medal qazanıblar. Bu barədə mediaya yığmanın məşqçisi Rüstəm Alimli məlumat verib.***




Məşqçi İslam Rəhimov (66 kq), Aydın Rzayev (66 kq), Nəriman Mirzəyev (73 kq) və Kənan Nəsibovun (+100 kq) bürünc medala sahib çıxdıqlarını bildirib.

Qeyd edək ki, millimiz yarışda 12 idmançı ilə təmsil olunub.

***XQ***


## OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## İsveç nəsri ana dilimizdə

**Dövlət Tərcümə Mərkəzi yeni nəşrini – zəngin ədəbi ənənəli İsveç ədəbiyyatının seçmə nümunələrinin toplandığı "İsveç nəsr antologiyası" kitabını ərsəyə gətirib.**



Mərkəzdən bildirilib ki, İsveç nəsrinin Avqust Strindberq, Ernst Alqren, Selma Lagerlöf, Verner Fon Heydenstam, Per Hallström, Yalmar Syöderberq, Albert Enqström, Yalmar Berqman və digər dünyaşöhrətli yazıçılarının və müasir müəlliflərinin əsərlərinin daxil edildiyi nəfis tərtibatlı kitabın layihə rəhbəri Xalq yazıçısı Afaq Məsuddur.

***XQ***

**Sənət ocaqlarımız**

# Şarovski: Həyatımı Bakısız təsəvvür etmirəm



**Görkəmli aktyor və rejissor, Xalq artisti Aleksandr Şarovski müasir Azərbaycan teatr sənətinin inkişafında danılmaz xidmətləri olan qüdrətli sənətkarlardandır. 1991-ci ildən Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissorudur. Səhnədə 50-dən çox parlaq obraz yaradıb, 54 tamaşaya quruluş verib. Bugünlərdə XQ-nin müxbirləri sevimli sənətkarla görüşərək geniş müsahibə alıblar.**

***– Aleksandr Yakovleviç, bildiyimizə görə, siz peşəkar teatr təhsili almamısınız. Necə oldu ki, teatr aləminə qədəm basdınız?***

– Mən, həqiqətən, ixtisasca aktyor deyiləm. Bu sahədə fəaliyyətə 1967-ci ildə Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində başlamışam. Məni bura xoş bir təsadüf gətirib. Etiraf edirəm ki, teatra gəlişimin səbəbi ilk sevgim ilə bağlı olub. Belə ki, hələ orta məktəbin 10-cu sinfində oxuyarkən bir gözəl qıza bərk vurulmuşdum. Qız da mənə biganə deyildi. Bir-birimizdən ayrı qala bilmirdik. O qız musiqi məktəbini bitirib Dövlət Gənc Tamaşaçılar Teatrının orkestrində pianoçu kimi işləməyə başladı. Nə gizlədim, onu hər gün, hər an görmək istəyirdim. Axı, həyatımın çox qaynar çağları idi.

Bir dəfə qızı təəccübləndirməyi qərara aldım. Məktəbdə dram dərnəyində məşğul olmuşdum, aktyorluq bacarığım var idi. Özümdə cəsarət tapıb teatra getdim. Yaxşı xatırlayıram, o vaxt teatrın baş rejissoru Zəfər Nemətov, direktoru isə Bala Qasımov idi. Çox peşəkar və xeyirxah insanlar idilər. Onlara dedim ki, aktyor olmaq istəyirəm. Məni yoxladılar və teatrın truppasına qəbul etdilər.

Qız biləndə ki, onunla bir kollektivdə çalışıram, buna çox sevindi. Mən bu teatrın səhnəsində 1976-cı ilə qədər çalışdım. Beləcə bu sənətə əbədi bağlandım. Qeyd etmək istərdim ki, mənə ən çox uğuru A.Dümanın "Üç muşketyor" əsərindəki müşketyor Dartanyan obrazı gətirib.

Atam aktyor olmağıma heç razı deyildi. Artıq səhnədə müxtəlif tamaşalarda rol alsam da, onun könlünü almaq üçün Xarici Dillər Universitetinə qəbul olundum. Atama vəd verdim ki, institutu bitirən kimi, teatrla vidalaşacağam.

***– Lakin teatrdan ayrıla bilmədiniz...***

– Səhnənin qeyri-adi bir aurası var. Ona ürək vermisənsə, ayırlmaq olmur. Başa düşdüm ki, teatr mənim taleyimdir. Burada özümü azad və xoşbəxt hiss edirəm.

Bir müddət sonra Gənc Tamaşaçılar Teatrı artıq mənə "dar gəlməyə" başladı. O vaxt bir teatrdan başqasına keçmək çox çətin idi. Bəxtim gətirdi ki, həmin ərəfədə məni Dövlət Akademik Rus Dram Teatrına Fərhad roluna (S.Vurğunun "Fərhad və Şirin" əsəri nəzərdə tutulur – red.) dəvət etdilər. O vaxtdan bugünə qədər bu istedadlı kollektivin üzvüyəm. Fərhad rolundan sonra Ostrovskinin, Puşkinin, Qoqolun, başqa klassik rus və dünya dramaturqlarının əsərlərində əsas rolları oynadım. Bu gün də səhnədəyəm.

***– Bəs rejissorluğa necə keçdiniz?***

– Dartanyan rolundan sonra qəlbimin dərinliklərində rejissor olmaq arzusu baş qaldırmışdı. Həmin tamaşada mən həm də rejissor assistenti olmuşam. Rus Dram Teatrında "Müqəddəs günahkar" tamaşası səhnəyə hazırlanırdı, mənə İblis obrazı həvalə olunmuşdu. Məşq vaxtı quruluşla bağlı müəyyən təkliflərimi verirdim. Hiss edirdim ki, aktyorlar məni eşidirlər və rejissorun dediklərindən daha həvəslə qəbul edirlər.

Bir gün teatrın direktoru Qəzənfər Topçuyev məni kabinetinə çağırıb dedi ki, tamaşanı sənə həvalə etmək istəyirəm. Dedim ki, axı, rejissor məndən inciyə bilər. Topçuyev bir an düşünüb təklif etdi ki, o zaman tamaşanı birlikdə hazırlayın.

O vaxtdan məni teatra rejissor ştatına qəbul etdilər. Bir çox tamaşalarda həm aktyor, həm də rejissor kimi çalışırdım. Uzun müddət qoşa fəaliyyətim bu münvalla davam etdi. Sonra o vaxtkı mədəniyyət naziri Polad Bülbüloğlu məni teatrın baş rejissoru təyin etdi.

***– Bir çoxları deyirlər ki, aktyor Şarovski teatrda parlaq obrazlar yaradıb, amma, kinematoqrafiyada bəxti gətirməyib.***

– Bu, həqiqətən, belədir. Cəmi 4 filmə çəkilmişəm. Etiraf edirəm ki, mən kinoya çəkilməyi sevmirəm. Ona görə də kino taleyim yoxdur. Çəkiliş meydanında bir gün bir kadrı, sabah isə digər bir kadrı çəkirlər, sonra da uzun montaj prosesi başlayır. Bütün bunlara mənim səbrim çatmır.

Teatr sənəti isə tamamilə başqadır. Burada hər şey təbii və canlıdır. Teatrda məşq prosesi, premyeralar, canlı tamaşalar daha maraqlıdır. Səmimiyyətimə inanın, teatr mənim həyatımdır. Mən tamaşa hazırlayanda dincəlirəm. İnsan sevdiyi işlə məşğul olanda yorulmur.

Özünü tərifləmək olmasın, inzibatçılığı sevmirəm. İclaslar, yığıncaqlar



keçirmək mənlik deyil. Həmişə demişəm, bu gün də deyirəm ki, aktyor məşqdə olar, iclasda yox. Teatrımızda çox səmimi bir ab-hava var. Biz tamaşaçıları heyrətləndirmək üçün əlimizdən gələni edirik. Teatrsevərlər bunu hiss edirlər.

***– Repertuar ilə bağlı çətinlikləriniz varmı?***

– Bu, çox vacib məsələdir. Bəzi müəlliflər özlərinin yarıtmaz pyeslərini teatra "sırımağa" çalışırlar. Onlara qətiyyətlə "yox" deməyi bacarıram. Repertuarda Rüstəm və Maqsud İbrahimbəyovların, Anarın əsərləri əsasında tamaşalar var. Bir müddət əvvət mənim quruluşumda "Üç gözəl" adlı yeni tamaşanın premyerası olub.

Hazırda əlimdə Avstriya dramaturqunun bir əsəri var, onu səhnəyə hazırlayıram. Amma düşünürəm ki, zaman-zaman klassik əsərlərə müraciət etmək mütləq lazımdır. Klassika hər bir aktyorun yaradıcılıq imkanlarını üzə çıxarır. Bir müddət əvvəl Çexovun "Albalı bağı"nı səhnəyə qoymuşuq. Çox uğurlu alınıb.

***– Aleksandr Yakovleviç, 4 ildən sonra 80 yaşınız olacaq. Yubileyinizi hansı əsərə quruluş vermək, yaxud obrazı yaratmaqla qeyd etmək istərdiniz?***

– Mən sizi başa düşdüm. Siz, yəqin ki, Kral Lir obrazını nəzərdə tutursunuz. Böyük Şekspirin eyni adlı faciəsində mən illər öncəsi Henrix rolunu səhnədə canlandırmışam. 80 yaşımla bağlı planlarıma gəldikdə isə, necə deyərlər, yaşayarıq, görərik...

***– Yaş üstünə yaş gəldikcə "işdən, gücdən yoruldum, usandım, bezdim" dediyiniz anlar olurmu?***

– Əksinə, illər keçdikcə daha çox teatrla bağlı olmaq istəyirəm. Mənə elə gəlir ki, teatrı hələ indi dərk etməyə başlamışam. Yadınızdadırmı, rəhmətlik estrada müğənnisi İlhamə Quliyevanın belə bir mahnısı vardı: "Yaşın nə fərqi var..."(Gülümsəyir).

Əlbəttə, yaş öz işini görür. Amma illər keçdikcə təcrübə də qazanırsan. Bir də ki, insan gərək ruhən qocalmasın. Teatr elə peşə sahəsidir ki, orada bütün yaş qruplarında olan insanlara ehtiyac var.

***– Siz həm də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirsiniz. Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbərisiniz...***

-- Dünayda çox az dövlət tapmaq olar ki, müxtəlif xalqların nümayəndələri bizim ölkədə olduğu qədər azad, sərbəst və əmin-amanlıq içərisində yaşasınlar. Mən dəfələrlə dünyanın böyük şəhərlərindəki teatrların rəhbərlərindən iş təklifləri almışam. Amma seçim etmək barədə heç vaxt düşünməmişəm. Sadəcə, ona görə ki, balıq susuz yaşaya bilmədiyi kimi, mən də Bakısız qala bilmərəm.

***– Siz 2023-cü ildə "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" ilə təltif edilibsiniz. Əməyiniz ondan əvvəl də yüksək qiymətləndirilib...***

– Mən dövlətimdən çox razıyam. 2008-ci ildə ölkə Prezidentinin sərəncamı ilə "Şöhrət", 2018-ci ildə "Şərəf" ordenləri ilə təltif olunmuşam. Hər dəfə belə mükafatlara layiq görüləndə deyirəm ki, bu yüksək qiymət, bütövlükdə, bizim teatrın kollektivinin əməyinə verilən böyük dəyərdir.

**Söhbəti qələmə aldılar:**

***Ramilə QURBANLI,***
***Məsaim ABDULLAYEV***
***XQ***

**Hava**



## Hava Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 1-3°, gündüz 3-5° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 775 mm civə sütunu olacaq, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q.QASIMOV***
***XQ***

***✓ 2006-cı ildə Azərbaycan Dövlət Pedaqoji Kolleci tərəfindən Kərimova Nigar Fizuli qızının adına verilmiş diplom itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

"Azərsu" ASC-nin kollektivi səhmdar cəmiyyətin kommunikasiyalara nəzarət şöbəsinin aparıcı mühəndisi Məhərrəm Alısoya qardaşı

**ARİF ALISOYUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3365
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00